# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 96 (9551) 10 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



**Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.**

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

# Dərin ehtiramla



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini anıblar

**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 79 il ötür. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.**

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib.

→ 2




## Mehriban xanım Əliyeva 9 May - Qələbə Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 May - Qələbə Günü münasibətilə sosial şəbəkə hesabında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Faşizm üzərində Qələbənin 79-cu ildönümü münasibətilə bütün veteranlarımızı təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, Vətənimizə sülh və əmin-amanlıq arzulayıram!"

# Dərin ehtiramla

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini anıblar





*Əvvəli 1-ci səh.*

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman ehtiramla anılıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. Azərbaycan Prezidentinin 2024-cü il 2 may tarixli Sərəncamı ilə 1941-1945-ci illər müharibəsində iştirak etmiş şəxslərə 2000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.





Azərbaycan xalqı artıq dördüncü ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət, nəhayət, zəfər çaldı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

## İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abas-bəyli Könül Eldar qızı
Abaszadə Mələk Fuad qızı
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev İlkin Əşrəf oğlu
Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağayev Miraslan Əzizəli oğlu
Ağayeva Həcər Maqsud qızı
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyev Həbib Rəşad oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Aşurov Mustafa Əhməd oğlu
Atakişiyev Firdovsi Nurəddin oğlu
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva İnarə Əhməd qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırova Sənubər Yusufovna
Bayramov Təyyar Allahverdi oğlu
Bəşirov Xanlar Əyyub oğlu
Bəylərov Nəzər Rəhman oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dadaşov Ceyhun Arif oğlu
Dadaşov Manaf Məcid oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Elşad Eldar oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əhmədova Aynur Əhməd qızı
Ələkbərzadə Mehriban Zaur qızı
Ələsgərova Əfqanə Elşad qızı
Əlili Hüseyn Azad oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Məhəmməd Əli oğlu
Əliyev Samir Asəf oğlu
Əliyeva Afət Məmməd qızı
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əsədov İlham Əsəd oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferştandt Anton Sergeyeviç
Gözəlova İradə Vaqif qızı
Həmidov Elgün Rafik oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Bəhrəm Afət oğlu
Həsənov Kərim Abbas oğlu
Həşimov Orxan İlqar oğlu
Hüseynli Rauf Eyyub oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynova Fəridə Malik qızı
Hüseynova İlahə Həsən qızı
Hüseynova Nərmin Mətləb qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanov Vaxtanq Yaşar oğlu
İmranova İnna Aleksandrovna
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Şəhla Əli qızı
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Nərgiz Faiq qızı
Kuxmazova Yulizana Şəfiyevna
Qasımova Zümrüd Bəxtiyar qızı
Qeybullazadə Natəvan Əhlulla qızı
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Qibləliyev İsrafil Arif oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Qurbanov Cahangir Qafar oğlu
Qurbanov Rövşən Oktay oğlu
Qurbanova Lalə Dəmir qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehdiyev Oqtay Nüsrət oğlu
Mehmandarov Mustafa Adil oğlu
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmməd Lalə Mirzəli qızı
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Emil Əfrasiyab oğlu
Məmmədov Hakim İlham oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədov Ramil Şamil oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Səkinə Çapay qızı
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəyeva Vəfa Rafiq qızı
Mirzəzadə Nicat Qərib oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Vüsal Sədaqət oğlu
Mürvətova Hüsniyyə Vaqif qızı
Nəbiyeva Səmayə Kazım qızı
Nəsibova Rada Ziyad qızı
Nəzərov İlham İslam oğlu
Novruzova Kəklik Vəliəddin qızı
Oduşev Timur Vladislavoviç
Osmanov Fuad Tacəddin oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəcəbli Məmməd Qüdrət oğlu
Rəfiyeva Aidə Fazil qızı
Rəhmanov Rəhman Tofiq oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Nurlan İbrahim oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyfullayev Anar Ağaverdi oğlu
Səfərov Rəşad Süleyman oğlu
Səfərova İlahə Qiyas qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şahbazova Esmiralda Məmmədəli qızı
Şərifəliyeva Səidə Vahid qızı
Tağıyev Cəfər Vəli oğlu
Tağızadə Mahir Tahir oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yahyayev Taleh Saleh oğlu
Zaliyeva Mehriban Əskərali qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarova Əminə Cahangir qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 may tarixli 3874 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 672 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2024-cü il*

## Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Eldarov Ömər Həsən oğlu
Əliyeva Böyük Xanım Həsənbala qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Məlikov Aqil Qədəşbala oğlu
Məmmədəliyeva Sevda Yusuf qızı
Mustafayeva Laləzar Bəşir qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2024-cü il*

**Azərbaycanın dünyanın aparıcı ölkələri ilə iqtisadi və siyasi əlaqələri getdikcə genişlənir. Qarşılıqlı rəsmi səfərlər isə bu əlaqələrin daha da dərinləşməsinə böyük təkan verir. Azərbaycanın yaxından dostluq və əmakdaşlıq etdiyi ölkələrdən biri də Bolqarıstandır. Bu ölkə ilə qarşılıqlı münasibətlər 1992-ci ilin iyunundan - Bolqarıstanın Azərbaycanın müstəqilliyini tanımasından sonra qurulub. Bolqarıstanın Azərbaycandakı səfirliyi 1999-cu ilin dekabrından, Azərbaycanın Bolqarıstandakı səfirliyi isə 2004-cü ilin aprelindən fəaliyyət göstərir.**



# Azərbaycanla Bolqarıstan arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır

Dövlətimizin başçısı İlham Əliyev 2005-ci ilin sentyabrında, 2009-cu ilin noyabrında və 2015-ci ilin martında Bolqarıstana bir sıra rəsmi və işgüzar səfərlər etmişdir. Sonuncu səfər enerji layihələri və qarşılıqlı sərmayələrlə bağlı müzakirələrin aparılması ilə yanaşı, Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə ilə yadda qalmışdı.

Azərbaycan və Bolqarıstan çoxtərəfli institutlar vasitəsilə də uğurlu əməkdaşlıq edir. Hər iki ölkə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, Azərbaycanın Bolqarıstan da daxil olmaqla Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələrinin inkişafına kömək edir. Sofiya həmçinin Bakının NATO ilə tərəfdaşlığının intensivləşdirilməsini fəal şəkildə təşviq edir və daim Azərbaycanın təşəbbüslərini dəstəkləyir.

Enerji tərəfdaşlığı Azərbaycan-Bolqarıstan münasibətlərinin təməli hesab edilir. Bu tərəfdaşlığın əsasını qoymuş "Cənub qaz dəhlizi" layihəsinə gəldikdə, Prezident İlham Əliyev və Avropa İttifaqının ovaxtkı xarici əlaqələr və təhlükəsizlik üzrə ali nümayəndəsi Federika Moqerini tərəfindən imzalanmış Məşvərət Şurasının Birgə Bəyanatında Bolqarıstan onun fundamental elementlərindən biri olaraq qeyd olunmuşdur.

Azərbaycan və Bolqarıstan əməkdaşlığı üçün digər mühüm sahəni nəqliyyat əlaqələri təşkil edir. 1998-ci ildən bəri hər iki ölkə TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) layihəsinin bir hissəsidir. Son zamanlar aktuallıq qazanmış bu layihə Avropa ilə Çin arasında səmərəli əlaqənin inkişaf etdirilməsi məqsədini daşıyır. Müasir Bakı Beynəlxalq Dəniz Ticarət Limanı hazırda Xəzər dənizi regionunda tranzit imkanlarının genişləndirilməsinə böyük töhfə verir. Bu baxımdan, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Bolqarıstanın Limanlar İnfrastruktur Şirkəti yükdaşımaların hər iki istiqamətdə genişləndirilməsi üçün əməkdaşlıq edir. Hər iki ölkə bir müddət fəaliyyət göstərməyən, lakin hazırda yenidən diqqət mərkəzində olan "Çin, Mərkəzi və Şərqi Avropa arasında əməkdaşlıq" forumunun vizyonunu bölüşür.

Sofiyanın Qarabağ münaqişəsi ilə bağlı ardıcıl olaraq ədalətli mövqe tutması, Azərbaycanın ərazi bütövlüyünü və sülhün bərqərar olması səylərini birmənalı şəkildə dəstəkləməsi ölkəmizdə də yüksək qiymətləndirilir. Bakı işğaldan azad edilmiş torpaqlar üzərində suverenliyinin tam bərpasına, bu ərazilərin dirçəldilməsinə diqqət çəkmək üçün xarici qonaqları Qarabağa və Şərqi Zəngəzura dəvət edir: Bolqarıstanın Ayrı-seçkiliyə Qarşı Müdafiə Komissiyasının sədri Ana Cumalıyevanın başçılıq etdiyi belə nümayəndə heyətlərindən biri 2021-ci ilin payızında Qarabağın ruhlar şəhəri hesab edilən Ağdama səfər edib. O, səfər zamanı 1994-2020-ci illər ərzində işğalçı qüvvələr tərəfindən törədilmiş dağıntıların miqyasının şahidi olub.

Bu günlərdə iki ölkə arasındakı əməkdaşlığı daha da genişləndirmək məqsədilə Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycan Respublikasında səfərdə olub. Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə həm təkbətək, həm də geniş tərkibdə görüşü keçirilib, Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlət başçımız aparılan müzakirələr barədə mətbuata bəyanatında demişdir: "Bu gün biz bir layihəni də müzakirə etdik, o da "yaşıl enerji" kabelidir. Bildiyiniz kimi, Azərbaycan tərəfdaş ölkələrlə, o cümlədən Bolqarıstanla bu istiqamətdə çox fəal iş aparır. Hesab edirik ki, bir neçə aydan sonra hazır olacaq texniki-iqtisadi əsaslandırma işlərin başlanması üçün gözəl zəmin olacaq. Beləliklə, Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda "yaşıl enerji" təchizatçısı kimi özünü göstərəcək. Potensial kifayət qədər genişdir və biz bu barədə eyni zamanda ilin sonunda COP29 konfransında da danışacağıq. Mən Prezident Radevi bu tədbirdə iştirak etmək üçün Azərbaycana dəvət etmişəm".

Bolqarıstan Prezidenti mətbuata bəyanatında iki ölkə arasındakı qarşılıqlı əməkdaşlıqdan söz açaraq demişdir: "Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm. O, Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir. "Yaşıl enerji" layihələri bunun bariz nümunəsidir. Bununla yanaşı, onun fəal diplomatiyası da imkan verdi ki, bu gün biz beynəlxalq səviyyədə sülh və təhlükəsizlik, sabitlik haqqında danışaq. Ona görə mənə heç də təəccüblü gəlmədi ki, Azərbaycan COP29 kimi olduqca mötəbər bir tədbirə ev sahibi seçildi. Biz Bolqarıstan olaraq o zaman Azərbaycanın namizədliyini qəti şəkildə dəstəklədik. Bu gün mən Prezident Əliyevə məlumat verdim ki, biz də öz növbəmizdə institusional və ekspert səviyyəsində COP29-a dəstək verməyə hazırıq".

Bolqarıstan Prezidentinin Azərbaycana səfəri zamanı keçirdiyi yüksəksəviyyəli görüşlər, aparılan danışıqlar, fəal siyasi və iqtisadi dialoq imkan verir ki, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələr bundan sonra daha da genişlənsin və yeni uğurlu nəticələr əldə olunsun. Bolqarıstan və Azərbaycan arasındakı ikitərəfli münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır, qarşılıqlı hörmət və maraqlar əsasında qurulur.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycanın Baş naziri türkiyəli investorları bərpaolunan enerji sahəsində əməkdaşlığa çağırıb

**"Azərbaycan çox əlverişli investisiya mühitinə malikdir və Türkiyə şirkətləri də bundan fəal istifadə edirlər. Biz qarşılıqlı investisiyaların həcmini artırmaq üçün bütün lazımi addımları atmağa hazırıq".**








AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Baş naziri Əli Əsədov mayın 8-də Ankarada Türkiyə-Azərbaycan Biznes-Forumunda bildirib.

Hökumət başçısı qeyd edib ki, təkcə son iki onillikdə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar sərmayə qoyulub və bunun da 200 milyardı qeyri-neft sektorunun payına düşüb.

Əli Əsədov vurğulayıb ki, Azərbaycan Türkiyə ilə qarşılıqlı gələcək faydalı iqtisadi əməkdaşlığa hazırdır və bu, iki ölkə xalqlarının maraqlarına cavab verir. "Əminəm ki, biznes icmaları ölkələrimizin investisiya mühitinin əlverişli imkanlarından istifadə etməlidirlər", - deyə o vurğulayıb.

Türkiyənin Azərbaycan iqtisadiyyatına yatırdığı investisiyaların həcminin 16 milyard dolları keçdiyini, Azərbaycanın Türkiyə iqtisadiyyatına yatırdığı investisiyaların həcminin isə 20 milyard dolları keçdiyini xatırladan Əli Əsədov əlavə edib ki, bu gün Azərbaycan bazarında 4 mindən çox Türkiyə şirkəti aktiv fəaliyyət göstərir və bununla da ölkəmizdəki digər xarici şirkətlərin əksəriyyətini təşkil edir.

Baş nazir iki qardaş ölkənin iqtisadi idarələrinin xətti ilə güzəştli ticarət haqqında sazişin çərçivələrinin genişləndirilməsi üzrə işin aparılmasına diqqət çəkib.

"44 günlük Vətən müharibəsindən sonra Türkiyə ilə əməkdaşlığın inkişafı üçün yeni imkanlar açılıb, - deyə Azərbaycan hökumətinin başçısı bildirib. "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin də fəal iştirak etdiyi genişmiqyaslı bərpa işləri aparılır. Türkiyənin 20-dən çox şirkəti bu gün həmin ərazilərdə ümumi dəyəri 4 milyard dollar olan 50-yə yaxın layihə həyata keçirir", - deyə Əli Əsədov bildirib.

Baş nazirin sözlərinə görə, Azərbaycanda həyata keçirilən infrastruktur layihələri investorların ölkəmizə marağının artmasına səbəb olur. "Son dövrdə nəqliyyat sahəsi Azərbaycan hökuməti üçün prioritetlərdən biri olub. Bu istiqamətdə səylər artıq öz konkret bəhrələrini verir. Ölkəmizin infrastruktur imkanları Şərq-Qərb və Şimal-Cənub kimi genişmiqyaslı nəqliyyat təşəbbüslərinin mühüm həlqəsinə çevrilib",- deyə Bakı-Tbilisi-Qars dəmir yolunun (BTQ) buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə işlərinə də diqqət çəkən hökumət başçısı vurğulayıb.

Əli Əsədov "yaşıl iqtisadiyyat"ın inkişafının vacibliyini də qeyd edib. "BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasının Tərəflər Konfransının qarşıdan gələn 29-cu sessiyası (COP29) Azərbaycanın ümumi "yaşıl gündəliy"inin tərkib hissəsidir. Türkiyəli investorları bərpaolunan enerji sahəsində də əməkdaşlığa dəvət edirik", - deyə Baş nazir bildirib.

Qeyd edək ki, Türkiyə-Azərbaycan Biznes-Forumuna Azərbaycan İqtisadiyyat Nazirliyi, Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Türkiyə ticarət palataları və birjalar İttifaqı (TOBB) və digər qurumlar tərəfindən təşkilati dəstək göstərilib.

# Azərbaycan-Slovakiya əməkdaşlığının perspektivləri genişdir

**Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə açılır. Gələcək əməkdaşlığın perspektivləri barədə inamla fikir söyləmək üçün Slovakiyanın Baş naziri Robert Fitsonun ölkəmizə rəsmi səfəri çərçivəsində strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmasını göstərmək kifayətdir. Bu, iki ölkə arasında əlaqələri yüksək səviyyəyə qaldıran bir sənəddir və müştərək yolumuzun uğurlu olacağından xəbər verir.**

Hazırda Azərbaycanla Slovakiya arasında ticarət dövriyyəsi 70 milyon avrodan bir az çoxdur. Lakin bu rəqəmin yüksəlməsi üçün heç bir problem yoxdur. Belə ki, Slovakiya ölkəmizlə enerji, kənd təsərrüfatı, elektrik stansiyaları, ətraf mühitin qorunması və inşaat sahəsində əməkdaşlıq etməkdə maraqlıdır.

Konkret olaraq enerji sahəsinə gəldikdə onu demək mümkündür ki, Slovakiya Azərbaycandan qaz idxal edən doqquzuncu ölkə olacaq. Hazırda Azərbaycan səkkiz ölkəyə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Serbiya və Macarıstana öz təbii qazını ixrac edir. Onu da xatırladaq ki, keçən ilin aprel ayında Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı anlaşma memorandumu imzalanmışdır. Bu sənəd Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükünün "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcəyi nəzərdə tutulur. Prezident İlham Əliyev cari il mayın 7-də mətbuata bəyanatında bu məsələyə də toxunaraq demişdir: "Beləliklə, Azərbaycan qazını Slovakiya bazarına da nəql etmək üçün yaxşı imkanlar yaradılmışdır. Avropa İttifaqı ilə Azərbaycan arasında qaz və enerji sahəsində imzalanmış strateji tərəfdaşlıq Bəyannaməsi icra edilir. Azərbaycan öz təbii qazını Avropa məkanına etibarlı yollarla nəql edir. Avropaya təchizat 2021-ci ildəki 8 milyard kubmetrdən bu il 12 milyard kubmetrə qədər qalxacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim planlarımızda 2027-ci ilin sonuna qədər təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi məsələsi dayanmışdır və mən hesab edirəm ki, biz buna nail olacağıq. Azərbaycanda qaz hasilatı artır, yeni yataqlar kəşf olunur və o yataqlarda istismar artıq başlamışdır. Eyni zamanda bizim genişmiqyaslı "yaşıl gündəliy"imiz də icra edilir və bir çox bərpaolunan külək və günəş enerjisi stansiyalarının inşa olunması bizə qaza qənaət etmək imkanı yaradacaqdır və təbii ki, bu qazın əsas istiqaməti və əsas ünvanı Avropa olacaqdır".

Slovakiyanın Baş naziri Robert Fitso həmçinin neft emalı və bərpaolunan enerji sahələrində də əməkdaşlıq üçün imkanların olduğunu bildirmişdir: "Neft də Slovakiya üçün önəmlidir. Çünki biz tamamilə Rusiya neftindən asılıyıq. Bildiyiniz kimi, Bratislavada böyük neftayırma zavodu var. Sizin neftin keyfiyyəti də hazırda ölkəmizdə araşdırılır. Mən neft üzrə ekspert deyiləm. Amma sizin neft də seçimlərdən biridir və ola bilər. Buna görə də bu layihə üzrə irəliləmək lazımdır. Hərbi sahədə olduğu kimi, enerji sahəsində də əməkdaşlıq etmək mümkündür. Slovakiya inkişaf edən bir ölkədir. Bəlkə də külək və günəş enerjisi sahəsində də nələrsə edə bilərik. Yəni bizim ölkə inkişaf edir. Bu sahədə əməkdaşlığa tamamilə hazırıq. Bildiyiniz kimi, bu sahədə bizim böyük təcrübəmiz var. Yəni əlaqələrin inkişafı üçün biz hər zaman hazırıq, təcrübəmizi də sizinlə bölüşə bilərik. Dediyim kimi, istər külək enerjisi olsun, istər günəş enerjisi, istərsə də fotovoltaiklər. Yəni biz bunlara açığıq".

Qeyd edək ki, hazırda Azərbaycanda bir sıra Slovakiya şirkətləri fəaliyyət göstərir. Bu şirkətlər yol tikintisi, müxtəlif layihələrin həyata keçirilməsi ilə məşğuldurlar. Əməkdaşlığın növbəti istiqaməti isə Qarabağ və Şərqi Zəngəzurdur. Ağdamın Qərvənd kəndinin yenidən qurulması Slovakiya şirkəti tərəfindən icra ediləcək. Slovakiyalı mütəxəssislər işğaldan azad edilmiş torpaqlarımızda ən müasir standartlara cavab verən "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında işlər görəcəklər. Bu da dövlətimizin başçısının dediyi kimi, böyük rəmzi məna daşıyır. Çünki əlaqələrimizin səmimiliyinin dərəcəsini göstərir. Əlbəttə ki, bu, yurd yerlərinə qayıdacaq insanlarımızı da sevindirəcək.

Slovakiyanın Baş naziri Robert Fitso Prezident İlham Əliyevə bununla bağlı demişdir: "Cənab Prezident, Qarabağdakı təşəbbüsümüzü dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Bu, "ağıllı kənd" layihəsidir. Bu, çox maraqlı bir layihədir. Mən imkan düşən kimi böyük məmnuniyyətlə oraya səfər etmək istərdim və ümid edirəm ki, Siz də tez bir zamanda bizə - Slovakiyaya səfər edəcəksiniz. Orada biz bu irəliləyişlə bağlı müzakirələr apara bilərik. Eyni zamanda biz kiçik hava limanının inşası ilə də maraqlanırıq və enerji sahəsində əməkdaşlıq da bizə maraqlıdır".

Heç bir şərhə ehtiyacı olmayan sözlərdir. Bununla belə, qısaca demək istərdik ki, Azərbaycan-Slovakiya əməkdaşlığının geniş üfüqləri görünür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Türkiyənin vitse-prezidenti ölkəsinin biznes dairələrini Azərbaycanda yeni layihələr həyata keçirməyə çağırıb

**Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ölkəsinin investorlarını Azərbaycan iqtisadiyyatına yeni yatırımlar etməyə çağırıb.**




AZƏRTAC xəbər verir ki, Cevdet Yılmaz Ankarada Türkiyə-Azərbaycan Biznes-Forumunun iştirakçılarına müraciət edərək, Azərbaycan bazarının imkanlarına diqqəti çəkib.

"Türkiyənin biznes dairələrini Azərbaycanda, xüsusilə energetika, elektronika, mədən sənayesi, tikinti, informasiya texnologiyaları sahələrində yeni layihələr həyata keçirməyə çağırıram", - deyə vitse-prezident bildirib.

Onun sözlərinə görə, oxşar çağırış Türkiyə iqtisadiyyatının potensialından istifadə etməyə hazır olan Azərbaycan şirkətlərinə ünvanlanmalıdır.

"Ötən ilin yekunlarına görə, Türkiyənin ÜDM-i ilk dəfə olaraq 1,1 trilyon dolları keçib. Bu gün ölkəmiz dünyanın 17-ci ən böyük iqtisadiyyatına sahibdir", - deyə Cevdet Yılmaz bildirib.

Türkiyənin vitse-prezidenti neft-qaz sektorundan əldə edilən gəlirləri ölkə iqtisadiyyatının qeyri-neft sahələrinin inkişafına yönəldən Azərbaycan hökumətinin uğurlu iqtisadi siyasəti haqqında da danışıb. "Azərbaycanın iqtisadi imkanlarının şaxələndirilməsinə yönəlmiş çox düzgün və düşünülmüş strategiya göz qabağındadır. Əminəm ki, Türkiyə şirkətləri də Azərbaycan iqtisadiyyatının gələcək modelinin formalaşdırılmasına töhfə verə bilərlər", - deyə siyasətçi qeyd edib.

Cevdet Yılmaz Türkiyə tərəfinin Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının bərpasına maksimum töhfə verməyə hazır olduğunu vurğulayıb.

O, Türkiyə ilə Azərbaycanın uğurlu qarşılıqlı fəaliyyətinin digər türk dövlətləri üçün də əməkdaşlıq nümunəsi olacağına ümid etdiyini bildirib.

# Müstəqil və bütöv Azərbaycan

**Ulu Öndər Heydər Əliyev fərqli siyasi sistemlər şəraitində Azərbaycan xalqının dövlətçilik irsinin qorunub saxlanması, müstəqil dövlət ideyasının gerçəkləşməsi prosesində ölkəmizi mürəkkəb, olduqca təlatümlü mərhələlərdən fövqəladə siyasi uzaqgörənliyi ilə çıxararaq, Ümummilli Lider səviyyəsinə yüksəlmiş tarixi şəxsiyyət və böyük dövlət xadimidir. İstər sovet, istərsə də müstəqillik dönəmində Azərbaycan xalqını təhdidlərdən qorumağı, dövlətçilik prinsiplərini sağlam təməllər üzərində möhkəmləndirməyi, Vətənin bütövlüyünü, xalqımızın milli-mənəvi dəyərlərini yaşatmağı həyatının əsas amalına çevirmiş Ulu Öndər öz şəxsiyyəti və mübarizə yolu ilə gələcək nəsilləri yeni qələbələrə ilhamlandıran nümunə yaratmışdır. Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur". Tam məsuliyyətlə deyə bilərik ki, hər bir vətənpərvər insanın yaddaşında əbədiləşmiş möhtəşəm obrazı, prinsiplərinə sadiqliyi və fədakar mübarizəsi ilə Heydər Əliyevin həyat yolu Azərbaycan xalqının mənəvi xəzinəsidir.**



Böyük siyasi fəhmi və qətiyyəti ilə cəmiyyət üçün taleyüklü və həlledici anlarda liderlik missiyasını həyata keçirmiş tarixi şəxsiyyətlərin roluna müxtəlif zaman bucağından yanaşanda bəzən fərqli mülahizələr ortaya çıxır. Böyük şəxsiyyətlərin mübahisələndirilməsi və ya tarixdə şəxsiyyətin roluna dair irəli sürülən müxtəlif mülahizələr daim müzakirə predmeti olmuşdur. Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinə məhz bu kontekstdən nəzər saldıqda onun fəaliyyət göstərdiyi dövrün konyunkturasına sığmayan və öz xalqının inamlı gələcəyinə hesablanmış qətiyyətli siyasətinin alternativsizliyi heç vaxt mübahisə doğurmamışdır. Böyük şəxsiyyət çoxşaxəli, dinamik fəaliyyəti dövründə daim gələcəyə hesablanmış müzakirələrə, fərqli düşüncələrə açıq olmuş, onun özündən sonra miras qoyduğu zəngin siyasi irs hansı aspektdən yanaşılmasından, hansı metodika ilə tədqiq edilməsindən asılı olmayaraq, daim öz aktuallığını saxlamışdır. Heydər Əliyev irsi yalnız Azərbaycan xalqı üçün deyil, dünyada haqqın, ədalətin bərqərar olması, beynəlxalq hüququn prinsiplərinin qorunması uğrunda mübarizə aparan bütün xalqlar və liderlər üçün siyasi məktəbdir. Buna görə də yalnız milli bucaqdan deyil, həm də qlobal kontekstdə Ulu Öndərin əzəmətli obrazına nəzər saldıqda onun mahiyyətini daha dərindən dərk etmək mümkündür.

Heydər Əliyevin 1969-cu ilin iyulundan başlayaraq Azərbaycana rəhbərlik etdiyi dövrdə əsası qoyulmuş milli inkişaf prosesi onun yorulmaz fəaliyyətinin, əzmkarlığının bəhrəsidir. Ulu Öndər ötən əsrin 70-80-ci illərini "coşqun inkişaf" dövrü kimi səciyyələndirərək, həmin mərhələnin mahiyyətini olduqca düzgün ifadə etmişdir. Müstəqil Azərbaycanın əsaslı iqtisadi, habelə mənəvi bünövrəsinin möhkəmləndirildiyi həmin dövrdə Heydər Əliyevin hakimiyyəti illəri olmasaydı, indiki qüdrətli Azərbaycandan söhbət açmaq çətin, hətta mümkünsüz olardı. Sadəcə, təkzibolunmaz və artıq tarixin yaddaşına həkk olunmuş faktlara nəzər saldıqda müstəqil Azərbaycanın bünövrəsinin hansı mətin iradə və uzaqgörənliklə inşa edilməsi haqqında təsəvvürlərimiz bir daha aydınlaşır.

Ulu Öndərə qədər Azərbaycan keçmiş müttəfiq respublikalar arasında sosial-iqtisadi inkişafın bütün parametrləri baxımından geridə qalmış, aqrar təmayüllü, zəif kənd təsərrüfatı respublikası kimi tanınırdı. Uzun illər məsul vəzifələrdə çalışmış Heydər Əliyev həm mövcud vəziyyəti şərtləndirən səbəbləri dərindən bilir, həm də mümkün qədər qısa vaxtda əsaslı dönüş yaratmaq üçün yeni konseptual yanaşmanın, əsaslandırılmış inkişaf strategiyasının zəruriliyini görürdü. Respublikaya rəhbərliyinin ilk günlərində qarşıda duran vəzifələri və əsas hədəfləri açıqlayan Heydər Əliyev problemləri cəsarətlə dilə gətirməklə yanaşı, həm də sürətli və davamlı inkişafın yollarını açıq şəkildə bəyan edərək təkcə Azərbaycanın deyil, SSRİ kimi böyük bir dövlətin durğunlaşmaya doğru gedən monoton həyatına və idarəçilik sisteminə yenilik gətirdi. Azərbaycan qısa zamanda tikinti-quruculuq arenasına çevrildi, respublikada ilk dəfə ölkə əhəmiyyətli obyektlərin əsası qoyuldu, müasir sosial-iqtisadi infrastrukturun yaradılmasına başlanıldı, cəmiyyəti təhdid edən mənfi hallarla kəskin mübarizəyə start verildi. 1970-1980-ci illərdə Azərbaycanda sənayedə və elmi-texniki tərəqqini müəyyən edən sahələrdə, o cümlədən maşınqayırma və metal emalında, neft və neft kimyası sənayesində istehsalın həcmi sürətlə artdı, eyni zamanda elektron, radio və digər yeni sənaye sahələri yaradıldı.

Sovetlər birliyinin inzibati-amirlik sistemi şəraitində yalnız respublikanın davamlı inkişafı deyil, eyni zamanda xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanması Ulu Öndərin ciddi önəm verdiyi və diqqət mərkəzində saxladığı prioritetlərdən olmuşdur. Heydər Əliyevin çox sonralar dediyi "Azərbaycanın varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir" fikri onun fəaliyyətinin bütün dövrlərindən başlıca prinsip, qırmızı xətt kimi keçir. O, mənəvi dəyərlərimizin əsas qaynağı, xalqımızı birləşdirən mühüm dayaq olan Azərbaycan dilinin dövlət dili statusu səviyyəsinə yüksəldilməsinə nail olmuş, mədəniyyətimizin, incəsənətimizin inkişafına diqqət və qayğısını əsirgəməmişdir.

Beləliklə, Heydər Əliyev dövrün inkişaf tempindən geridə qalmış və milli ucqar hesab olunan respublikanı birincilər sırasına yüksəldərək özünün liderlik, müstəsna istedada malik təşkilatçı keyfiyyətlərini nümayiş etdirmişdir. Buna görə də Ulu Öndərimiz SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilmişdir. 2024-cü il aprelin 22-də Azərbaycan və Rusiya prezidentlərinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə səsləndirilmiş fikirlər böyük bir ölkənin sosial-iqtisadi həyatının mühüm sahələrinə rəhbərlik etmiş Heydər Əliyevin fəaliyyətini olduqca düzgün ifadə edir. Rusiya Federasiyasının iki dəfə nəqliyyat yolları naziri olmuş Gennadi Fadeyev BAM ilə birbaşa əlaqəsi olan şəxs kimi xatirələrini bölüşərək demişdir: "Biz Heydər Əlirza oğlu haqqında danışanda insanlarda belə bir təəssüratın yarandığını görürük: o, insanları çox sevən insan idi. O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi".

Bəli, milyonlarla insanın səmimi inamı, etibarı Heydər Əliyev siyasətinin həmişəyaşarlığının və əbədiliyinin rəhnidir. Böyük Britaniyanın Baş naziri olmuş Uinston Çörçilldən vəzifədən getdikdən sonra soruşurlar ki, hakimiyyəti illərində gördüyü hansı işləri səhv hesab edir. Cavabında o deyir: "Mən işləri görərkən kimlərin sonralar nə düşünəcəyini fikirləşmədim, konkret şəraitdə ingilis xalqı üçün nəyi doğru, faydalı bildimsə, onu da etdim". Ulu Öndər Heydər Əliyev də mütərəqqi şəxsiyyət və lider kimi gərgin mübarizəsini yalnız öz xalqının istək və arzularının həyata vəsiqə alması üzərində qurmuşdur.

Heydər Əliyev heç vaxt öz xalqının taleyinə biganə qalmamış, hətta həyatını riskə ataraq Azərbaycanın haqq mübarizəsinin önündə getmiş, böyük uzaqgörənliklə onu doğru məcraya yönəltmişdir. 1990-cı ilin Qanlı Yanvarından sonra həyatına yönəlmiş təhdidlərə baxmayaraq, sovet ordusunun Bakıda törətdiyi qətliamı cinayət adlandırmış və bu məsələdə əli olanların cəzalandırılmasını qətiyyətlə tələb etmişdir. Heydər Əliyev yenə də həyatını riskə ataraq, silahdaşlarının təqib olunduğunu, qətlə yetirildiyini bilə-bilə Bakıya qayıtmış, tarixinin ən acı günlərini yaşayan xalqı ilə birlikdə olmuş, onu tək qoymamışdır.

Tarixin qırılma anlarında heç də bütün siyasi liderlərin bacarmadığı qətiyyəti və zamanın sınağından çıxmış güclü xarakteri ilə siyasi təfəkkürdə nümunə yaratmış Heydər Əliyev obrazı özündə prinsipiallığı, mətinliyi, dövlətçilik dəyərlərinə sadiqliyi əks etdirir. Bakıdakı bədxahların, millətin siyasi iradəsi ilə hesablaşmayan marginallaşmış dairələrin təzyiqi nəticəsində doğma yurdu Naxçıvana getməli olan Ulu Öndər düşmən əhatəsində qalmış muxtar respublikada Azərbaycanın istiqlaliyyəti uğrunda mühüm addımlar atmışdır. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə işə başlayan 12-ci çağırış Naxçıvan Ali Sovetinin birinci sessiyasında qəbul olunmuş "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" və digər mühüm qərarlar Azərbaycanın dövlət müstəqilliyinin bərpası prosesində əhəmiyyətli rol oynamış tarixi sənədlər olmuşdur.

Azərbaycan 1993-cü ildə növbəti dəfə tarixin qırılma anını yaşayırdı: elan olunmamış müharibədəki məğlubiyyətləri siyasi fürsət bilən AXC-Müsavat cütlüyü ölkəni vətəndaş müharibəsinə sürükləmişdi, hələ formalaşmamış dövlətçilik başıpozuq qüvvələrin əlində oyuncağa çevrilmiş, ayrı-ayrı bölgələrdə separatizm meyilləri baş qaldırmışdı. Çörəklə sınağa çəkilən xalqın gələcəyə ümidi tükənmiş, insanlar övladlarının, vətənlərinin sabahı üçün narahat olur, dərinləşən böhrandan çıxış yolları axtarırdılar. Xalqın ümummilli axtarışlarının ünvanı yenə də Heydər Əliyev şəxsiyyəti oldu. Ulu Öndər Naxçıvandan Bakıya qayıdanda ölkə artıq vətəndaş qarşıdurmasının astanasında idi, dövlətin idarəçiliyinə məsul olan şəxslər isə öz həyatlarını xilas etmək üçün qaçıb gizlənmişdilər.

Heydər Əliyevin həmin dövrdəki fəaliyyəti, sözün əsl mənasında, siyasi ustalıq, dərin zəka, müdriklik, fədakarlıq və vətənpərvərlik nümunəsidir. Ulu Öndər xarici təhdidlər, hərbi təcavüz, daxili qarşıdurmalar, habelə sosial və iqtisadi fəlakət vəziyyətində olan ölkəni faktiki məhv olmaqdan xilas etdi, dövlətçiliyimizə qarşı yönələn çoxsaylı təhlükələr, qiyamlar, sui-qəsdlər onu yolundan döndərmədi, müstəqilliyimizi beşiyində boğmaq istəyən daxili və xarici qüvvələrin məkrli planları iflasa uğradı. Azərbaycan öz dahi liderinin, böyük oğlunun səyləri nəticəsində tarixin sınağından şərəflə çıxaraq tərəqqi yolu ilə irəlilədi, inkişaf etdi, dünya xəritəsində layiqli yerini tutaraq müstəqilliyini əbədi və dönməz etdi.

Dünya tarixindən məlumdur ki, liderlərin uğur qazanmasında onların şəxsi keyfiyyətləri ilə yanaşı, xalqına bağlılıq, fəaliyyətində milli maraqların prioritetlik səviyyəsi kimi amillər də mühüm rol oynayır. Liderlər xalqı düşündürən problemlərin yalnız nəzəri həllini göstərməklə kifayətlənmir, həm də onların aradan qaldırılmasına bilavasitə rəhbərlik edirlər. Liderin tarixdə rolu öz xalqı üçün gördüyü işlərin miqyası və əhəmiyyəti ilə ölçülür. Bu baxımdan Heydər Əliyev Ümummilli Lider kimi müstəqil Azərbaycana rəhbərliyi dövründə uzaqgörən siyasəti ilə xalqımızın maraqlarını reallaşdırmış və onun taleyində müstəsna rol oynamışdır.

Heydər Əliyev Azərbaycanda dövlət institutlarının fəaliyyətini və dövlət idarəçilik sistemini yenidən qurmuşdur. 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısı alındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra Ulu Öndər bütün gücünü və enerjisini bir tərəfdən fəal diplomatiya vasitəsilə ölkəmizin beynəlxalq əlaqələrinin qurulması və möhkəmlənməsinə, ərazi bütövlüyü probleminin həllinə, digər tərəfdən isə sosial-iqtisadi inkişaf məsələlərinə yönəltmişdir.

1994-cü ildə dünyanın aparıcı dövlətlərini təmsil edən böyük neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənilməsini nəzərdə tutan "Əsrin müqaviləsi" imzalanmışdır. Bununla da Azərbaycanın neft strategiyasının əsası qoyulmuş və onun dünyada geoiqtisadi mövqeyi güclənmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan bu nəhəng layihə Heydər Əliyevin əzmkar və prinsipial fəaliyyətinin təntənəsi kimi tarixə düşmüşdür. Ümummilli Liderin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin enerji təhlükəsizliyinin əsası qoyulmuş, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı layihələrin reallaşmasında yaxından və fəal iştirak etməyə başlamışdır.

Heydər Əliyev Azərbaycanın xarici siyasətinə çeviklik, məqsədyönlülük və praqmatizm kimi dəyərlər gətirmişdir. İkitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi, güc mərkəzləri ilə münasibətlərdə balansın saxlanması, qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq hüququn normaları, onlardan irəli gələrək dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşılması, bir-birinin daxili işlərinə müdaxilə olunmaması kimi prinsiplər xarici siyasətin əsasını təşkil etmişdir. Ümummilli Liderin milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycana beynəlxalq aləmdə çoxlu dost ölkə, etibarlı tərəfdaş qazandırmış, onun nüfuzunu artırmışdır. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Heydər Əliyevin siyasətində Ermənistan-Azərbaycan münaqişəsinin həlli əsas yer tutmuş, Ulu Öndər Azərbaycanın prinsipial mövqeyini böyük ustalıqla müdafiə etmiş, beynəlxalq təşkilatların tribunalarından münaqişə haqqında həqiqətləri bütün dünyaya çatdırmış, beynəlxalq birliyin ədalətli mövqeyinə nail olmaq üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası xalqımızın birliyini, cəmiyyətdə dövlətçilik və vətənpərvərlik şüurunun inkişafını təmin etmiş, onun fəlsəfi dünyagörüşündən, zəngin mədəni irsindən güc alaraq müstəqil dövlət quruculuğunun əsas istiqamətlərini özündə birləşdirmiş mükəmməl dəyərlər sisteminə çevrilmişdir. Hələ 1969-1982-ci illərdə - Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev hesab edirdi ki, xalqın milli identikliyinin başlıca şərtlərindən biri onun mədəni inkişafında mühüm rol oynamış şəxsiyyətlərin milli yaddaşda yerinin ucaldılması amili ilə birbaşa bağlıdır. Ulu Öndər deyirdi: "Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdəki hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəni irsi, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu vardır. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir". Məhz bu səbəbdən o, Bakıda və digər şəhərlərdə mədəniyyət, ədəbiyyat və elm xadimlərimizin abidələrinin ucaldılmasını, bütün respublika üzrə tarix-diyarşünaslıq muzeylərinin, tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ev-muzeylərinin və digər mədəniyyət ocaqlarının yaradılmasını, onların yubileylərinin geniş şəkildə qeyd olunmasını vacib hesab etmiş və buna nail olmuşdur.

Azərbaycan yazıçılarının 1981-ci il iyunun 12-də keçirilmiş VII qurultayında Heydər Əliyevin çıxışı həmin dövrün reallıqlarında həm cəsarətin, qətiyyətin, prinsipiallığın, həm də öz xalqına, onun mədəni irsinə dərin bağlılığın, vətənpərvərliyin bariz nümunəsidir. Tədbirdəki çıxışında Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin dirçəlməsi, ziyalıların xalqın mənafeyinə fədakarlıqla xidməti barədə fikirlərini bölüşmüş və demişdir: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz".

# Heydər Əliyev siyasi irsinin təntənəsidir



Heydər Əliyevin xalqımızın mədəniyyətinin, mənəvi dəyərlərinin qorunması istiqamətində atdığı addımlar həmin dövrdə milli özünüdərkin dərinləşməsində və inkişafında böyük rol oynamışdır.

Artıq müstəqillik dövründə Heydər Əliyev öz nəzəri-ideoloji baxışlarını inkişaf etdirərək sistem halına salmış və azərbaycançılıq ideyasını irəli sürərək onun əsas prinsiplərini müəyyənləşdirmişdir. Heydər Əliyev azərbaycançılığın tarixi-siyasi əhəmiyyəti barədə demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik". Azərbaycançılıq ideologiyası müstəqil dövlət quruculuğu, milli inkişaf, xalqımızın vahid amal uğrunda mübarizəyə səfərbər edilməsi, habelə ölkəmizdə yaşayan müxtəlif xalqların, etnik qrupların və dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimad mühitinin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasında və həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Ulu Öndərin müəllifi olduğu və milli dövlətçiliyimizin konseptual əsaslarını təşkil edən azərbaycançılıq ideologiyası zamanla daha da zənginləşmiş və inkişaf etmiş, bu gün olduğu kimi, gələcəkdə də öz aktuallığını saxlayacaq və xalqımızı yeni qələbələrə, nailiyyətlərə səfərbər edəcəkdir.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-2003-cü illərdə həyata keçirilmiş müstəqil dövlət quruculuğu prosesinə və əldə olunmuş nəticələrin Azərbaycanın sonrakı taleyində roluna siyasi qiymət verərək demişdir: "10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir".

2023-cü il mayın 10-da Şuşa şəhərinə səfəri zamanı çıxışında cənab Prezident bildirmişdir: "Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz - onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam".

Bu gün fəxrlə yaşadığımız, qürur duyduğumuz müstəqil və güclü Azərbaycan dövləti Heydər Əliyev siyasi irsinin və onu ardıcıl şəkildə zənginləşdirən, inkişaf etdirən Prezident İlham Əliyev siyasətinin təntənəsi və zirvəsidir. Sağlam təməl üzərində davam etdirilən, milli maraqlara əsaslanan, müasir dövrün çağırışlarına cavab verən bu siyasət qarşıdan gələn dövrdə də əldə edəcəyimiz nailiyyətlərin əsasında dayanacaqdır.

Bu gün Azərbaycan təkcə postsovet məkanında deyil, daha geniş coğrafiyada iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında Azərbaycanın dünyada ən yüksək iqtisadi artıma malik olan, islahatlar həyata keçirən və investisiya yatırılan ölkə olduğu bildirilir. Bunu təsdiq edən faktlardan biri kimi "Financial Times" qrupunun "FDİ İntelligence" nəşrinin 2023-cü ildə ən çox birbaşa xarici investisiya yatırılan dünya şəhərlərinin TOP 100 reytinqində Bakının 3-cü yerdə qərarlaşmasını göstərmək olar. Ölkəmizdə makroiqtisadi sabitlik qorunur, adambaşına düşən milli gəlir və strateji valyuta ehtiyatları ildən-ilə artır, qeyri-neft sektorunun iqtisadi artımda payı əsaslı şəkildə yüksəlir, iqtisadiyyata investisiya qoyuluşunun miqdarı çoxalır və bərpaolunan enerji mənbələrindən istifadənin həcmi genişlənir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində şəhər və rayonlarda müasir infrastruktur formalaşdırılmış, sahibkarlıq inkişaf etmiş, əhalinin məşğulluq səviyyəsi və rifah halı yüksəlmişdir.

Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə nəhəng enerji və nəqliyyat layihələri reallaşdırılmışdır və bu proses davam edir. Təbii resurslara əsaslanan iqtisadiyyatdan "biliklər iqtisadiyyatı"na keçidin ardıcıl surətdə təmin olunması strateji inkişaf hədəfləri sırasında xüsusi yer tutur. Cəmiyyət həyatının müxtəlif sahələrində rəqəmsal texnologiyaların və innovasiyaların tətbiqi genişlənir. Ölkəmizin beynəlxalq texnoloji, innovativ və iqtisadi mərkəzlərlə əlaqələri dərinləşir, telekommunikasiya, tranzit və nəqliyyat xidmətləri inkişaf edir.

Prezident İlham Əliyevin xarici siyasəti Azərbaycanın dünyada mövqeyini möhkəmləndirmiş, milli strateji hədəflərin reallaşmasını təmin etmiş, ölkəmiz bölgədə güc mərkəzinə, beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilmişdir. Azərbaycan nəinki bəşəriyyəti narahat edən problemlərin həllinə dair beynəlxalq təşəbbüslərə fəal şəkildə qoşulur, həm də aparıcı beynəlxalq təsisatların - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü, Qoşulmama Hərəkatının sədri olaraq dünya birliyi tərəfindən dəstəklənən qlobal təşəbbüslərin müəllifi kimi tanınmışdır. Ölkəmiz regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində, əməkdaşlıq mühitinin möhkəmləndirilməsində mühüm rol oynayır. Azərbaycanın xarici siyasətdə əldə etdiyi böyük uğurlar, nəhəng enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində təşəbbüskarlığı və fəal iştirakı, xeyli sayda beynəlxalq tədbirlərə evsahibliyi etməsi onun dünyada geosiyasi və geoiqtisadi nüfuzunu əsaslı dərəcədə artırmışdır.

Milli-mənəvi dəyərlərin, tolerantlıq ənənələrinin qorunub saxlanması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir, dünyada gedən qloballaşma prosesinin cəmiyyətimizə mənfi təsirinin qarşısının alınmasına və milli kimliyimizin qorunması məsələlərinə xüsusi diqqət yetirilir.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan Vətən müharibəsində tarixi Qələbəmizin təməlində Prezident İlham Əliyevin ətrafında xalqımızın sıx birliyi, ölkəmizin davamlı inkişafı, xarici siyasətdə və ordu quruculuğunda əldə edilmiş böyük nailiyyətləri dayanır. 2023-cü ilin sentyabr ayında Azərbaycanın Qarabağ bölgəsində apardığı birgünlük lokal antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Ermənistanın xalqımıza qarşı apardığı işğalçılıq siyasətinə birdəfəlik son qoyulmuşdur. Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını ucaltması xalqımızın həyatında möhtəşəm tarixi hadisəyə çevrilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə hazırda böyükmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, insanlar doğma yurd-yuvalarına dönürlər. Azərbaycan dövlətinin heç bir kənar yardım olmadan, öz gücünə gördüyü işlərin miqyası həqiqətən də heyrət doğurmaya bilməz. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına şəxsən nəzarət edir, dövlətimizin başçısının tapşırıqları və dəyərli tövsiyələri işlərin tam və məsuliyyətlə icrasına etibarlı zəmin yaradır. 2020-2023-cü illərdə cənab Prezident işğaldan azad edilmiş ərazilərdə 400-ə yaxın tədbirdə iştirak etmiş, o cümlədən 8 şəhər, 32 kənd və qəsəbə olmaqla, 120 layihənin təməlini qoymuş, müxtəlif təyinatlı 71 tikinti obyektinin açılışını etmişdir. 2022-ci il iyulun 19-dan bu günədək Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Ağdərə rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə ümumilikdə 1727 keçmiş məcburi köçkün ailəsinin (6754 nəfər) qayıdışı baş tutmuşdur.

Yaşayış məntəqələrinin salınması ilə yanaşı, bölgədə geniş bərpa-quruculuq işləri aparılır. Orta ümumtəhsil məktəbləri, körpələr evi-uşaq bağçaları, xəstəxanalar, mədəniyyət və turizm obyektləri kimi sosial təyinatlı obyektlərin bərpası və yenidən qurulması ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. İnfrastruktur layihələri sırasında Füzuli və Zəngilan şəhərlərində beynəlxalq hava limanları istismara verilmiş, Laçın rayonunda hava limanının tikintisi davam etdirilir. Həmçinin avtomobil yolları, tunellər, körpülər, dəmir yolları, magistral qaz xətləri tikilir, su-elektrik stansiyaları və yarımstansiyalar, su anbarları inşa edilir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 118 min 503 hektar sahə, o cümlədən yaşayış məntəqələri üzrə 18 min 143 hektar sahə mina və partlamamış hərbi sursatlardan təmizlənmişdir.

Bütün ölkədə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu il fəaliyyətinin 20 ili tamam olan Heydər Əliyev Fondunun gördüyü işlər və həyata keçirdiyi layihələr xüsusi önəm daşıyır. Əminliklə demək olar ki, Heydər Əliyev Fondunun elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələri, sosial problemlərin həllinə dəstəyi, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği sahələrində həyata keçirdiyi layihələr ölkəmizin ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır.

İndiki və gələcək nəsillərə mütərəqqi yol göstərən, xalqa və dövlətə layiqli xidmət nümunəsi olan Heydər Əliyev irsinin öyrənilməsi və təbliği həmişə mühüm aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının ictimai fikirdə möhkəmləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunmasını Heydər Əliyev ideyalarının təntənəsi kimi qiymətləndirən hörmətli Mehriban Əliyeva demişdir: "Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası, onun müqəddəs arzusu reallaşıb - bizim 30 ilə yaxın işğal altında olmuş torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilib".

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində parlaq qələbə qazanmış İlham Əliyev andiçmə mərasimində çıxışında bildirmişdir: "İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq".

2024-cü il aprelin 19-da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazax rayonuna aid tarixi torpaqlarımızın geri qaytarılması ilə bağlı razılığın əldə olunması əhəmiyyətinə görə tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsində qalibiyyətlə irəliləyəcəyinə dəlalət edən amildir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin və diplomatik məharətinin təcəssümü olan bu qələbə həm də dövlətimizin başçısının uzun illər həyata keçirdiyi siyasətin təntənəsi və məntiqi nəticəsidir. Azərbaycan Prezidenti regionumuza kənardan müdaxilə etməyi az qala özünün gündəlik işinə çevirmiş xarici dairələrə bir daha göstərdi ki, bölgəmizə aid məsələlər, o cümlədən Azərbaycanla Ermənistan arasında sülh prosesi iki ölkə arasında, vasitəçilər olmadan həll edilə bilər. Bu, bir daha təsdiq edir ki, dünya nizamında layiqli yer tutan Azərbaycan dövləti regionda sülh, təhlükəsizlik və inteqrasiya proseslərinə dinamik təsir göstərən ciddi geosiyasi aktora çevrilmişdir.

Azərbaycan dövləti ciddi qlobal problem olan iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində ardıcıl siyasət həyata keçirir, 2030-cu ilə qədər bərpaolunan enerji həcminin və enerji səmərəliliyinin artırılması ilə bağlı beynəlxalq təşəbbüsə qoşulmuşdur. Ölkəmizdə "yaşıl enerji" sənayesinin inkişafı üçün müvafiq normativ-hüquqi aktlar qəbul olunur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan edilmişdir. Azərbaycan xarici tərəfdaşları ilə birlikdə bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə böyük layihələr reallaşdırmağa başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqətin və həssas münasibətin göstəricisidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının ifadəsi olmaqla yanaşı, həm də yeni inkişaf mərhələmizdə əldə edilmiş növbəti uğurdur. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi qlobal tədbirin reallaşması ilə bağlı müvafiq texniki-təşkilati tədbirlər həyata keçirir. Əminliklə demək olar ki, "Yaşıl dünya naminə həmrəy olaq!" şüarı altında yüksək səviyyədə keçiriləcək COP29 qlobal əhəmiyyət daşıyan bu problemin həllinə mühüm töhfə olmaqla yanaşı, həm də ölkəmizin güclü potensialını bütün dünyaya nümayiş etdirəcəkdir.

Mübaliğəsiz deyə bilərik ki, 30 illik müstəqillik tariximiz Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin sayəsində əfsanələrin reallığa çevrildiyi bir dövr olmuşdur. Ulu Öndər iqtisadi müstəqilliyimizin və sürətli inkişafımızın rəhni hesab olunan "Əsrin müqaviləsi"ni imzalayanda da, ölkəmizi nəhəng transmilli layihələrin mərkəzinə çevirəndə də çoxları bunu əfsanə, qısa vaxtda görülməsi mümkün olmayan iş hesab edirdi. Lakin müdrik siyasi xadimin praqmatizmi, uzaqgörənliyi hətta əfsanələrin də reallığa çevrildiyini bütün dünyaya sübut etdi. Bu gün Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdən xalqa müraciətləri, viran qoyulmuş Vətən torpağının yenidən dirçəldilməsi vaxtilə çoxlarının mümkünsüz, xəyal hesab etdiyi ərazi bütövlüyü bərpa edilmiş bütöv Azərbaycan reallığıdır.

*Heydər Əliyev artıq zaman kontekstinə sığmayan, bütün dövrlərdə öz əzəmətini hiss etdirən dahi şəxsiyyət, böyük liderdir. O, sadə, zəhmətkeş Azərbaycan ailəsində boya-başa çataraq zəngin və nümunəvi həyat yaşamış, müasir dünyanın görkəmli siyasi korifeyləri səviyyəsinə yüksəlmişdir. Azərbaycan xalqı yaddaşına müdrik lider, xilaskar, nəhəng quruculuq işlərinin müəllifi, həyat və fəaliyyəti ilə Vətənə sədaqətin, bağlılığın ali meyarını yaratmış tarixi şəxsiyyət kimi həkk olunan Ulu Öndərlə fəxr etməkdə haqlıdır və gələcək nəsilləri onun şəxsiyyəti timsalında tərbiyə etməyə mənəvi haqqı var.*

**Samir NURİYEV,**

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri***

# Heydər Əliyev: yaşayan

*Müasir Azərbaycan tarixində 10 may günü, ilk növbədə, dünya siyasətinin unikal şəxsiyyətlərindən olan Ulu Öndər Heydər Əliyevin doğum günü ilə əlamətdardır. Onun adını layiqincə daşıyan, ölkəmizdə və onun hüdudlarından kənarda özünün ictimai-mədəni, humanitar fəaliyyəti ilə geniş şöhrət qazanmış fondun yaranması da həmin günlə bağlıdır. Heydər Əliyev Fondunun yaradılmasını dövrün tələbi, zamanın çağırışı şərtləndirirdi: Ulu Öndərin vəfatından sonra xalqın müxtəlif təbəqələri, yerli və beynəlxalq təşkilatlar onun xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar ölkənin ali rəhbərliyinə çoxsaylı müraciətlər edirdilər. Buna görə də Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 26 dekabr tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradıldı, bütün müraciətlər nəzərdən keçirildi, təkliflər irəli sürüldü və nəhayət, dövlətimizin başçısı tərəfindən "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" 2004-cü il 10 mart tarixli fərman imzalandı. İctimai əsaslarla Heydər Əliyev Fondunun yaradılmasının dəstəklənməsi də məhz bu sənəddə təsbit olundu və iki ay sonra fond, Ulu Öndərin əziz xatirəsinə ümumxalq ehtiramının təcəssümü kimi, onun zəngin mənəvi və dövlətçilik irsini, azərbaycançılıq fəlsəfəsini və humanizm ənənələrini gələcək nəsillərə çatdırmaq missiyası ilə rəsmən fəaliyyətə başladı. Bu gün Heydər Əliyev Fondunun 20 illiyi Ulu Öndərin anadan olmasının 101-ci ildönümü ilə eyni vaxtda qeyd edilir.*

*Ulu Öndərin dövlətçilik fəaliyyəti ilə bağlı daha bir əlamətdar hadisə isə onun Azərbaycana ilk dəfə rəhbər seçilməsinin bu il 55-ci ildönümünün tamam olmasıdır. Təsadüfi deyil ki, müasir Azərbaycan tarixində ötən əsrin altmışıncı illərinin sonundan ta iyirmi birinci yüzilliyin əvvəllərinədək olan zaman kəsiyini Heydər Əliyev dövrü kimi səciyyələndirirlər. Bu, tamamilə düzgün yanaşma, doğru paradiqmadır. Çünki Ulu Öndərin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsi xalqımızın taleyində müstəsna rol oynayıb və milli dövlətçilik tariximizdə yeni bir dövrün başlanğıcı olub.*

***Azərbaycan Respublikasının Baş naziri Əli ƏSƏDOV** Heydər Əliyev fenomeni, xalqımızın tarixi taleyində müstəsna xidmətləri olan bu dünyaşöhrətli siyasətçinin, dövlət xadiminin Azərbaycanın inkişafı naminə fədakar fəaliyyəti, xüsusilə, respublikaya rəhbərlik etdiyi iki müxtəlif formasiyada gerçəkləşdirdiyi iqtisadi siyasət və onun adını daşıyan fondun xeyirxahlıq missiyası barədə **"Azərbaycan" qəzetinə** müsahibə verib. Müsahibəni təqdim edirik.*



***İndi o illəri yada saldıqda, sonrakı prosesləri xatırlayıb, dünyanın bugünkü vəziyyətini, bəzi ölkələrin bizə olan münasibətini reallıqda gördükdə Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərini daha aydın və dərindən dərk edirik. Ermənistanın hərbi təcavüzü və işğalçılığı nəticəsində üzləşdiyimiz problemlərin əsl miqyasını və mahiyyətini 44 günlük Vətən müharibəsi tam genişliyi ilə üzə çıxardı. Bütün gizli niyyətlər açıldı, indiyə qədər ölkəmizin hansı təhdidlərin, təhlükələrin içərisində olmasının sərt mənzərəsi aşkar göründü. Göründü ki, Heydər Əliyev 1993-2003-cü illərdə bizi hansı fəlakətlərdən xilas edib.***

*- Öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etməklə Azərbaycan yeni bir inkişaf mərhələsinə keçib: bütün sahələrdə əsaslı və məqsədyönlü dəyişikliklər baş verir, dövlət idarəçiliyində, iqtisadiyyatda islahatlar davam etdirilir, sosial siyasət gücləndirilir, xalqın rifahının daha da yüksəldilməsi üçün zəruri tədbirlər görülür. Bütün bunların təməlində Heydər Əliyev ideyaları və onun dövlətçilik irsinə, milli inkişaf strategiyasına sadiqlik dayanır. Ulu Öndərin fəaliyyətinə bu gündən baxanda, onun tarix və xalqımız qarşısında müstəsna xidmətlərinə nəzər yetirəndə hansı məsələləri önə çəkərdiniz?*

- Azərbaycanda milli, müstəqil dövlət quruculuğunun Heydər Əliyev strategiyası zamanın sınağından çıxıb və özünü doğruldub. Prezident İlham Əliyevin daim bəyan etdiyi kimi, ölkəmizi irəliyə aparan da onun xatirəsinə hörmət və mirasına olan münasibətdir. Heydər Əliyev iki müxtəlif ictimai-siyasi formasiyada Azərbaycana rəhbərlik edib və hər ikisində də doğma xalqının mənafeyi naminə misilsiz fədakarlıqlar göstərib, respublikamızın şöhrətini, nüfuzunu yüksəklərə qaldırıb.

Sovet hakimiyyəti dövründə ali siyasi rəhbər kimi Ulu Öndər milli qürur hissinin güclənməsini, milli şüurun yüksəlməsini sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində vüsətli inkişafın təkanverici qüvvəsi kimi götürərək onu böyük bir cəsarətlə hərəkətə gətirməyi bacarmışdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında xüsusi nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan vermişdi. Əminliklə deyə bilərik ki, indiki siyasi və iqtisadi müstəqilliyimiz, respublikamızın beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası ötən əsrin yetmiş-səksəninci illərində Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

Müstəqillik dövründə isə Ulu Öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasət, iqtisadi islahatlar xətti bu günədək özünü doğruldur və gələcəkdə də belə olacaqdır. Heydər Əliyevin azərbaycançılıq ideyası ölkədə ictimai sabitliyi, milli birliyi, xalq-hakimiyyət həmrəyliyini təmin edib. Tətbiq etdiyi xarici siyasət prinsipləri ölkəni ən ağır zamanlarda beynəlxalq ziddiyyətlər burulğanlarından itkisiz ötüşdürə bilib. Ulu Öndərin müxtəlif iqtisadi və siyasi güc mərkəzləri ilə milli maraqlara uyğun münasibətlər qurması, ölkəmizi qlobal qarşıdurmalar deyil, əməkdaşlıq məkanı kimi tanıtması onu müasir tarixin ən ağır mərhələsinin sarsıdıcı zərbələrindən qoruyub.

Ötən əsrin səksəninci illərinin sonunda Heydər Əliyevin siyasi hakimiyyətdən kənarda qaldığı 1988-1993-cü illər ölkəmizin və xalqımızın ən ağır illəri oldu. Həm daxili siyasətdə, həm xarici siyasətdə, həm iqtisadiyyatda, həm də Ermənistanın təcavüzü ilə əlaqədar hərbi sahədə dərin böhran hökm sürürdü. Yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər 1993-1995-ci illərdə ümumi böhranın üç tərkib hissəsinin - daxili siyasi, xarici siyasi və hərbi böhranın genişlənməsinin qarşısını aldı. Ölkədə daxili sabitlik yaratdı, xarici siyasi əlaqələri yenidən qurmağa başladı və müstəqil Azərbaycanın təhlükəsizliyi üçün əlverişli beynəlxalq fonu təmin etdi.

***Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda sovet dövründə yaradılmış iqtisadi potensial sonralar dövlət müstəqilliyinin iqtisadi dayağı oldu.***

Hərbi böhranın dərinləşməsinin nəinki qarşısı alındı, hətta 1994-cü ilin əvvəllərində uğurlu əks-hücum əməliyyatı keçirilərək, Füzuli rayonunun Horadiz qəsəbəsi, 21 kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi düşməndən geri alınaraq, ilk hərbi qələbə əldə olundu və az sonra isə atəşkəs sazişi imzalandı ki, bu da Azərbaycana səfərbər olmaq, güc toplamaq və müasir ordu quruculuğuna başlamaq imkanı verdi. Ümumi böhranın üç tərkib hissəsinin aradan qaldırılması nəticəsində iqtisadi böhranın dərinləşməsi dayandırıldı, köklü islahatlar vasitəsilə davamlı iqtisadi dirçəlişin təməli qoyuldu.

Bir məqamı xüsusilə nəzərə almaq lazımdır ki, Heydər Əliyev milli qurtuluşa nail olmaq məqsədilə xilaskarlıq missiyasını üzərinə götürərkən müstəqilliyi yeni bərpa olunmuş dövlətin nə maliyyə-iqtisadi imkanları, nə xarici müttəfiqləri, nə də müasir silahlara malik ordusu vardı. Bütün bunları sıfırdan başlamaq lazım gəlirdi. Ulu Öndərin təşəbbüsü və misilsiz uzaqgörənliyi sayəsində 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorundakı karbohidrogen yataqlarının işlənməsi üzrə imzalanan "Əsrin müqaviləsi" həm xarici siyasi sabitliyin və geosiyasi tarazlığın, həm də iqtisadi inkişafın başlanğıcı, təməli oldu.

İndi o illəri yada saldıqda, sonrakı prosesləri xatırlayıb, dünyanın bugünkü vəziyyətini, bəzi ölkələrin bizə olan münasibətini reallıqda gördükdə Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərini daha aydın və dərindən dərk edirik. Ermənistanın hərbi təcavüzü və işğalçılığı nəticəsində üzləşdiyimiz problemlərin əsl miqyasını və mahiyyətini 44 günlük Vətən müharibəsi tam genişliyi ilə üzə çıxardı. Bütün gizli niyyətlər açıldı, indiyə qədər ölkəmizin hansı təhdidlərin, təhlükələrin içərisində olmasının sərt mənzərəsi aşkar göründü. Göründü ki, Heydər Əliyev 1993-2003-cü illərdə bizi hansı fəlakətlərdən xilas edib. Bu, əsl milli xilaskarlıq missiyasıdır!

Məhz Heydər Əliyev yoluna sadiqliyi özünün dövlətçilik fəaliyyətinin meyarı kimi seçən Prezident İlham Əliyev isə 2008-2012-ci illər qlobal iqtisadi böhranının, 2020-2022-ci illərin qlobal pandemiya dövrünün problemlərinin öhdəsindən uğurla gəldi. 2020-2024-cü illərin geosiyasi toqquşmaları, dünyanın ən mühüm ticarət yolları üzərində hərbi problemlərin yaranması ilə müşayiət olunan qlobal ziddiyyətlər dövrünü isə Azərbaycan tarixinin Zəfər salnaməsinə çevirdi. Böhranlar dövründən Zəfərlə çıxmaq isə xüsusi siyasi istedad, dəqiq proqnozlaşdırma və böhranlara hazırlıq tələb edir.

*- Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə ilk dəfə siyasi rəhbər seçilməsi Azərbaycan iqtisadiyyatında özünü necə göstərdi?*

- Heydər Əliyev sovet hakimiyyəti illərində dünyaya göz açmış, bu ictimai-siyasi formasiyanın ideoloji əsaslarının tələblərinə uyğun təhsil, tərbiyə almış, sadə, zəhmətkeş bir ailənin övladı kimi çox gənc yaşında dövlət orqanında işləməyə başlamış, özünün nadir istedadı, ağlı, savadı, işgüzarlığı, dünyagörüşü sayəsində uğurlu karyera qazanmış, dövlət təhlükəsizliyi sistemi kimi böyük məsuliyyətin və sərt nizam-intizamın tələb olunduğu xüsusi fəaliyyət sahəsində sıravi əməkdaşdan komitə sədri vəzifəsinə və general ali hərbi rütbəsinə yüksəlmiş, nəhayət, ömrünün ən gözəl çağında - qırx altı yaşında respublikaya rəhbərlik etmək səlahiyyəti qazanmışdı. Təbii ki, bu keçmiş sovet dövlətinin ali rəhbərliyinin seçimi idi: yüksək etimada layiq görülmək üçün, ilk növbədə, Heydər Əliyevin şəxsi keyfiyyətləri, peşəkarlığı, təcrübəsi, idarəçilik bacarığı və həmin dövrün digər tələbləri nəzərə alınmışdı. Amma bu çox məsuliyyətli vəzifəni yerinə yetirmək üçün təkcə "yuxarılar"ın etimadı bəs etməzdi, respublika əhalisinin, öz xalqının rəğbətini, etibarını, sevgisini qazanmaq, üstəlik, hər iki qütbün maraqlarını uzlaşdırmaq və bu zaman milli idealları gerçəkləşdirmək imkanları əldə etmək də Ulu Öndər üçün həyati vacib məsələ idi və o, bunu da bacardı: xalqın həqiqi lideri olduğunu öz işi, əməli ilə sübut etdi.

Sovet Azərbaycanını sosial-iqtisadi gerilikdən çıxarmaq üçün Heydər Əliyevin apardığı quruculuq işlərinin miqyası çox geniş idi. Respublika iqtisadi artım sürətinə, keyfiyyət və səmərəlilik göstəricilərinə görə keçmiş ittifaqda sonuncu yeri tutur, müəssisələrində istehsal edilən məhsullar mövcud tələblərə cavab vermir, qiymətdən düşür, gəlir gətirmirdi. Məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə mövcud vəziyyət ətraflı təhlil olundu, geriliyi aradan qaldırmaq, keyfiyyəti və səmərəliliyi yüksəltmək yolları müəyyənləşdirildi, vüsətli irəliləyişə zəmin yaradıldı və respublika iqtisadiyyatı uzunmüddətli durğunluqdan xilas edildi.

Təbii ki, keçmiş sovet dövlətində mərkəzləşdirilmiş planlı iqtisadiyyat, dövlət mülkiyyəti və bundan doğan təməl ideoloji prinsiplər mövcud idi, müttəfiq respublikaların siyasi rəhbərlərindən heç biri mərkəzi hakimiyyətin müəyyənləşdirdiyi çərçivələrdən kənara çıxa bilməzdi. Amma Heydər Əliyev respublikanın iqtisadi dirçəlişi, xalqın rifahının yüksəlişi üçün bu çərçivələr daxilində də mümkün olan hər şeyi edə bildi.

Azərbaycanda yeni sənaye müəssisələrinin yaradılması sürətli iqtisadi artıma zəmin yaradırdı. 1970-1985-ci illərdə 213 iri sənaye müəssisəsi işə salınmışdı, 350 adda məhsul 65 ölkəyə ixrac olunurdu. Əvvəlki onilliklərdə heç vaxt bu qədər sənaye məhsulu istehsal edilməmişdi. 15 il ərzində Azərbaycan keçmiş SSRİ-nin 15 müttəfiq respublikası arasında iqtisadi inkişaf sürətinə görə ilk yerlərdə olmuşdu.

***Heydər Əliyev bir iqtisadi sistemdən digərinə keçidin çətinliklərini və məhrumiyyətlərini nəzərə alaraq, azad bazar münasibətlərinin, birincisi, ədalət prinsipləri əsasında, ikincisi, təsirli sosial müdafiə tədbirlərinin müşayiəti ilə tətbiq edilməsi vəzifəsini qarşıya qoymuşdu.***

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublika sənayesinin strukturunda da əsaslı dəyişikliklər aparılmış, elmi-texniki tərəqqini müəyyən edən sahələrə üstünlük verilmişdi. Sənaye istehsalının üçdəbiri kimya və neft-kimyası, maşınqayırma və elektroenergetika sahələrinin payına düşürdü. Respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına təmin edilməsi, başqa sözlə, enerji müstəqilliyinin təmin olunması üçün layihələr həyata keçirilmişdi. Müqayisə üçün deyim ki, 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edirdisə, artıq 1982-ci ildə elektrik enerjisi ixrac edən respublikaya çevrilmişdi. Bütün yaşayış məntəqələrinə, o cümlədən hər bir evə elektrik xətti çəkilmişdi. Bu siyasət dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə respublika əhalisinin və iqtisadiyyatının enerjiyə olan ehtiyacının böyük hissəsinin ödənilməsində mühüm əhəmiyyət kəsb etmişdi.

Hazırda Ulu Öndərin adını daşıyan Bakı Dərin Özüllər Zavodunun 1978-ci ildə təməli qoyulmuşdu və bu nəhəng sənaye müəssisəsi 1984-cü ildə istismara verilmişdi. Xüsusi strateji əhəmiyyəti olan, dənizin 200 metrədək dərinliyində quraşdırılmaq üçün dərin özüllər istehsal edən zavod müstəqillik dövründə "Əsrin müqaviləsi"nin icrasına öz töhfəsini verdi.

Respublikanın suvarma, nəqliyyat və digər infrastrukturları yaxşılaşdırılmışdı. Su anbarları, dəryaçalar, su kəmərləri tikilib istifadəyə verilmiş, Ağdam-Xankəndi dəmir yolu xətti inşa olunmuşdu.

İqtisadi sıçrayış, təbii ki, əhalinin sosial vəziyyətinin və yaşayış səviyyəsinin yaxşılaşdırılmasına, eləcə də elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafına təkan verirdi. Heydər Əliyev Azərbaycanı iqtisadi cəhətdən keçmiş SSRİ-nin öncül respublikaları sırasına çıxarmağa, xalqımızın qurub-yaratmaq gücünü səfərbər etməyə, iqtisadi müstəqilliyin əsaslarını yaratmağa nail olmuşdu.

1970-1985-ci illərdə kənd təsərrüfatı məhsulları emal edən zavodların sayı artdı. Emal sənayesinin genişləndirilməsi bir tərəfdən hazır məhsul istehsalına imkan yaradırdısa, digər tərəfdən də əlavə iş yerlərinin açılmasını təmin edirdi.

İqtisadiyyat üçün insan resursları ən vacib faktorlardan biridir. Heydər Əliyev keçmiş SSRİ-nin 170 ali məktəbində 3 500-dək azərbaycanlının təhsil almasına şərait yaratdı. Həmin kadrlar o zaman da, müstəqillik dövründə də ən müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyatda da mühüm rol oynadılar.

Ümumiləşdirərək deyə bilərik ki, 1970-1985-ci illərdə Azərbaycan iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoydu: bütün ölkə üzrə infrastruktur təkmilləşdirildi, kənd təsərrüfatı məhsullarının emalı dərinləşdi, emal sənayesi genişləndi, iqtisadiyyatın strukturunda sənayenin xüsusi çəkisi artdı, məhsuldarlıq yüksəldi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda sovet dövründə yaradılmış iqtisadi potensial sonralar dövlət müstəqilliyinin iqtisadi dayağı oldu.

*- Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan iqtisadiyyatını azad bazar münasibətləri əsasında formalaşdırmaq zərurəti yarandı. Ulu Öndər siyasi hakimiyyətə qayıdıb dövlət quruculuğuna başlayarkən bu istiqamətdə, ilk növbədə, hansı tədbirlər həyata keçirdi. Həmin dövrdə iqtisadi siyasətin əsas prinsipləri və strateji hədəfləri nədən ibarət idi?*

- Təkcə ayrılıqda respublika miqyasında deyil, ümumilikdə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi keçmiş ittifaq dövlətində iqtisadiyyatla birbaşa məşğul olan Heydər Əliyev mərkəzləşdirilmiş planlı iqtisadiyyatın bütün potensialından maksimum istifadə etmişdi, bu iqtisadi modelin zəif və güclü tərəflərini dərindən bilən təcrübəli lider idi. Artıq 1980-ci illərdə SSRİ rəhbərliyi də etiraf edirdi ki, mərkəzləşdirilmiş planlaşdırmaya və dövlət mülkiyyətinə əsaslanan sovet iqtisadi modelinin potensialı tükənib və köklü iqtisadi islahatlara ehtiyac var. İqtisadi prosesləri incəliklərinə qədər bilən Heydər Əliyev məhz bu islahatçı ideyaların daşıyıcılarından idi. O, sovet dövlətinin sükançısı olan Kommunist Partiyasının ali orqanında - Siyasi Büroda da islahat ideyasını müdafiə edirdi.

Sonradan o, xüsusi mülkiyyətə və bazar iqtisadiyyatına əsaslanan islahatları müstəqil Azərbaycanda tətbiq etməyə başladı. Birmənalı olaraq deyə bilərəm: Heydər Əliyev bazar iqtisadiyyatına inanırdı! İnanırdı ki, bu, ölkəni inkişaf etdirmək, müstəqilliyin iqtisadi əsaslarını yaratmaq, sosial rifahı yüksəltmək üçün yeganə yoldur. Amma onun iqtisadi islahatlar strategiyasının bir xüsusi cəhətini qeyd etməyi vacib sayıram: Heydər Əliyev bir iqtisadi sistemdən digərinə keçidin çətinliklərini nəzərə alaraq, azad bazar münasibətlərinin, birincisi, ədalət prinsipləri əsasında, ikincisi, təsirli sosial müdafiə tədbirlərinin müşayiəti ilə tətbiq edilməsi vəzifəsini qarşıya qoymuşdu. Hərçənd, dünya təcrübəsində o zaman sosial baxımdan ağrılı radikal islahatlar çox populyar idi. Amma iqtisadi transformasiyanın bu metodu sosial gərginliyə səbəb olurdu. Ulu Öndər tarixi ənənələri, yerli sosial psixologiyanı, Ermənistanla müharibənin yaratdığı sarsıntıları nəzərə alaraq iqtisadi islahatları sosial və siyasi kataklizmlər olmadan həyata keçirdi.

***Heydər Əliyevin iqtisadiyyat üzərində nəzarət mexanizmləri sahəsində islahatlarının mahiyyətini nəzarətedici orqanların sayının azaldılmasına və səlahiyyətlərinin məhdudlaşdırılmasına paralel olaraq, müasir tələblərə uyğun nəzarət institutları və mexanizmlərinin yaradılması təşkil edirdi.***

*- "Sosial bərabərliyin" mövcud olduğu, "torpaq və istehsal vasitələri üzərində xüsusi mülkiyyət"in qadağan edildiyi, sahibkarlığın qanunsuz əməl sayıldığı sovet dövründən sonra özəlləşdirməyə, yeni mülkiyyət münasibətlərinə, bazar iqtisadiyyatına keçid çox ciddi siyasi və iqtisadi hadisə idi. Ulu Öndər keçid dövrünün hansı baza prinsiplərini və istiqamətini müəyyənləşdirmişdi?*

- Vurğuladığım kimi, Heydər Əliyev bazar iqtisadiyyatına keçidin ədalət prinsipi əsasında aparılmasını baza prinsipi kimi müəyyənləşdirmişdi. İslahat prosesində sadədən mürəkkəbə doğru mərhələlərlə irəliləmək, nəhayət, özəlləşdirmə nəticəsində iqtisadi inkişafa nail olmaq, sosial rifahı təmin etmək nəzərdə tutulurdu. Ədalət prinsipini təmin edən tədbirlər sırasında özəlləşdirilən dövlət mülkiyyətindən hər bir vətəndaşa pay verilməsini nəzərdə tutan vauçerlərin tətbiqi, eləcə də özəlləşdirilən obyektlərdə işləyənlərin işdən azad olunmaması, müəssisədə çalışanların maraqlarının gözlənilməsi xüsusi yer tuturdu. Məhz bu prinsiplərin tətbiqi imkan verdi ki, başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda özəlləşdirmə sosial problemlərə vəsilə olmasın.

Ulu Öndər 1994-cü ilin dekabrında deyirdi: "Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarətlə həyata keçirməliyik. İslahatlar yeni sahibkarlar yaradacaq, ancaq aqrar bölmə ilə bağlı hər bir adam öz payını almalıdır. Bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir". Onun yeni dövrə və iqtisadi islahatlara baxışının baza prinsipləri bu fikirlərdə aydın əks olunur.

*- Azad iqtisadi fəaliyyəti inkişaf etdirmək məqsədilə Heydər Əliyevin həmin dövrdə həyata keçirdiyi islahatları, dövlət idarəçiliyində və iqtisadi idarəetmədə tətbiq olunan yenilikləri necə səciyyələndirərdiniz?*

- Maddi nemətlərin dövlətin ixtiyarında olduğu və mərkəzləşdirilmiş qaydada bölüşdürüldüyü planlı iqtisadiyyatdan təsərrüfat fəaliyyətinə, dövlət müdaxiləsinin məhdudlaşdırıldığı bazar iqtisadiyyatına keçid yalnız özəlləşdirmə ilə yekunlaşmır. Yeni iqtisadi münasibətlərə uyğun idarəetmə mexanizmi yaradılmalı, vergi, gömrük, bank və digər sahələr təşəkkül tapmalı idi.

Odur ki, liberal prinsiplərə söykənən vergi məcəlləsi hazırlandı və qəbul edildi. O zaman yeni formalaşan sahibkarlar təbəqəsinin müdafiəsi çox ciddi məsələlərdən biri idi. Sovet planlı iqtisadiyyatının güclü tənzimləmə mexanizmləri vardı, iqtisadiyyat, təsərrüfat fəaliyyəti üzərində dövlətin çox ciddi nəzarət və təzyiq alətləri var idi. Heydər Əliyev yeni dövrün və islahatların məntiqinə uyğun olaraq yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partnyorluq sazişlərinin bağlanması praktikasına keçidin təmin edilməsi üçün tapşırıq verdi. Onun iqtisadiyyat üzərində nəzarət mexanizmləri sahəsində islahatlarının mahiyyətini nəzarətedici orqanların sayının azaldılmasına və səlahiyyətlərinin məhdudlaşdırılmasına paralel olaraq, müasir tələblərə uyğun nəzarət institutları və mexanizmlərinin yaradılması təşkil edirdi.

***Hazırda Şərqlə Qərbi birləşdirən Orta dəhliz layihəsinə qlobal ehtiyacın artması Heydər Əliyevin zamanı 25 il qabaqlamasının sübutudur.***

# və yaşadılan irs

Ulu Öndərin müəyyənləşdirdiyi və həyata keçirdiyi islahatlar sırasında paralel və lüzumsuz yoxlamaların azaldılması, iqtisadi subyektlərin qanuni mənafelərinin qorunması üçün 1996-cı ildə imzaladığı fərmanı xüsusi qeyd etməliyəm. Bu sənəd sahibkarlığın himayə olunmasında mühüm rol oynadı.

1998-ci ildə isə daha bir fərmanla dövlət idarəetmə sistemində köklü islahatlar aparılması üçün Dövlət Komissiyası yaradıldı. Fərmanda qeyd edilirdi ki, islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadiyyatın tarazlaşdırılmış tənzimlənməsi məqsədilə zəruri təsisatların formalaşdırılmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiya olunmasını sürətləndirmək məqsədilə iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etməlidir. İslahatların dörd əsas istiqamətindən ikisi dövlət xərclərinin idarə edilməsi və audit sisteminin islahatını, nəzarətin təkmilləşdirilməsini nəzərdə tuturdu.

Həyata keçirilmiş tədbirlərin məntiqi davamı olaraq 1999-cu ildə beynəlxalq standartlara cavab verən nəzarət mexanizmini tətbiq etmək məqsədilə imzalanmış "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərman azad iqtisadi fəaliyyət üçün yeni, daha əlverişli şərtlər formalaşdırdı.

İslahatların bir istiqaməti də iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsini əhatə edirdi. Məqsəd bazar münasibətlərindən irəli gələn yeni növ iqtisadi cinayətlərə qarşı mübarizənin qanunvericilik bazasını formalaşdırmaq idi.

Heydər Əliyev dövlət nəzarət sistemində struktur islahatlarını həyata keçirərək sahibkarlıq subyektlərinə müdaxilələrin qarşısını almaq istiqamətində ciddi nəticələrə nail oldu. Məsələn, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması üçün Daxili İşlər Nazirliyinin İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv edildi, məhkəmə qərarları əsasında müdaxilələr istisna olmaqla, hüquq-mühafizə orqanlarının sahibkarlıq subyektlərinə müdaxiləleri qadağan edildi. Şəhər və rayon icra hakimiyyətlərinin nəzarət və yoxlama funksiyalarını yerinə yetirən qurumları ləğv olundu.

"Azərbaycan Respublikasında korrupsiyaya qarsı mübarizənin gücləndirilməsi haqqında" 2000-ci il 8 iyun tarixli fərman və 2001-ci ildə qəbul olunmuş "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu korrupsiya və iqtisadi cinayətkarlığa qarşı mübarizənin qanunvericilik bazasını təkmilləşdirdi.

Nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşdırılmasında "Auditor xidməti haqqında", "Hesablama Palatası haqqında" qanunların da müstəsna əhəmiyyəti var.

*- Ulu Öndərin müdrik və uzaqgörən siyasəti sayəsində hələ ötən əsrin 90-cı illərində Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata inteqrasiyasında mühüm rol oynayan addımlar atılıb. Məsələn, indi bütün dünyanın Orta dəhliz adlandırdığı nəqliyyat dəhlizinin başlanğıcı da həmin dövrdə TRASEKA proqramı ilə qoyulmuşdu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin sentyabrında Bakıda bu layihə üzrə ilk beynəlxalq konfrans keçirildi. Bunu əsas götürərək Orta dəhlizin başlanğıcını da həmin vaxtdan hesablamaq olarmı?*

- Ulu Öndər deyirdi ki, heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz. Dünya miqyaslı siyasi lider kimi, onun təşəbbüsü ilə həyata vəsiqə alan irimiqyaslı iqtisadi layihələr sırasında "Əsrin müqaviləsi"nin məntiqi davamı olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri qlobal əhəmiyyətli layihələrdir. Bu layihələr Azərbaycan və Gürcüstanda siyasi və iqtisadi dayanıqlılığın təməli rolunu oynayıb, eyni zamanda Qazaxıstan neftinin də dünya bazarına nəqli üçün əlavə pəncərə açıb. Məhz bu layihələrin davamı olaraq TANAP və TAP kimi kəmərlərin ərsəyə gətirilməsi mümkün oldu. Təsəvvür edin ki, Heydər Əliyevin çox böyük zəhmətlə, hətta bir neçə dəfə suiqəsdə, təhdidlərə məruz qalmaqla, hər hansı xarici maliyyə dəstəyi olmadan təməlini qoyduğu və Prezident İlham Əliyevin başa çatdırdığı və davam etdirdiyi bu layihələr olmasa idi, Avropanın enerji təhlükəsizliyi ilə bağlı vəziyyət son 3 ildəkindən qat-qat ağır olardı.

Eyni fikirləri avtomobil və dəmir yolları dəhlizi haqda da deyə bilərik. 1998-ci ildə Bakıda "Şərq-Qərb" nəqliyyat dəhlizi mövzusuna həsr olunmuş beynəlxalq konfransın təşkil olunması Heydər Əliyevin nə qədər uzaqgörən bir lider olmasının daha bir parlaq təcəssümüdür. Məhz həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın təmsilçisi "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş"i imzaladı. Beynəlxalq konfransdan dərhal sonra Heydər Əliyev onun yekunlarına həsr olunmuş iclas keçirərək XXI əsrdə Avrasiyada nəqliyyat dəhlizinin önəminin artacağını böyük uzaqgörənliklə elan etdi və buna hazırlıqla əlaqədar tapşırıqlar verdi. Hazırda Şərqlə Qərbi birləşdirən Orta dəhliz layihəsinə qlobal ehtiyacın artması Heydər Əliyevin zamanı 25 il qabaqlamasının sübutudur.

Prezident İlham Əliyevin təşəbbüsü, Azərbaycan dövlətinin fəal siyasi və maliyyə dəstəyi ilə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolu məhz Heydər Əliyevin uzaqgörən strateji planlarının davamıdır. İndi bu layihələr bütün dünyanın nəqliyyat və iqtisadi təhlükəsizliyində mühüm rola malikdir.



***Ulu Öndərin məşhur kəlamına əsaslanaraq bu gün demək istəyirəm ki, mən hər zaman fəxr etmişəm və hər zaman fəxr edəcəyəm ki, Heydər Əliyevin köməkçisi olmuşam, Heydər Əliyev məktəbini keçmişəm.***

Yeri gəlmişkən, Zəngəzur dəhlizinin bərpa olunması da "Şərq-Qərb" nəqliyyat dəhlizinin tam gücü ilə işləməsinə, beynəlxalq ticarətin rentabelliyinin yüksəlməsinə səbəb olacaq.

*- Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti elə çoxşaxəli, siyasi və idarəçilik irsi elə geniş, xalqımızın tərəqqisinə və ümumən, qlobal inkişafa verdiyi töhfələr o qədər çoxdur ki, bir müsahibədə bunların qısa xülasəsini vermək mümkünsüzdür. Söhbətimizdə onun iqtisadi siyasətinin bəzi məqamlarına diqqət yetirməyə çalışdıq. Belə dahi şəxsiyyətin, nəhəng dövlət adamının uzun müddət iqtisadi məsələlər üzrə köməkçisi olmuş bir insan və bu gün rəhbər bir şəxs kimi Sizin onunla bağlı şəxsi təəssüratlarınız necədir?*

- Müdrik və uzaqgörən rəhbər və lider kimi Heydər Əliyev respublikaya rəhbərlik etdiyi hər iki dövrdə bütün strateji məsələlərə, o cümlədən təhsil məsələlərinə milli inkişafın perspektivləri, Azərbaycanın gələcəyi kontekstində baxırdı. Ulu Öndər milli məfkurənin intibahının təhsillə birbaşa bağlılığını görür, bu sahədə ciddi dəyişikliklər aparılmasını vacib sayırdı. Təsadüfi deyildir ki, 1969-cu ilin iyul ayında Azərbaycana rəhbər seçiləndən sonra onun ilk imzaladığı qərarların bir çoxu təhsillə bağlı olub.

***"Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi ölkəmizə düşmən münasibəti bəsləyən xarici qüvvələrə qarşı ən vacib, tutarlı cavab oldu. Bu layihə Azərbaycana qarşı təcavüzkar, işğalçılıq siyasətini "dinlərin qarşıdurması" kimi təqdim etməyə çalışanlara böyük zərbə oldu.***

Respublikada müxtəlif sahələrdə dərin biliklərə yiyələnmiş, müasir düşüncəli gənc mütəxəssislərə ciddi ehtiyac olduğunu görən Ulu Öndər Moskva, Leninqrad və keçmiş SSRİ-nin digər şəhərlərindəki nüfuzlu ali məktəblərə daha çox azərbaycanlı gənc göndərmək barədə mühüm və taleyüklü addım atdı. 1974-cü ildə belə gənclərin sayı 357 nəfər idi və onlar sovetlər birliyinin 74 qabaqcıl ali təhsil müəssisəsində 150-dən çox ixtisas üzrə təhsil almaq hüququ qazanmışdılar. Heydər Əliyev adəti üzrə respublikadan kənarda təhsil almağa gedən gənclərlə şəxsən görüşürdü. Həmin görüşdə mən də G.Plexanov adına Moskva İqtisadiyyat İnstitutunun - hazırkı Rusiya İqtisadiyyat Universitetinin - birinci kurs tələbəsi kimi iştirak edirdim. Biz - yeni tələbə adı qazanmış gənclərin hamısı üçün bu çox xoş və fərəhli hadisə idi. Böyük sevinc hissi keçirirdik: bizi Azərbaycanın rəhbəri yola salır, bizə xeyir-dua verirdi. Yadımdadır, Ulu Öndər bizə müraciət edərək göstərilən etimadı şərəflə doğruldacağımıza, yalnız əla və yaxşı qiymətlərlə oxuyacağımıza, diplom aldıqdan sonra ideyaca yetkin, bilikli, geniş hazırlıqlı, yüksək mədəniyyətli və dərin məlumatlı mütəxəssislər kimi Azərbaycana qayıdacağımıza əminliyini bildirdi.

Yeri gəlmişkən, biz - Heydər Əliyevin hakimiyyəti dövründə xaricdə təhsil almış mütəxəssislər Ulu Öndərin anadan olmasının 100-cü ildönümü münasibətilə, "Heydər Əliyev İli"ndə onun əziz və unudulmaz xatirəsini birlikdə yad etmək, o illərin təəssüratını yenidən bölüşmək üçün ötən il mayın 2-də Bakıda Heydər Əliyevin adını daşıyan sarayda toplantı keçirdik. Bizim hər birimiz Heydər Əliyev məktəbinin yetirməsi olduğumuzu, ömür yolumuzda Ulu Öndərin müstəsna rol oynadığını böyük qürur və iftixar hissi ilə bir daha bildirdik. Onu da xüsusi qeyd etdik ki, Azərbaycanın gənc nəslinin yüksək təhsil alması, ən müasir biliklərə yiyələnməsi üçün Ümummilli Liderin göstərdiyi təşəbbüsü, gördüyü misilsiz işləri möhtərəm Prezident cənab İlham Əliyev geniş miqyasda və uğurla davam etdirir. Bu gün azərbaycanlı gənclər dövlət dəstəyi ilə dünyanın ən nüfuzlu, mötəbər ali məktəblərində, yeni dövrün tələb etdiyi ixtisaslar üzrə təhsil alır, bilik və bacarıqlar əldə edirlər.

...1993-cü ildə xalqın təkidi və özünü çıxılmaz vəziyyətə salmış iqtidarın xahişi ilə Heydər Əliyev Vətəni və xalqı naminə, müstəqilliyimizin qorunması naminə ölkəyə rəhbərliyi öz üzərinə götürməyə razılıq verərək Naxçıvandan Bakıya gələndə qismətinə onu hava limanında qarşılamaq düşmüş insanlardan biri olmağım ömrümün ən xoş anlarındandır. O zaman hər birimiz Heydər Əliyevin gəlişinin böyük qurtuluşun başlanğıcı olduğuna tam əmin idik.

Heydər Əliyevin dahiliyi, böyüklüyü hələ özünün sağlığında bir çox dövlət başçıları, dövlət xadimləri, müdrik insanlar tərəfindən etiraf olunub. Onu fenomenal şəxsiyyət, nüfuzlu dövlət xadimi, nadir natiqlik istedadına malik olan təkrarolunmaz lider hesab edirdilər. Görkəmli siyasi və dövlət xadimləri, diplomatlar, tanınmış insanlar Heydər Əliyevə böyük hörmət və ehtiram göstərirdilər. Bunu mən 6 il ərzində Ulu Öndərin yanında çalışmaq, onun köməkçisi olmaq, əksər görüşlərində və qəbullarında iştirak etmək, xarici səfərlərdə onu müşayiət etmək şərəfinə və xoşbəxtliyinə nail olan bir insan kimi tam səmimiyyətimlə deyirəm.

Heydər Əliyevin yanında işləmək çox böyük məsuliyyət tələb edirdi. Eyni zamanda həm də çox qürurverici idi. Ulu Öndərlə işləyən, ünsiyyətdə olan hər kəs ondan çox şey öyrənib. Həm ali məktəbdə müəllim, həm Milli Məclisin deputatı, həm də Heydər Əliyevin köməkçisi işlədiyim dövrdə Ulu Öndər mənim müəllimim olub, ondan çox şey öyrənmişəm - həm peşəkar fəaliyyətimdə, həm şəxsi həyatda Heydər Əliyevi hər zaman özümün ən böyük müəllimim hesab etmişəm.

Ulu Öndərin məşhur kəlamına əsaslanaraq bu gün demək istəyirəm ki, mən hər zaman fəxr etmişəm və hər zaman fəxr edəcəyəm ki, Heydər Əliyevin köməkçisi olmuşam, Heydər Əliyev məktəbini keçmişəm.

*- Ulu Öndərin ideyalarını həyata keçirən, zəngin irsini təbliğ edən, xeyirxahlıq və humanizm ənənələrini yaşadan Heydər Əliyev Fondunun da yubileyidir. Ölkəmizin ictimai həyatında önəmli yeri olan və dünyada tanınan bu nüfuzlu təşkilatın 20 illik fəaliyyətini necə qiymətləndirirsiniz?*

- Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu, həqiqətən, Ulu Öndərin adına layiq fəaliyyət göstərir, həm milli mədəniyyətimizin, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr verir, həm qayğıya ehtiyacı olan vətəndaşlarımızın yardımçısıdır, həm də dünyada öz xeyirxah işləri ilə ölkəmizə, xalqımıza hörmət, rəğbət qazandırır. Fond tolerantlığın, mədəniyyətin, ümumbəşəri dəyərlərin, mərhəmətin təbliği və təşviqi ilə qəlbləri və düşüncələri fəth edir. Azərbaycan mədəniyyətinin - musiqisinin, ədəbiyyatının və incəsənətinin ən gözəl nümunələri ilə xarici siyasət hədəflərinə birbaşa və dolayısı ilə təsir etmək, öz ölkəsinə mədəniyyətin və tarixi biliklərin gücü ilə nüfuz və hörmət qazandırmaq böyük missiyadır.

Fondun 2004-cü ildən başlayaraq həm ölkə daxilində, həm də xaricdə həyata keçirdiyi sosial, humanitar, dini tolerantlıq, mədəniyyət və Azərbaycan tarixi ilə bağlı layihələr Azərbaycana dini tolerant, sivilizasiyaların qovşağı, Şərqdə ilk demokratiyanın qurucusu, ümumbəşəri dəyərlərin qorunmasına dəstək verən ölkə, ekoloji problemlərin həllində öncül cəmiyyətlərdən biri kimi imic qazandırıb.

***Artıq 20 ildir ki, Azərbaycanda və onun hüdudlarından kənarda mərhəmətə, insani dəstəyə ehtiyacı olan azərbaycanlıların ilk güvəndiyi yer Heydər Əliyev Fondudur. Bu illər ərzində fond ehtiyacı olanlar üçün bir Mərhəmət Məbədinə çevrilib.***

Heydər Əliyev Fondu sərhəd tanımayan, yeni qlobal sosial və humanitar problemlərin aktuallığını saxlayan nadir qurumlardandır. Hər bir ölkə üçün aktual problemlərə həsr olunan Dünya gənclərinin məşğulluğuna dair 4-cü sammitə, Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsinə həsr olunmuş beynəlxalq foruma, "Təcriddən inteqrasiyaya doğru" mövzusunda beynəlxalq konfransa dəstək verməklə ölkəmizin daim

***Düşmənlərimiz Azərbaycan xalqının dini tolerantlığı ilə yanaşı, demokratik ruhlu bir xalq olmasına qarşı uydurma iddiaları dünyaya təlqin etməyə çalışırdılar. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən aksiyalar sübut etdi ki, Azərbaycan xalqı nəinki demokratik ruhlu, tolerant bir xalqdır, həm də tolerantlığın və çoxmillətliliyin ocağıdır.***

qadınlar, gənclər və əlilliyi olan uşaqların inteqrasiyası kimi həssas təbəqələrin problemlərinə diqqətini ifadə edir və dünyanı da bu problemlərin həllinə yönəldir.

Heydər Əliyev Fondu daim təbii fəlakətdən, ekstremal hadisələrdən əziyyət çəkənlərin yanında olub. Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım edib.

2011-ci ilin sentyabrında isə Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə Parisdə terrorizm qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə maliyyə yardımı etməklə terror qurbanı olan Azərbaycanın başqa terror qurbanları ilə həmrəyliyini ifadə edib.

Pakistanda, Bosniya-Herseqovinada, Cibutidə, Gürcüstanda, Rusiyada, Cənubi Sudanda səhiyyə sahəsindəki humanitar aksiyalar, yardımlar başqa xalqların ehtiyaclarına biganə qalmamağın nümunələrindəndir.

"Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi ölkəmizə düşmən münasibəti bəsləyən xarici qüvvələrə qarşı ən vacib, tutarlı cavab oldu. Azərbaycana qarşı təcavüzkarlığı, işğalçılıq siyasətini "dinlərin qarşıdurması" kimi təqdim etməyə çalışanlara böyük zərbə vuran bu layihə məzhəblərin, dinlərin barışığının real həyatda tətbiq edilməsidir.

Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi ölkəmizdəki yəhudi, katolik, pravoslav, müsəlman və başqa icmaların hər birini əhatə etməklə yanaşı, onları həm milli, həm də ümumbəşəri dəyərlər naminə bir araya gətirməyi, əməkdaşlığı nəzərdə tutur. Fondun xaricdə keçirdiyi dini tolerantlıq aksiyaları Vatikanla əməkdaşlığı da ehtiva edir və dünyada rəğbətlə qarşılanır. Məhz bu istiqamətdə həyata keçirilən aksiyalar nəticəsində Ermənistanın Azərbaycana təcavüzünün "dinlərin toqquşması" ilə heç bir əlaqəsinin olmadığı dünyaya sübut edildi, bu əsassız iddianı ortaya atanlar öz məqsədlərinə çata bilmədilər.

***Heydər Əliyev Fondu tolerantlığın, mədəniyyətin, ümumbəşəri dəyərlərin, mərhəmətin təbliği və təşviqi ilə qəlbləri və düşüncələri fəth edir.***

Bu mənada, Ermənistanın Azərbaycana təcavüzü təkcə hərbi müstəvidə olmayıb din, mədəniyyət və tarix sahələrində mübarizəni də ehtiva edirdi. Düşmənlərimiz Azərbaycan xalqının dini tolerantlığı ilə yanaşı, demokratik ruhlu bir xalq olmasına qarşı uydurma iddiaları dünyaya təlqin etməyə çalışırdılar. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən aksiyalar sübut etdi ki, Azərbaycan xalqı nəinki demokratik ruhlu, tolerant bir xalqdır, həm də tolerantlığın və çoxmillətliliyin ocağıdır.

Azərbaycanın cümhuriyyət tarixi həm də xalqımızın siyasi mədəniyyətinin tarixidir və Heydər Əliyev Fondunun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı xarici ölkələrdə - Berlində, Romada, Fransada keçirdiyi tədbirlər xalqımızın "Şərqdə ilk demokratiyanın qurucusu" titulunu möhkəmləndirdi.

"Xocalıya ədalət!" kampaniyası sübut etdi ki, əksinə, Azərbaycan xalqı özü dini dözümsüzlüyün, faşizmin təcavüzünün qurbanıdır.

20 Yanvar faciəsi ilə bağlı xaricdə keçirilmiş tədbirlər dünyaya göstərdi ki, Azərbaycan xalqı öz müstəqilliyi yolunda qurbanlar verib və qan bahasına qazanılmış müstəqilliyini bir daha heç kimə güzəştə getmək niyyətində deyil. Müstəqilliyin 20 illiyi münasibətilə Parisdə, Moskvada, Berlində, Vatikanda, Romada keçirilmiş tədbirlər müstəqilliyin bizim üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini vurğulamaqla yanaşı, yeni Azərbaycanın dünyaya baxışını və ümumbəşəri dəyərlərə sadiqliyini nümayiş etdirdi.

Nəhayət, Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan mədəniyyəti dünyaya çıxıb, qəlbləri və düşüncələri fəth etdi.

Bakıda "Muğam aləmi" beynəlxalq festivalı, Strasburqda Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans, Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş tədbir, Avropa Parlamentinin mənzil-qərargahında ilk dəfə Azərbaycan mədəniyyəti günlərinin təşkil olunması, Londonda, Parisdə, Vatikanda, Venesiyada, Kannda və s. şəhərlərdə sərgilərin və konsertlərin təşkili, 2013-cü ildə Almaniyanın Münxen, Ştutqart, Köln və Hamburq şəhərlərində "Azərbaycanı tanıdım" layihəsi çərçivəsində mədəniyyət günlərinin keçirilməsi milli mədəniyyətimizin zənginliyi ilə yanaşı, onun həm də Şərq və Qərb mədəniyyətlərinin qovşağında yerləşməklə hər iki mədəniyyəti özündə ehtiva etdiyini, həmin mədəniyyətlərin tərkib hissəsi olduğunu avropalılara uğurla çatdırdı. Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsi isə Azərbaycanın intibah dövrünün avropalılara təqdim olunan ən parlaq nümunəsi, rəmzidir.

Artıq 20 ildir ki, Azərbaycanda və onun hüdudlarından kənarda mərhəmətə, insani dəstəyə ehtiyacı olan azərbaycanlıların güvəndiyi yer Heydər Əliyev Fondudur. Bu illər ərzində fond ehtiyacı olanlar üçün bir Mərhəmət Məbədinə çevrilib. Tam 20 ildir ki, uşaq evlərinin və internat məktəblərinin şagird və sakinləri, uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızların sonrakı taleyi fondun diqqət mərkəzindədir. Valideyn himayəsindən məhrum olan və uşaq evlərində qalmaq müddəti bitən gənclər Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunur. Fond uşaqların, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, ictimai şəxslərin çətin məqamlarında yanlarında olur və onların sağlamlıqla bağlı xərclərini qarşılayır.

Fondun təşəbbüsü ilə Talassemiya Mərkəzinin yaradılmasını xüsusi qeyd etmək istərdim. Bu mərkəzin fəaliyyəti nəticəsində ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişafı, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsi və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsi imkanı yaranıb.

Fondun "Təhsilə dəstək" layihəsi ən ucqar kənd məktəblərindən tutmuş başqa ölkələrə qədər geniş coğrafiyanı əhatə edir. Azərbaycanda 100 mindən artıq şagirdin təhsil almasına imkan verən yüzlərlə məktəb tikintisini ehtiva edən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi təhsil infrastrukturu sahəsində fundamental problemin həllində çox böyük əhəmiyyətə malikdir.

Son üç il yarımda fondun fəaliyyətində Qarabağda və Şərqi Zəngəzurda işğalçıların dağıdıb məhv etdiyi maddi-mənəvi irsimizin bərpası çox mühüm istiqamətə çevrilib.

Heydər Əliyev Fondunun üzərinə götürdüyü missiya məcburetmə deyil, mərhəməti əsas tutan, qəlbləri və düşüncələri mərhəmətlə fəth edən, bütün problemlərin mərhəmət yolu ilə həllinə inanan bir missiyadır.

Heydər Əliyev Fondunun, şəxsən onun prezidenti Mehriban xanım Əliyevanın ölkə daxilində və xaricdə həyata keçirdiyi layihələrin fəlsəfəsi, təməl prinsipi xeyirxahlıq, mərhəmət, zəiflərin müdafiəsi, sülh və mehriban birgəyaşayışdır.

Bu gün xalqımız xoşbəxtdir ki, Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti onun layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə inamlı inkişaf yolundadır və öz qüdrəti ilə dünyanın diqqətini cəlb edir. Heydər Əliyev ideyalarına sadiqlik ölkəmizi bundan sonra da daim uğurlara, qələbələrə aparacaqdır!

# Heydər Əliyev yolu



**Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Mayın 10-u hələ sağlığında öz quruculuq və xilaskarlıq missiyasını məharətlə yerinə yetirməklə canlı əfsanəyə çevrilən, xalqımızın əbədiyaşar Ümummilli Lideri zirvəsinə yüksələn fenomenal şəxsiyyət, dünyamiqyaslı siyasətçi Heydər Əliyevin anadan olmasının 101-ci ildönümüdür. Heydər Əliyev Azərbaycanın çoxəsrlik tarixində xalqımızın taleyində, siyasi, ictimai və mənəvi həyatında, milli dövlətçiliyimizin qurulmasında və möhkəmləndirilməsində misilsiz xidmətləri olan ən böyük azərbaycanlıdır.**

Elə tarixi şəxsiyyətlər var ki, onlar zaman və məkan anlayışına, milli ölçülərə sığmayaraq dünya miqyasında tanınır və qlobal səviyyədə başqaları üçün örnəyə çevrilirlər. Bu baxımdan Ulu Öndər Heydər Əliyev müdrik siyasəti ilə ümumdünya tarixində özünə dərin iz qoymuş dahi liderdir. Azərbaycanın tərəqqisi naminə yorulmaz fəaliyyət göstərməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində məqsədyönlü və uzaqgörən siyasət aparması, bu sahədə böyük uğurlar əldə etməsi Heydər Əliyevin liderliyini səciyyələndirən vacib xüsusiyyətlərdir.

## Xalqa və dövlətçiliyə xidmət

Azərbaycan xalqı hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ümummilli Lider Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən şəxsiyyət olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı olaraq düşən Ümummilli Lider Heydər Əliyev Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, özünün iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq onu sevir, parlaq zəkasını qiymətləndirir və öz liderinə, onun yeritdiyi siyasi kursa inanaraq ardınca gedirdi.

Azərbaycanın qazandığı uğurlar Ulu Öndər Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi, əslində, çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olub. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Ümummilli Lider Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün həyatını xalqına və Vətəninə həsr etmiş Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub.

Dahi şəxsiyyət hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı. Ümummilli Liderin mükəmməl idarəçilik məktəbi sayəsində Azərbaycan keçid dövrünün mürəkkəb labirintlərindən uğurla çıxdı. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra isə Azərbaycanda demokratik siyasi sistemə və bazar iqtisadiyyatına keçidi təmin etmək məqsədilə islahatların aparılmasına başlanıldı. Heydər Əliyev cəmiyyətin bütün sahələrini əhatə edən islahatların konseptual əsaslarını, başlıca hədəflərini müəyyən etdi və bununla bağlı məqsədyönlü siyasət apardı. Məlumdur ki, həmin dövrdə respublikamızda islahatların həyata keçirilməsinə maneçilik törədən faktorlar mövcud idi. Ermənistanın hərbi təcavüzü nəticəsində Qarabağ və Şərqi Zəngəzurun işğal olunması, sosial-iqtisadi böhranla, daxili və xarici dairələrin antimilli fəaliyyəti ilə üzləşməsi kimi səbəblər Azərbaycanın inkişafı üçün ciddi problemlər yaradırdı. Heydər Əliyev bu cür mürəkkəb və gərgin şəraitdə müdrik liderə məxsus uzaqgörən siyasət yürütməklə respublikamızda ictimai-siyasi sabitliyin yaradılmasına nail oldu və geniş islahatların həyata keçirilməsinə başlanıldı. Bunun nəticəsində sosialyönümlü bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi, ölkədə mövcud olan iqtisadi, texniki-istehsal və elmi-texniki potensial təsərrüfat dövriyyəsinə cəlb olundu, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Davamlı və dinamik xarakter daşıyan islahatlar mahiyyət etibarilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Ümummilli Lider apardığı genişmiqyaslı islahatlarla ümumbəşəri təcrübənin və mütərəqqi dəyərlərin real həyatda öz təsdiqini tapmasına çalışmışdır. Heydər Əliyevin mövqeyinə görə, islahatların həyata keçirilməsinin vacibliyini bildirməklə onları tələm-tələsik şəkildə aparmaq yolverilməzdir. Ümumdünya tarixindən məlumdur ki, bir iqtisadi-siyasi sistemdən digərinə keçid mürəkkəb prosesdir və xeyli ziddiyyətlərlə müşahidə edilir. Problemlərin həllini nəzərdə tutan strateji fəaliyyət istiqamətləri müəyyən olunmadığı halda cəmiyyətdə sosial narazılıq yaranır ki, bu da islahatların uğursuzluğuna gətirib çıxarır. Buna görə də Heydər Əliyev islahatların radikal yolla deyil, cəmiyyətin və ictimai şüurun inkişaf qanunauyğunluqlarını nəzərə alaraq tədricən aparılmasına üstünlük vermişdir. Ümummilli Lider demokratik siyasi sistemin təşəkkül tapması, formalaşması və inkişafında vətəndaş həmrəyliyinin rolunu yüksək qiymətləndirirdi. Onun apardığı siyasətin hüquqi dövlətlə demokratik siyasi sistem arasındakı bağlılığı təmin etməsi müstəqil dövlət quruculuğu prosesinin demokratik normalar əsasında getməsini şərtləndirmişdir. Bu sahədə həyata keçirilmiş siyasətin məqsədləri sırasında hakimiyyət institutlarının normal fəaliyyətini təmin etmək və çoxpartiyalı siyasi sistem formalaşdırmaq mühüm yer tutur.

## Dövlətçilik prinsipinin ana xətti - azərbaycançılıq ideologiyası

Heydər Əliyev Azərbaycan vətəndaşlarını bir amal və məqsəd ətrafında birləşdirən azərbaycançılıq ideyasını milli ideologiya səviyyəsinə qaldırdı. Bu ideologiya cəmiyyətin bütövləşməsini, vətəndaş həmrəyliyini və ümumxalq birliyini təmin edən mühüm faktor oldu. Dahi Öndər azərbaycançılıq ideyasına əsaslanmaqla müxtəlif ictimai-siyasi qüvvələr, dini-etnik konfessiyalar, mədəniyyətlər arasında konstruktiv əməkdaşlığın və həmrəyliyin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət aparmağa başladı. Azərbaycançılığın ictimai fikirdə aparıcı yer tutmasının və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilməsinin əsas səbəbi onun xalqımızın tarixi keçmişi, bu günü və gələcəyi ilə sıx şəkildə bağlı olmasından irəli gəlir. Bu baxımdan milli birlik və vətəndaş həmrəyliyi həm də zəngin mənəvi-əxlaqi dəyərlərin, mədəniyyətin qorunub saxlanmasında və inkişafında mühüm önəm daşıyır. Milli maraqlarla azərbaycançılıq arasındakı vəhdət dövlət müstəqilliyinin möhkəmlənməsində və ölkəmizin mütərəqqi inkişafında özünəməxsus yer tutur, birgəyaşayışın vacibliyini əks etdirən baxışlar formalaşdırır.

Azərbaycançılıq ideyası ölkəmizdəki dini-etnik qrupların maraqlarına cavab verən, onların qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən milli həmrəylik mənbəyidir. Heydər Əliyev milli və dini münasibətləri demokratik prinsiplər çərçivəsində, konstitusion normalar əsasında tənzimləyərək, vicdan azadlığının təmin olunması istiqamətində ardıcıl siyasət həyata keçirmişdir. Ümummilli Liderin fəaliyyətində belə bir prinsip özünə mühüm yer tutmuşdur ki, azərbaycançılıq məfkurəsi ölkəmizdəki xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında, onların mənəvi dəyərlərinin qorunmasında, Azərbaycan dövlətinin ətrafında səfərbər olmasında böyük tarixi-siyasi əhəmiyyət daşıyır. Heydər Əliyev mütərəqqi islam dəyərlərinin cəmiyyətdə özünə yer tutması ilə yanaşı, həm də digər dini-etnik qruplara məxsus olan mədəni müxtəlifliyin təmin olunması üçün tolerant mühitin yaradılmasını təmin etmişdir.

Heydər Əliyev milli münasibətlərə etnik millətçilik nöqteyi-nəzərindən yanaşmanı qəbul etməyərək, dövlət-millət anlayışına keçidin bünövrəsini qoydu. Milli münasibətlərin ölkəmizin tarixi, siyasi və mədəni reallıqlarından çıxış edilərək tənzimlənməsi ölkə vətəndaşlarının milli-etnik mənsubiyyətindən asılı olmayaraq, müstəqil dövlət quruculuğu proseslərində fəal iştirakına böyük stimul verdi. Bütün xalqların və millətlərin, dini konfessiyaların nümayəndələri dostluq və humanizm prinsipinə əsaslanaraq vətəndaş həmrəyliyinin möhkəmlənməsində yaxından iştirak etməyə başladılar. Onlar daxili və xarici siyasi dairələrin Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş cinayətkar əməllərinə qarşı həmrəy və mütəşəkkil şəkildə kəskin etirazlarını bildirdilər.

Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli-mənəvi dəyərlərə sadiq olan, təşəbbüskarlığı ilə ictimai həyatda fəal rol oynayan, ölkəmizdə və dünyada baş verən prosesləri obyektiv şəkildə qiymətləndirməyi bacaran, vətənini və xalqını sevən insanlar kimi görmək istəyirdi. Buna görə də onların hərtərəfli inkişafı üçün cəmiyyətdə sosial rifah halının yüksəldilməsini, demokratik dəyərlərin özünə mühüm yer tutmasını dövlətin əsas vəzifələrindən hesab edirdi. Bu istiqamətdə siyasət aparılarkən nəzərə alınırdı ki, demokratik dövlətin siyasi və iqtisadi baxımdan inkişaf etməsi qanunçuluğun və ictimai-siyasi sabitliyin təmin olunmasına təsir göstərməklə yanaşı, həm də vətəndaş birliyinin və milli həmrəyliyin möhkəmlənməsində xüsusi yer tutur.

## Müasir Azərbaycanın memarı

Fövqəldüşüncə sahibi dahi liderin siyasətinin əsas fəlsəfəsi mükəmməl olmaqla bərabər, həm də əhatəli idi. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami Silahlı Qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və sairə əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkəti məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Heydər Əliyevin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi. Heydər Əliyevin prezidentliyi dövründə (1993-2003-cü illərdə) ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, Azərbaycan, sözün əsl mənasında mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib.

Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün qətiyyətli diplomatik mübarizə apardı, onun təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurası qətnamələr qəbul etdi. 1993-cü ilin dekabr ayından 1994-cü il yanvar ayının əvvəllərinə qədər davam edən Horadiz döyüşlərində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bir sıra yaşayış məntəqələri azad edildi. Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizin hərbi təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə mühüm işlər görüldü. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə daxil oldu ki, bu da münaqişənin aradan qaldırılması üçün ciddi siyasi-iqtisadi və mənəvi-psixoloji zəmin yaratdı. 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Ötən il sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri nəticəsində isə Azərbaycanın suverenliyi tam bərpa olundu. Bu qələbələr Azərbaycan tarixinin şanlı səhifəsini təşkil edir. Son 200 ildə ilk dəfə olaraq Azərbaycan itirilmiş torpaqlarını azad etməklə tarix yazdı. İndi Azərbaycan bayrağı Qarabağın bütün ərazilərində - Xankəndi, Əsgəran, Xocalı, Ağdərə və Xocavənddə dalğalanır ki, buna məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin, Ulu Öndər yolunun nəticəsində nail olunmuşdur. Vətən müharibəsində qələbənin nəticəsi olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış layihələrinin sürətlə həyata keçirilməsi Azərbaycan dövlətinin gücünü və qüdrətini bir daha göstərir. Azərbaycan torpaqlarını addım-addım, qarış-qarış toplayan İlham Əliyevin növbəti zəfəri isə yaxın günlərdə 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndinin geri qaytarılması oldu.

Sadalanan faktlar birmənalı şəkildə deməyə əsas verir ki, Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi o dövrdən başlayan yüksəliş strategiyasının yerinə yetirildiyinin sübutudur. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha göstərir. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyata keçirdiyi siyasət Prezident İlham Əliyev və ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasətə əməli dəstək verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün dövlət quruculuğu prosesi daimi xarakter daşıyır, cəmiyyət inkişaf edir, müasir dünyamızda gedən proseslərə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, qanunlarında, insanların həyat tərzində, idarəçilikdə müvafiq dəyişikliklər həyata keçirilir. Cəmiyyətimiz indiki dövrün çağırışlarına uyğun olaraq yeniləşir, müasirləşir və müstəqil Azərbaycanın mövqeləri getdikcə möhkəmlənir.

Azərbaycanın sürətli inkişafını, xarici və daxili siyasətini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Heydər Əliyevin əsasını qoyduğu sağlam bünövrə, ikincisi, həmin sağlam bünövrə üzərində Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin qurduğu uğurlu strategiya.

*Azərbaycan xalqının seçdiyi yol tarixin sınağından çıxan Heydər Əliyev yoludur. Heydər Əliyev yolu güclü və zəngin Azərbaycana aparan yoldur. Azərbaycançılıq ideologiyasına və Ulu Öndərin müəyyən etdiyi təməl prinsiplərə söykənən bu yol tarixi sınaqdan uğurla çıxaraq xalqımıza böyük qələbələr bəxş etmişdir.*

**Mübariz QURBANLI,**
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***



# Bünövrə möhkəm olanda

**Azərbaycanda kənd təsərrüfatının inkişafında Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Ümummilli Liderin Azərbaycana rəhbərliyə gəldiyi 60-cı illərin sonunda respublikanın iqtisadiyyatı ilə bərabər, aqrar sektoru da böhran vəziyyətində idi. Kənd təsərrüfatı göstəricilərinə görə Azərbaycanın keçmiş SSRİ respublikaları arasında sonuncu yerlərdən birini tutması, nəinki kəndlərimizin inkişafına, eləcə də kəndlilərin yaşayışına öz mənfi təsirini göstərirdi.**

Belə olan halda aqrar sahədə köklü dəyişikliklərin həyata keçirilməsi, əsaslı tədbirlərin görülməsi, inzibati - təşkilati resursların səfərbər olunması, mərkəz qarşısında köklü məsələlərin qaldırılması təxirəsalınmaz zərurətə çevrilmişdi və bunu bir rəhbər kimi Heydər Əliyev həyata keçirə bilərdi, baxmayaraq ki, o dövrlər bu, asan məsələ deyildi.

"Kənd təsərrüfatını inkişaf etdirmək, kəndlidə öz əməyinə inam yaratmaq, şoranlaşmış torpaqlara həyat vermək, meliorasiya - su sistemini qaydaya salmaq, kadrların məsuliyyət hissini artırmaq böyük maliyyə vəsaitləri ilə bərabər, həm də yüksək təşkilatçılıq, insanları ələ alıb düzgün istiqamətləndirmək bacarığı tələb edirdi. Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi bütün çətinliklərə qalib gəldi". Bu fikirlər Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin nəfis şəkildə çap etdirdiyi "Azərbaycanda aqrar sahənin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" kitabında öz əksini tapıb.

Üç bölmədən ibarət olan kitabın birinci bölməsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə kənd təsərrüfatının inkişafı, kəndlinin həyat şəraitinin yaxşılaşdırılması, kəndin yüksəlişi, mədəni simasının dəyişdirilməsi sahəsində görülən işlərə aydınlıq gətirilir, real faktlara yer verilir, nəticələr xatırladılır.

Əlbəttə, bu, ölkənin keçmiş kənd təsərrüfatı həyatını, insanların məşğulluğunu nəzərə çarpdırmaq baxımından çox əhəmiyyətlidir. Ən başlıcası Ulu Öndərin böyük təşkilatçılığına, gərgin səmərəli fəaliyyətinə bir baxışdır, qiymətləndirmədir. Çünki o dövrdə qoyulmuş bünövrə, tutulmuş strateji xətt bu günümüz üçün də faydalıdır və bugünkü həyatımızda müsbət rolunu oynamaqdadır. Bu, Heydər Əliyevin aqrar siyasət xəttinin davamlı və əbədiyaşar olmasının nümunəsidir.

Dirçəliş və sürətli inkişaf yoluna çıxış kimi dəyərləndirilən Heydər Əliyevin rəhbərliyinin birinci dövrü həqiqətən də bütün sahələr kimi, aqrar sahədə də mühüm hadisələrlə zəngin olub. O dövrdə Heydər Əliyev kənd təsərrüfatının ciddi surətdə geri qalmasından açıq danışmaqla bərabər, diqqəti əsas və həlledici problemlər üzərində cəmləşdirərək ciddi tələblər qarşıya qoyur və bildirir: "Xeyli müddətdir ki, bizdə dənli bitkilərin məhsuldarlığı ölkə üzrə orta səviyyədən aşağıdır, pambığın məhsuldarlığına görə axırıncı yerdəyik. Kartofun, tərəvəzin, meyvənin və üzümün məhsuldarlığı sahəsində də eyni vəziyyət mövcuddur". Azərbaycanın kənd təsərrüfatının artım tempində ən zəif 3 ittifaq respublikasından biri olması Heydər Əliyevi narahat etməyə bilməzdi və bu narahatlıq, sözsüz ki, gərgin fəaliyyət və düşünülmüş planlar, qərarlar nəticəsində aradan qaldırıla bilərdi. Ulu Öndər buna nail ola bildi. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün qəti addımlar atıldı, problemlər kompleks şəkildə həll edildi. 1970-ci illərdə Heydər Əliyevin təkidi və təşəbbüsü ilə Sov. İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən dörd mühüm - "Azərbaycan SSRİ-nin kənd təsərrüfatının inkişaf tədbirləri haqqında", "Azərbaycan SSR-nin xalq təsərrüfatının inkişafı haqqında", "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü, şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarların qəbul edilməsi respublikada kənd təsərrüfatının inkişafında böyük rol oynadı.

Bir neçə fakt: həmin illər respublikanın meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsait əvvəlki 50 il ərzində qoyulan vəsaitdən 2,5 dəfə artıq oldu ki, bu da kənd təsərrüfatının sürətli inkişafına imkan yaratdı. Görülən mühüm tədbirlərin nəticəsində 1969-cu ilə nisbətən 1982-ci ildə ölkədə pambıq istehsalı 299,4 min tondan 1.015.3 min tona, üzüm istehsalı 272,0 min tondan 1.815.6 min tona, taxıl tədarükü 573,9 min tondan 1.211,3 min tona çatdırıldı, heyvandarlıqda və kənd təsərrüfatının digər sahələrində mühüm göstəricilər əldə edildi.

Kənd təsərrüfatı istehsalında məhsuldarlığın artırılması, istehsalatda səmərəliliyin yüksəldilməsi, resurslardan istifadənin yaxşılaşdırılması, istehsalın təşkilinin və idarəetmənin təkmilləşdirilməsi Heydər Əliyev aqrar siyasətinin əsası idi və Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldiyi illərdə də bu prinsiplərə sadiq qaldığını əməli fəaliyyəti ilə təsdiq etdi. Kitabın ikinci bölməsində müstəqillik şəraitində aqrar islahatların həyata keçirilməsi sahəsində Heydər Əliyev tərəfindən irəli sürülən təşəbbüslər, aqrar islahatların qanunvericilik bazasının hazırlanması və torpaqların xüsusi mülkiyyətə verilməsi ilə bağlı məsələnin yer alması və bu məsələlərin həll yolunda həyata keçirilən tədbirlərin uğurlu olması onun təşkilatçılıq bacarığını səciyyələndirmək baxımından dəyərlidir.

Heydər Əliyev xalqın təkidi və tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi ilk gündən iqtisadi-siyasi böhran içərisində olan, torpaqların bir hissəsi erməni təcavüzkarları tərəfindən işğal edilən, xaos, özbaşınalığın hökm sürdüyü Azərbaycanda ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, aqrar sahədə də islahatların aparılmasını, mülkiyyətin özəlləşdirilməsini, özəl sektorun inkişafına şərait yaradılmasını, sahibkarlığa, təşəbbüskarlığa meydan verilməsini, bu xəttin strateji istiqamət kimi qəbul edilməsini əsas vəzifə olaraq qarşıya qoydu. Çünki o dövrdə bütün sahələr kimi, kənd təsərrüfatı da ağır vəziyyətdə idi. 19 noyabr 1993-cü ildə keçirilən respublika müşavirəsində Heydər Əliyev yaranmış vəziyyəti nəzərə çatdıraraq deyirdi: "Respublikamız ağır iqtisadi böhran vəziyyətindədir. 1993-cü il başa çatır. Ölkədə gedən müharibə iqtisadiyyatın vəziyyətinə də ciddi təsir göstərir... Mən birmənalı deyirəm, biz sərbəst iqtisadiyyata keçməliyik və bu yolda cürbəcür bəhanələr axtarmamalıyıq... Əsas məsələlərin biri özəlləşdirmədir". Heydər Əliyev aqrar sahədə iqtisadi islahatların aparılmasına, mülkiyyət formasının dəyişdirilməsinə, torpaq islahatı keçirilməsinə, sərbəst iqtisadiyyata geniş meydan verilməsinə taleyüklü məsələ kimi baxır və bu məsələlərə çox diqqətlə yanaşırdı.

1995-ci ilin fevral ayında "Aqrar islahatlar haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" iki qanunun qəbul edilməsi Ulu Öndərin gərgin səylərinin və aqrar sahəyə böyük önəm verməsinin nəticəsi idi. Bundan sonra isə "Torpaq islahatı haqqında" qanun layihəsi hazırlanıb qəbul edildi.

Kitabda qeyd edildiyi kimi, keçid dövründə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən əsaslı aqrar islahatlar bazar təsərrüfatçılığı sisteminə adekvat aqrar strukturun formalaşdırılmasına yol açmaqla, kənd təsərrüfatı istehsalının böhrandan çıxarılması və uzunmüddətli dövrdə dinamik inkişafı üçün zəmin yaratdı. Sonrakı illərdə qəbul olunmuş "Torpaq vergisi haqqında" "Torpaq bazarı haqqında" qanunlar, Torpaq Məcəlləsi və sair qanunvericilik aktları Heydər Əliyev dühasının məhsulu və aqrar sahənin bugünkü inkişafı üçün möhkəm bünövrə idi.

Aqrar sahənin inkişafı ilə bağlı mühüm məsələlər bu gün Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Aqrar islahatların dərinləşdirilməsi və çoxşaxəli dövlət dəstəyi sisteminin yaradılması inkişafı sürətləndirib. Dövlət proqramlarına uyğun olaraq kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılıq, üzümçülük, meyvəçilik, pambıqçılıq, tütünçülük, çayçılıq, ipəkçilik və digər sahələr üzrə əsaslı tədbirlər müəyyən edilib və həyata keçirilib.

Prezidentin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 23 oktyabr 2004-cü il tarixli sərəncamı ilə aqrar bölmənin idarə edilməsində mövcud pərakəndəliyi aradan qaldırmaq, bu sahənin davamlı inkişafını təmin edən idarəetmə sistemini yaratmaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil edilib, nazirlik yanında müvafiq xidmətlər və agentliklər yaradılıb.

Kitabın üçüncü - "Azərbaycanda aqrar sahənin dayanıqlı inkişaf zəminlərinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyev ideyalarının reallaşdırılması" fəslində Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının, eləcə də kənd təsərrüfatının inkişafı üçün həyata keçirdiyi tədbirlərə, gördüyü işlərə geniş yer ayrılıb.

Bildirilib ki, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə ayrılan güzəştli kreditlərin həcminin artırılması, vergi güzəştlərinin edilməsi, fermerlərə subsidiyaların verilməsi, onların texnika, gübrə və kimyəvi vasitələrlə təminatı, biznes mühitinin, bazara çıxış imkanlarının genişləndirilməsi, aqrar sahənin elmi və kadr təminatının yaxşılaşdırılması, rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, dövlət dəstəyinin verilməsi sahəsində dövlətimizin rəhbərinin diqqət və qayğısı, xidmətləri öz bəhrəsini verməkdədir.

Aqrar sahənin gələcək dövr üçün inkişaf strategiyası qarşısında duran mühüm vəzifələrdən biri potensialın gücləndirilməsi və innovasiyaların tətbiqinin genişləndirilməsinə nail olunması məsələsidir və yaxşı haldır ki, kitabda dövlətimiz tərəfindən bu sahədə görülən işlərə nəzər salınmaqla gələcək vəzifələr öz əksini tapıb. Yazılıb ki, cənab İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafına göstərilən dəstək real nəticələrdə özünü aydın göstərir və ildən-ilə ölkənin kənd təsərrüfatı öz imkanlarını genişləndirir. Heydər Əliyev tərəfindən əsası qoyulan möhkəm bünövrə və bu təməl üzərində həyata keçirilən tədbirlər bugünümüz, eləcə də gələcəyimiz üçün yeni uğurlar vəd edir. Bu inam və baxışlar təqdim olunan kitabda elmi dəlillərlə, göstəricilərlə, statistik məlumatlarla şərh edilir və aqrar sahənin gələcək inkişafının aydın mənzərəsini yaradır.

Kitab kənd təsərrüfatı mütəxəssisləri, sahibkarlar, bu sahədə çalışanlar, xüsusilə tələbələr üçün dəyərli vəsaitdir. O, həm də dünənimizi və bugünümüzü, görülən işlərin əhəmiyyətini qiymətləndirmək, təhlillər aparmaq, səmərəli nəticələr çıxarmaq üçün çox əhəmiyyətli və faydalıdır.

Ən başlıcası bu kitab Ulu Öndər Heydər Əliyevin ömür yoluna bir daha nəzər salmaq, onun xalqımız və dövlətimiz qarşısındakı xidmətlərini nəsillərə çatdırmaq, təşviq etmək, ölməz irsini, fəaliyyətini canlandırmaq, əvəzsiz xidmətlərini, Azərbaycanın inkişafı üçün göstərdiyi fədakarlığı, əvəzolunmaz tədbirləri işıqlandırmaq baxımından çox dəyərlidir.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Azərbaycanın uğurları Heydər Əliyev ideyalarının təntənəsidir

**Bir neçə il əvvələ qədər neft diyarı və ya regionun lider ölkəsi kimi tanınan Azərbaycan bu gün həm də qlobal miqyasda müharibədə qalib gələn, torpaqlarını döyüş yolu ilə işğaldan azad edən, eyni zamanda ərazisində separatizmə birdəfəlik son qoyan dövlət kimi tanınır.**



Bu nailiyyətlərimiz Prezident İlham Əliyevin müdrik liderliyi ilə Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata vəsiqə alması deməkdir. Bu tarixi hadisələr həm də ondan xəbər verir ki, Müzəffər Prezidentimiz dövlətimizin bütün ağrılı problemlərini milli maraqlarımıza uyğun şəkildə həll etməklə, ata vəsiyyətini layiqincə yerinə yetirir.

Olduqca qürurvericidir ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü də tarixi nailiyyətlərimizin yaratdığı qalibiyyət ovqatı ilə qarşılayırıq. Hər birimiz üçün doğma olan bu tarix ərəfəsində Ümummilli Lider Heydər Əliyevin vətənimiz və xalqımız qarşısındakı böyük xidmətlərinə nəzər yetirir, əziz xatirəsini dərin ehtiramla yad edirik. Müasir Azərbaycan dövlətinin qurucusu, müstəqilliyimizin xilaskarı olan Heydər Əliyev xalqımızın hər zaman böyük iftixar hissi ilə xatırlayacağı dahi şəxsiyyətdir. Azərbaycan yaşadıqca Heydər Əliyev də yaşayacaq, ehtiramla yad ediləcək. Başqa cür desək, Heydər Əliyev Azərbaycanın özü qədər əbədidir…

Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi idi. Ulu Öndər hələ 1990-cı illərdə ictimaiyyət nümayəndələri ilə görüşlərinin birində demişdi: "Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq. Qaçqınlar öz yerinə, yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir". Heydər Əliyev dünyagörmüş şəxsiyyət idi. Onun hələ o dövrdə müdrikcəsinə dediyi fikirlər artıq həyata vəsiqə alıb. Torpaqlarımız azad edilib, ərazi bütövlüyümüz təmin olunub, məcburi köçkünlər isə tədricən doğma yurdlarına qayıdırlar. Bu tarixi hadisələrin təminatçısı olan möhtərəm Prezident İlham Əliyev Azərbaycanı həm də öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldib. Əlbəttə, bütün bunlar Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsidir, real həyatdakı təcəssümüdür. Ona görə artıq Heydər Əliyevin ruhu rahatdır.

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev respublikamız üçün elə bir inkişaf yolu müəyyən edib ki, bu yol hər zaman Azərbaycanı aydın sabahlara və yüksək rifaha aparacaq. Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə ötən 20 ildən artıq bir müddətdə Azərbaycanın yüksəlişi, qlobal nüfuzunun yüksəlməsi, xalqımızın rifahının güclənməsi, bütövlükdə hər bir sahədə əldə edilən uğurlar bunu təsdiqləyən tarixi həqiqətlərdir. Bütövlükdə, Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu çağdaş dövrün reallıqlarına və çağırışlarına uyğun zənginləşdirən, eyni zamanda onu yeni keyfiyyət mərhələsinə yüksəldən cənab Prezident İlham Əliyevin qətiyyətli siyasətinin möhtəşəm nəticələri Azərbaycanın müstəqillik və dövlətçilik tarixinin parlaq nailiyyətləridir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) də təşkilat olaraq yüksəlişinə görə Heydər Əliyevə minnətdardır. Belə ki, müstəqilliyimizin ilk illərində üzləşdiyimiz çoxsaylı problemlər, o cümlədən süni əngəllər AzQAC-a öz missiyasını həyata keçirməyə imkan vermirdi. Yalnız Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra AzQAC inkişaf dövrünə qədəm qoydu və cəmiyyətin fəaliyyətində yeni mərhələ başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə AzQAC milli qurum kimi dövlət tərəfindən tanındı. Bundan sonrakı dövrlərdə də Ulu Öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəmədi. Heydər Əliyevin 12 mart 2003-cü il tarixində AzQAC-ın XX qurultayına təbrik məktubu Ulu Öndərin cəmiyyətimizin fəaliyyətinə verdiyi əvəzsiz qiymətdir. Təbrikdə deyilirdi: "Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir".

Ona görə AzQAC üzvləri hər zaman Heydər Əliyevin əziz xatirəsini böyük minnətdarlıqla anırlar. Qürurla qeyd etməliyik ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyev də AzQAC-ın fəaliyyətinə hər zaman qayğı ilə yanaşmışdır. Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə 2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanunun qəbulu, habelə dövlətimizin başçısının 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən hər il martın 10-nunu Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunması, əlamətdar tarixlərdə cəmiyyət üzvlərinin təltif edilməsi AzQAC-ı daha məhsuldar fəaliyyətə ruhlandırmışdır.

Bu gün həm də başqa bir əlamətdar hadisənin - məramında xeyriyyəçilik və humanizm dəyərləri dayanan Heydər Əliyev Fondunun yaranmasının 20-ci ildönümünü qeyd edirik. 2004-cü il mayın 10-da yaranan Heydər Əliyev Fondunun ötən 20 ildə Ulu Öndərin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ictimai həyatın ən müxtəlif sahələrində həyata keçirdiyi fundamental layihələr bütün cəmiyyətimiz tərəfindən təqdir edilərək, dərin ehtiramla qarşılanır. Bu layihələr yalnız və yalnız cəmiyyətimizin rifahına, vətəndaş məmnuniyyətinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, milli mədəniyyətimizin təbliğinə, genefondumuzun qorunmasına xidmət edir. Əlbəttə ki, bütün bu layihələrin uğurlarının təməlində fondun Prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın yaradıcı təşəbbüsləri, vətənpərvərliyi dayanır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qaçqınların və məcburi köçkünlərin, talassemiya, autizm, daun və diabet kimi xəstəliklərdən əziyyət çəkən uşaqların, ahıl vətəndaşların dəstəklənməsinə, müharibədə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsinə yönəlmiş müxtəlif proqramlar, orta məktəblərin, uşaq bağçalarının və uşaq evlərinin tikintisi və ya yenidən qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətə layiqli töhfə verir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi layihə və proqramlar həm də ən gözəl humanizm və xeyriyyəçilik nümunələridir. 2023-cü ildə Türkiyədə baş vermiş dəhşətli zəlzələdən dərhal sonra qardaş ölkəyə yardım məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti də "Səninləyəm, Türkiyəm" adlı kampaniyaya qoşuldu. Kampaniya çərçivəsində Türkiyəyə müvafiq humanitar yardımlar edildi.

Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı Heydər Əliyev Fondunun xətti ilə çoxsaylı layihələr həyata keçirilir. Fond tərəfindən əsasən ermənilərin işğal dövründə dağıtdığı tarixi və mədəniyyət abidələri bərpa edilir ki, bunlar da bir daha Mehriban Əliyevanın vətənpərvərliyinin və vətəndaş təəssübkeşliyinin göstəriciləridir.

Mehriban xanımın xeyirxah, humanist obrazı xalqımız tərəfindən yüksək qiymətləndirilir, o cümlədən bu misilsiz fəaliyyət sənət adamlarının yaradıcılıq nümunələrində əksini tapır. Milyonlarla insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən də hələ 2004-cü ildə sözləri Gülnur Aslana məxsus "Mehriban insan" və "Öndər Fondu" əsərlərini bəstələməklə ifadə etmişəm.

Ölkəmizin bütün uğurlarının təməlində Heydər Əliyev ideyalarının həyata keçirilməsi, Ulu Öndərin irsinin yaşadılması, Prezident İlham Əliyevin qətiyyətli və müdrik siyasəti dayanır. Ötən 20 ilin tarixi reallıqlarının qiymətləndirilməsi göstərir ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra öz inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycanı qarşıdakı dövrdə növbəti möhtəşəm nailiyyətlər gözləyir.

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

## Müxalifət Ulu Öndərin əbədiyaşar xatirəsini ehtiramla anır

# Heydər Əliyevi hər zaman hörmətlə xatırlayırıq

**Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ilkin ən böyük xidməti mədəni elitanı formalaşdırmaq olub. Nəzərə almaq lazımdır ki, həmin vaxt siyasi elitanı tam şəkildə formalaşdırmaq mümkün deyildi. Rəhbər vəzifələrə adətən ruslar, ya da qeyri millətlərdən olan şəxslər təyin edilirdi. Ona görə də siyasi elitada azərbaycanlıların yerləşməsini kifayət qədər təmin etmək müşkül məsələ idi.**

Bu səbəbdən Heydər Əliyev fəaliyyətə başqa sahədən - daha yumşaq sferadan başladı, 70-ci illərdə Azərbaycanın istedadlı yazıçı, şair, rəssam, musiqiçi və teatr xadimlərinin "SSRİ Xalq artisti" və "SSRİ Sosialist Əməyi Qəhrəmanı" adları, eləcə də komsomol mükafatları ilə təltif olunmalarını təmin edə bildi. Həmin dövrdə siyasi elita formalaşdırmaq çətin olsa da, mədəni elita yaratmaqla ölkədə müəyyən dərəcədə Azərbaycan dəyərlərinin inkişafına nail olundu.

Eyni zamanda Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət ayırmağa başladı. 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbitinə nail olmaqla tarixi uğura imza atdı. Digər tərəfdən bu böyük dövlət xadimi paytaxt Bakıda erməni, rus, yəhudi və digər komponentlərin çoxluğu içində azərbaycanlaşdırma siyasətini həyata keçirdi. Nəzərə almaq lazımdır ki, şəhərdə Azərbaycan dilində danışmağın böyük problem olduğu bir vaxtda, rəsmi yazışmaların tamamilə rus dilində aparıldığı bir şəraitdə azərbaycançılıq ideologiyasına xidmət etmək böyük cəsarət tələb edirdi.

Heydər Əliyev Sov.İKP MK-nin Siyasi Bürosundan getdikdən sonra isə ölkəmizin problemləri artmağa başladı. Mərkəzdən ölkəmizlə bağlı verilən qərarlarda Azərbaycanın hər hansı bir iştirakı görünmədi və Heydər Əliyevin yoxluğu burada daha aydın hiss olundu. Yad qüvvələr Azərbaycan əleyhinə istənilən qərarı verə bilirdilər. Elə Qarabağ dalğası süni şəkildə yuxarıdan körüklənərək başlayanda da bütün qərarlar ölkəmizin əleyhinə verildi. Nəticədə Qarabağın bir hissəsi Azərbaycandan qoparıldı. Həmin ərəfələrdə Heydər Əliyev xalq hərəkatına böyük dəstək verdi. Azərbaycanın ən gərgin anında meydana atılaraq xalqımızı zillətdən xilas etdi, ümidləri doğrultdu. Azərbaycanda xaotik vəziyyət yarananda, hərbi qiyam baş verəndə Heydər Əliyev yalnız ona ümid bəsləyən Azərbaycan xalqının dadına yetişdi.

Kritik və qarışıq vəziyyətdən xilas yalnız təcrübəli bir dövlət xadiminin hakimiyyətə gəlməsi ilə mümkün ola bilərdi. Belə də oldu və qısa vaxt ərzində Heydər Əliyevin siyasi elitada və bütövlükdə cəmiyyətdə idarəetmə qabiliyyəti hər kəs tərəfindən etiraf olundu.

Bu gün də Azərbaycan dövləti xarici və daxili siyasətini Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən prinsiplər üzərində gerçəkləşdirir. Xüsusilə xarici siyasətdə ölkəmizin təhlükələrdən qorunmağının əsas səbəbi məhz Heydər Əliyevin müəllifi olduğu uğurlu siyasi strategiyalarıdır. Təsəvvür edin, bir vaxtlar kiminsə ağlına gəlməzdi ki, Ermənistanı öz himayəsində saxlayan Rusiya bu gün Azərbaycanla daha yaxın münasibət quracaq, səmimi müttəfiqlik səviyyəsində hərəkət edəcək və Ermənistana qarşı ən sərt mövqe sərgiləyəcək. Digər tərəfdən Azərbaycan heç bir bloka daxil olmadan, hətta Rusiyanın təklif elədiyi qurumlarda yer almadan, eyni zamanda Avropa məkanında öz mövqeyini qoruyaraq ayaqda durur.

Postsovet məkanında özünün problemini Azərbaycan kimi həm müharibə vasitəsilə, həm də dinc yolla həll edə bilən ikinci ölkə olmayıb. Bu uğur da elə Heydər Əliyevin qurduğu möhkəm təməllər üzərində qazanılıb. Azərbaycanın gücünü göstərən bu əsas amillərin mənbəyi isə məhz Heydər Əliyevin dərin düşüncəsi, dəqiq strategiyası olub. Hər il doğum günündə, hətta ilin bütün günlərində Heydər Əliyevin xatirəsinin anılması Azərbaycan cəmiyyətinin Ulu Öndərə dərin ehtiramından xəbər verir.

***Fazil MUSTAFA,***
***Böyük Qurtuluş Partiyasının sədri,***
***Milli Məclisin deputatı***



# Zaman keçdikcə Heydər Əliyevin böyüklüyünü daha dərindən dərk edirik

**Uca dağ zirvəsi kənardan daha aydın göründüyü üçün digər zirvələrlə onu müqayisə etmək asan olur.**

Heydər Əliyev zirvəsi elə bir yüksəklikdir ki, müqayisəyə gəlmir, zaman keçdikcə onun mahiyyətini daha dərindən başa düşürük. Yadıma gəlir, hələ məktəbli olan zaman biz Heydər Əliyevin çıxışlarına uyğun çıxışlar edər, lideri təkrarlamağa çalışardıq. İstəyirdik ki, diksiyamız, nitqimiz Ulu Öndərin nitqi kimi təmiz və səliqəli olsun.

Heydər Əliyev həqiqətən də çox nüfuzlu dövlət xadimi, böyük şəxsiyyət olub. O, hakimiyyətdə olduğu bütün zamanlarda Azərbaycana uğurla rəhbərlik edib, ölkəmizi inkişafa aparıb. Azərbaycanın imkanlarını genişləndirib, keçmiş SSRİ miqyasında tanınmasına nail olub, nəhayət, müstəqillik dövründə xalq hərəkatını himayə edib. Xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycanın tərəqqisini təmin edən "Əsrin müqaviləsi"ni bağlayıb. Məhz həmin müqavilə imzalanandan sonra Azərbaycana çoxmilyardlıq maliyyə vəsaitləri daxil olmağa başlanıb. Bunun nəticəsində isə ordumuz möhkəmlənib, iqtisadiyyatımız inkişaf edib. Bir sözlə, Ulu Öndər Azərbaycanı ayağa qaldırıb!

Azərbaycan Heydər Əliyevin irsini müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin liderliyi dövründə öz sürətli inkişafını təmin edib. Xalq-ordu-hakimiyyət birliyi yaranıb və torpaqlarımız düşmən işğalından azad edilib. Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan öz ərazisi üzərində suverenliyinin tam bərpasına nail olub, ərazi bütövlüyünü təmin edib. İlham Əliyev məhz Heydər Əliyevin vəsiyyətini yerinə yetirməklə Şuşada, Xankəndidə, Xocalıda üçrəngli bayrağımızı dalğalandırıb. Bu gün dövlət olaraq müvəffəqiyyətlə, iri addımlarla irəliləyirik və dünyada söz sahibinə çevrilmişik. Təsadüfi deyil ki, bir sıra beynəlxalq tədbirlərə məhz Azərbaycan evsahibliyi edir. Bütün bu nailiyyətlər birbaşa Heydər Əliyevin təməlini qoyduğu uğurlu yolun davamıdır.

Heydər Əliyev səbirli və təmkinli şəxsiyyət idi. Hələ o zamanlar da müxalifətdə olanda mənim özümə belə çox səbirlə yanaşır və başa düşürdü ki, şəxsi mənafeyimi güdən, vəzifə arzusunda olan və ya var-dövlət arxasınca qaçan biri deyiləm. Azərbaycanı, xalqımızı ürəkdən sevdiyimi bildiyi üçün mən hər zaman onun himayəsini hiss etmişəm. Zaman keçdikcə isə Heydər Əliyevin böyüklüyünü bir daha dərk edir və onun vəsiyyətlərini gerçəkləşdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyirik.

***Tahir KƏRİMLİ,***
***Vəhdət Partiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Xalqın güvənc yeri və qürur mənbəyi

Ötən əsrin 1969-cu ilindən 1982-ci ilə qədər olan dövr və 1993-cü ildən 2003-cü ilə qədər davam edən zaman kəsiyi müasir Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi kimi səciyyələndirilir. İstər sovetlər dönəmində Azərbaycan Respublikasının rəhbəri, istərsə də 1982-1987-ci illərdə SSRİ-nin rəhbər şəxslərindən biri kimi Heydər Əliyev nəinki postsovet məkanında, eləcə də dünya miqyasında qəbul edilən, mövqeyi ilə hesablaşılan və xüsusi nüfuz sahibi olan siyasətçi kimi tanınırdı.

Öz fitri istedadı və şəxsi nüfuzu ilə fərqlənən Heydər Əliyev ilk azərbaycanlı idi ki, belə bir zirvəyə yüksəlmiş, xalqına göstərdiyi xidmətləri ilə Azərbaycanın güvənc yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdi.

Müstəqilliyin ilk illərində Azərbaycanın məruz qaldığı hərbi təcavüz və işğal, habelə yarıtmaz idarəçilik nəticəsində ölkə daxilində vətəndaş müharibəsi gözlənilən idi. Heydər Əliyev 1993-cü ilin yayında məhz belə mürəkkəb vəziyyətdə respublika rəhbərliyinə qayıtdı.

Bu, elə bir dönəm idi ki, torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı davam edirdi, iqtisadi-siyasi və sosial vəziyyət getdikcə gərginləşirdi və təbii ki, ölkə rəhbərliyinə gələn şəxsin üzərinə çox ciddi məsuliyyət düşürdü. Ölkəni siyasi-iqtisadi böhrandan çıxarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, düşmənə sinə gərmək və bütövlükdə Azərbaycan cəmiyyətini toparlamaq, xalqın inamını özünə qaytarmaq lazım idi. Bu isə, əlbəttə ki, hər siyasətçinin və dövlət adamının öhdəsindən gələ biləcəyi görəv deyildi. Bütün çətinliklərə baxmayaraq, Heydər Əliyev çətin olduğu qədər də məsuliyyətli və şərəfli olan bu görəvin öhdəsindən qətiyyətlə gəlməyi bacardı və Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxara bildi.

Heydər Əliyev yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider olmaqla nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə müstəqil müasir Azərbaycan dövlətini yaratdı. Müstəqilliyin qorunmasının onun əldə edilməsi qədər çətin olduğunu bildirən Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi.

Heydər Əliyevin apardığı ardıcıl siyasət sayəsində müstəqilliyimiz əbədi və dönməz xarakter aldı, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirildi. Azərbaycan Ordusunun yenidən qurulması üçün zaman qazanmağın vacibliyini bilən təcrübəli dövlət başçısı düşmən tərəfinin və onun havadarlarının ciddi təzyiqlərinə baxmayaraq, atəşkəsə nail oldu, cəbhədə əldə edilmiş sabitlikdən istifadə edərək ölkə iqtisadiyyatını dirçəltmək, Azərbaycanı tənəzzüldə olan dövlətdən inkişaf edən ölkəyə çevirmək istiqamətində mühüm addımlar atılması üçün əhəmiyyətli vaxt qazandı.

Heydər Əliyev həmçinin aparıcı ölkələrlə beynəlxalq əlaqələri möhkəmləndirərək, gələcək inkişafa hesablanmış neçə-neçə layihənin, xüsusilə də uğurlu neft strategiyasının təməlini qoydu. Məqsədyönlü xarici siyasət kursunun aparılması ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və böyük investisiya imkanları yaratdı. Bunun məntiqi nəticəsi olaraq, Azərbaycanın beynəlxalq nüfuzu günbəgün artmağa başladı, iqtisadiyyatın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayə yatırıldı.

Növbəti illərdə ölkədə neft kontraktlarının imzalanması, ciddi beynəlxalq dəstəyin əldə edilməsi ölkəmizin ağır durumdan xilası üçün böyük əhəmiyyət kəsb etdi. Bu mənada torpaqlarımızın 20 faizinin işğal altında olduğu, bir milyon qaçqın və köçkünün öz dogma yurd-yuvasından didərgin düşdüyü acınacaqlı dövrdə yenicə müstəqillik əldə etmiş ölkəmizin iqtisadi-siyasi böhrandan çıxarılmasında və bununla yanaşı, dövlət müstəqilliyimizin qorunub saxlanılmasında Heydər Əliyevin rolu əvəzsizdir.

Heydər Əliyevin böyüklüyü və uzaqgörənliyini təsdiqləyən bir məqam da odur ki, o, təcrübəli bir dövlət adamı olaraq Azərbaycana rəhbərlik etdiyi ən ağır dönəmlərdə ciddi beynəlxalq təzyiqlərə dəyanətlə sinə gərərək Qarabağ məsələsində Azərbaycanın maraqlarına zidd sənədlər toplusunun formalaşmasına imkan vermədi. Siyasi iradə nümayiş etdirərək müxtəlif beynəlxalq platformalarda Qarabağ məsələsində Azərbaycanın milli və hüquqi haqqını qətiyyətlə qorudu və bu da gələcəkdə Qarabağın hərbi yolla işğaldan azad olunması üçün çox ciddi zəmin yaratdı. Bu mənada 44 günlük İkinci Qarabağ savaşının zəfərlə başa çatmasının təməlində Heydər Əliyevin tarixi xidmətlərinin əhəmiyyətli rol oynadığını qeyd etmək lazımdır.

Heydər Əliyev ideyalarının və irsinin əsas davamçısı kimi Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət və nümayiş etdirdiyi siyasi iradə sayəsində torpaqlarımız işğaldan azad olundu və ərazi bütövlüyümüz tam bərpa edildi. Bu siyasətin nəticəsidir ki, regionda yeni reallıqlar yarandı, Azərbaycan regionun əsas söz və güc sahibi kimi yeni hədəflərə doğru inamla addımlamaqdadır.

Təbii ki, Heydər Əliyevin böyüklüyünü təkcə yaxınları, tərəfdarları və dostları deyil, elə Azərbaycanın düşmənləri də zaman-zaman etiraf ediblər. Hər birimiz Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında tarixi rolu olan Heydər Əliyevin xatirəsini hörmətlə anır, ona Allahdan rəhmət diləyirik. Heydər Əliyev Azərbaycanın ən görkəmli tarixi şəxsiyyətlərindən biri kimi hər zaman tarixdə, xatirələrdə və xalqımızın qəlbində yaşayacaq.

***Arzuxan Əlizadə,***
***Azərbaycan Milli İstiqlal***
***Partiyasının sədri***

# Azərbaycanı zirvələrə ucaldan dahi şəxsiyyət

Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində öz dəst-xətini qoymuş böyük dövlət adamıdır. Heydər Əliyevin ilk fəaliyyət dövrü Sovet İttifaqı dövrünə təsadüf edir. O, SSRİ kimi böyük bir imperiyanın rəhbərliyinə yüksəlmiş müsəlman dövlət xadimi idi.

Öz prinsipiallığı ilə seçilən rəhbər kimi Heydər Əliyev Azərbaycanı bütün dünyada tanıtdı, eyni zamanda millətimizin adını yüksəklərə ucaltdı. Heydər Əliyevin fəaliyyətinin sonrakı mərhələsi isə müstəqillik dövrünə təsadüf etdi. Naxçıvanın blokadada olduğu bir vəziyyətdə muxtar respublikada rəhbərliyə seçildi və xalqın ümidlərini doğrultdu, Naxçıvan camaatını çətin vəziyyətdən çıxara bildi.

Ulu Öndərin sonrakı fəaliyyəti 1993-cü ildən Azərbaycan rəhbərliyində təmsil olunması ilə başladı. İlk növbədə Milli Məclisin Sədri, daha sonra Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, müstəqil dövlət quruculuğunda Heydər Əliyev əvəzsiz rol oynadı. Ərazilərimizin işğala məruz qaldığı həmin dövrdə ölkəni ayaqda tutmaq üçün ciddi addımlar atmaq lazım idi. Elə həmin vaxtlar "Əsrin müqaviləsi" gündəmə gəldi. Ölkəmizi inkişafa aparan həmin müqavilənin imzalanması üçün isə ciddi əmək, böyük təşkilatçılıq qabiliyyəti və uzaqgörənlik tələb olunurdu. Heydər Əliyev bunun da öhdəsindən gəldi, çətin maraqların kəsişdiyi bir vaxtda "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

1994-cü ildən etibarən Heydər Əliyevin ciddi əməyi sayəsində ordumuz möhkəmlənməyə başladı. Dövlətimiz bununla zaman qazandı, qüvvələr səfərbər edildi, güclü ordu quruculuğuna nail olundu və nəticə etibarilə hələ 90-cı illərdən başlanan tərəqqi bizi 44 günlük Vətən müharibəsində şanlı Zəfərə qədər apardı.

Heydər Əliyev irsini uğurla davam etdirən onun siyasi varisi İlham Əliyevin prezidentlik fəaliyyəti dövrü Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir. Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək xalqımızın ən ümdə arzusunu reallaşdırdı, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdi.

Ulu Öndərin layiqli davamçısı kimi İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndiririk. Müzəffər Ali Baş Komandanın dövlət idraəetməsi, etiket məsələləri, daxili və xarici siyasət strategiyaları Azərbaycanı daim zirvələrə ucaldıb. Fikrimcə, dövlətçiliyimizin qorunması naminə bundan sonra da atılacaq addımlarda uğurlara imza atmaq üçün Heydər Əliyev məktəbini öyrənmək, onun irsini davam etdirmək lazımdır.

***Elşad MUSAYEV,***
***Böyük Azərbaycan Partiyasının sədri***

**Ümummilli Lider Heydər Əliyevin XX əsrin 60-cı illərinin sonundan başlanan idarəetmə fəlsəfəsinin başlıca istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi və beynəlxalq nüfuzunun sürətlə artması Ulu Öndərin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.**



# Azərbaycanda sahibkarlığın dinamik inkişafının təməlində Heydər Əliyev ideyaları dayanır

Heydər Əliyev islahatlarının vüsəti, əhatə dairəsi, ölkə həyatının ümumi mənzərəsinə təsir göstərmək imkanları yeni cəmiyyət yaradılması zərurətini qaçılmaz edirdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Bu dövrdə bazar iqtisadiyyatına keçidin, yeni mülkiyyətin formalaşması prosesinin diktə etdiyi ən başlıca şərtin məhz özəl sektorun fəaliyyəti üçün dövlət səviyyəsində maksimum imkanların yaradılmasından, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasından ibarət olması heç kəsə sirr deyil. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, ümumi daxili məhsul istehsalında bu təbəqənin rolunu artırmadan dinamik iqtisadi yüksəlişi təmin etmək mümkün deyil. Bu baxımdan sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması məqsədilə əsaslı islahatların aparılması Azərbaycanda həyata keçirilən inkişaf strategiyasının əsas qayəsini təşkil etməli idi.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb, inkişaf yoluna çıxarmaq idi. Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasət ölkənin iqtisadiyyatının bütün sahələrinin inkişaf modelini yaratdı. Onun təşəbbüskarlığı, əzmkar fəaliyyəti tezliklə Azərbaycanı inkişaf etməkdə olan dövlətlər sırasına çıxardı, həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşmasına, sosial-mədəni həyatın canlanmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək, əslində, gələcəyin təməlini qoymuş oldu.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

Paralel olaraq beynəlxalq neft şirkətləri ilə birlikdə 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı. Onun prezidentliyi dövründə iqtisadiyyatın bütün sahələrində radikal islahatlar aparıldı və nəticədə iqtisadiyyatın dinamik inkişafı təmin edildi.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Ümummilli Lider ilk illərdən ölkədə bazar münasibətlərinin formalaşması və inkişafı sahəsində sahibkarlığın əhəmiyyətini yüksək dəyərləndirmiş, onun təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramı (2002-2005-ci illər)"nın qəbulu və həyata keçirilməsi təmin edilmişdir. Bu proqramlar ölkədə sahibkarlığın formalaşması və inkişaf modelinin əsasını yaratdı. Belə ki, qeyd olunan proqramlarda kiçik və orta sahibkarlığın hüquqi bazası yaradıldı, sahibkarlığın təşəkkülü və inkişafı üçün əlverişli mühit formalaşdı, sahibkarlığın səmərəli dövlət tənzimlənməsi təmin edildi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və onların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar imzalaması, dövlət proqramlarının qəbul edilməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşlərinə nümunə kimi 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramları təsdiq olunmuşdur. Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi qeyd olunur.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən bir siyasətçini yetişdirməsi idi. 2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resurslarını insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 ildən çox müddətdə ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı dünya birliyinin diqqət mərkəzində olmuşdur.

Müasir dünyamızın ən parlaq siyasi liderlərindən olan İlham Əliyev xalqımızın mütləq səsi ilə növbəti dəfə 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu ilin fevral ayında keçirilmiş növbədənkənar prezident seçkilərində Azərbaycan sahibkarları da birmənalı olaraq cənab İlham Əliyevə səs vermişlər. Çünki keçən 20 il sübut etdi ki, İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla, Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, etimad və etibar ünvanı saydığı rəhbərdir.

Prezident seçkiləri başa çatdıqdan sonra cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizdəki biznes mühiti barədə demişdir: "Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün, əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

Cari il aprelin 23-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin tədbir iştirakçılarının suallarını cavablandırarkən vurğuladığı kimi, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə birbaşa rəvac verib. Cəmi üç il ərzində ölkəmizin qazandığı ardıcıl qələbələr həm də illərdir dünyada davam edən bu cür münaqişələrin həll olunması baxımından mükəmməl Azərbaycan nümunəsini ortaya qoyub. Sübut edilib ki, bir halda problem danışıqlar vasitəsilə çözülə bilmir, o zaman güc variantını seçmək qaçılmazdır.

Hazırda Azərbaycan dövləti tərəfindən Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür. Soydaşlarımızın tezliklə öz yurd-yuvalarına qayıtması, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. Prezident də mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışına qatılır. Yeri gəlmişkən, qeyd edək ki, yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihəsində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə əhalinin sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmışdır.

Azərbaycan sahibkarları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfəni yüksək dəyərləndirirlər. Təsadüfi deyil ki, son illər ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu işdə isə Mehriban xanımın rolu danılmazdır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Məlum olduğu kimi, Prezident İlham Əliyev işğaldan azad olunmuş rayonlara hər səfəri zamanı iş adamlarına müraciət edərək onları işğaldan azad edilmiş ərazilərə sərmayə qoymağa çağırır. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə Prezidentinin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir.

2023-cü ildə dünya iqtisadiyyatında qeyri-müəyyənliklər və resessiya risklərinin daha da artması bəlli faktdır. Təchizat zəncirində yaranmış problemlər, həmçinin enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin qalxması qlobal inflyasiyanın yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur. Lakin qeyd edilən proseslər fonunda Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikası davam etmişdir. Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2023-cü ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadi artım prosesləri sürətlənmiş və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olmuşdur. Bu dövr qeyri-neft iqtisadiyyatımız 4 faiz artmış, sənaye müəssisələri və həmin sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 67 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, qeyri-neft-qaz sektorunda məhsul istehsalı 8,0 faiz artmışdır.

Ötən il Azərbaycan dünyanın 193 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 121 ölkəyə məhsul ixrac, 184 ölkədən idxal olunmuşdur.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır. Belə ki, ölkədə sahibkarlığa dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, onların maarifləndirilməsi və işgüzar əlaqələrin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində özəl bölmənin ÜDM-də payı 83 faiz, məşğulluqda isə 78 faizdən artıq təşkil etmiş, ölkədə aktiv vergi ödəyicilərinin sayı 768 mindən çox olmuşdur. 2023-cü ildə Azərbaycanda açılan iş yerlərinin 93 faizdən çoxu özəl sektorun payına düşmüşdür. Ölkə üzrə sahibkarlıq subyektlərinin 99 faizi kiçik və orta sahibkarlıq subyektləridir və onların əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisyalarda payı ildən-ilə artmaqda davam edir.

Sahibkarlıq sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə indiyədək bir çox qanun qəbul olunub. Sahibkarlığın inkişafına töhfə verən qanunlardan biri olan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunda sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqanların hüquq və vəzifələri, sahibkarların maraqlarının müdafiəsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilmişdir. Regionların yeni siyasi-iqtisadi reallığından söz açarkən ilk növbədə 2004-cü ildən bugünədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası qeyd olunmalıdır. Ötən illər ərzində şəhər və rayonlarda, kəndlərdə, qəsəbələrdə infrastruktur layihələri uğurla gerçəkləşib, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülüb. Ümumilikdə, son 20 ildə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edib.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2023-cü ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Belə ki, "Fiç Reytinq" beynəlxalq kredit reyting agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini "BB+" səviyyəsində bir daha təsdiq edərək proqnozun "sabit"dən "pozitiv"ə yüksəldiyini bildirmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının xalis suveren aktivlərinin mövqeyinin 2024-2025-ci illərdə sabit qalacağı proqnozlaşdırılır ki, bu da Azərbaycan ilə eyni qrupda olan ölkələr arasında ən yüksək göstəricidir.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Konfederasiya öz imkanlarından istifadə edərək, azad olunmuş torpaqlarda biznesin inkişafı, mövcud layihələrə xüsusi yanaşmaların tətbiq edilməsi və sahibkarların dövlətin dəstək tədbirlərindən yararlanması üçün təşkilati yardım göstərməyə hazırdır. Artıq aqrar, təhsil, emal, mədənçıxarma, ticarət, turizm sahələrini əhatə edən investisiya təklifləri mövcuddur və bunların bir qismi icra mərhələsindədir.

Dövlət Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Sahibkarlar isə öz növbəsində dövlətimizə inanaraq iri layihələrdə iştirak etmək üçün müraciət edirlər. Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda və Şərqi Zəngəzurda iş qurmaq istəyən ölkə sahibkarlarının təkliflərini toplamaq üçün işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi 70-ə yaxın təklif hökumətə təqdim edilmişdir. Bununla bağlı artıq bir çox layihənin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağıllı kənd", "Yeni iqtisadiyyat" və digər layihələrdir.

Azərbaycan Sahibkarlar Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparılır. Bundan əlavə, Azərbaycan hökuməti, Həmkarlar Konfederasiyası və Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi, bir sıra əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində birgə tədbirlər həyata keçirirlər. Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqeləri və birgə fəaliyyət istiqamətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır və bu sahədə müvafiq işlər görülür.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar çərçivəsində Sahibkarlar Konfederasiyası bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edir və bunun nəticəsində yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlarla işgüzar əlaqənin yaradılmasında və sahibkarlığın inkişafı məqsədi ilə investisiya qoyuluşunda müvafiq şərait yaradır.

Sahibkarların qarşılaşdığı məsələlərin operativ şəkildə həllinə nail olmaq üçün yaradılan əlverişli mexanizmlərdən biri də Əməkdaşlıq şuralarıdır. Hazırda konfederasiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Dövlət Gömrük Komitəsi ilə Əməkdaşlıq şuraları fəaliyyət göstərir. Bu şuralar sahibkarların qaldırdıqları məsələlərin həllində müstəsna rola malikdir və dövlət-özəl dialoqunun ən işlək mexanizmlərindən biridir.

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bu il Bakıda keçiriləcək. Prezident İlham Əliyevin sərəncamı ilə təşkilatda özəl sektoru Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası təmsil edir.

Təsadüfi deyil ki, dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu, dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə bu sahədə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir. Odur ki, dövlət başçısının sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənmişdir. Bu hədəflərə nail olunmasında isə özəl sektorun üzərinə böyük məsuliyyət və öhdəliklər düşür və Azərbaycan Sahibkarlar Konfederasiyası bu missiyanı uğurla icra etməkdə biznesə hər cür dəstək verir.

Bu günlər bütün Azərbaycan xalqı kimi, Sahibkarlar Konfederasiyası da Ulu Öndər Heydər Əliyevin doğum gününü qeyd edir. Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir. Hər kəs həm də bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük Vətəndaş-Azərbaycanlı kimi əbədi həkk edilmişdir.

*Biz - yaranmasının 25 illik yubileyini qeyd etdiyimiz Sahibkarlar Konfederasiyası və sahibkarlarımız Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirərək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə istifadə etməklə Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində, ölkəmizin, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızın daha da çiçəklənməsi, əhalinin rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni əsirgəməyəcəyik.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Heydər Əliyev siyasəti Azərbaycanın yüksəlişinin yeganə təminatıdır

**Bu günlərdə respublikamızın hər yerində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd olunur. Bu münasibətlə keçirilən hər bir tədbir göstərir ki, xalqımız müstəqilliyimizin xilaskarı, müasir dövlətimizin qurucusu olan Heydər Əliyevin əziz xatirəsini hər zaman uca tutacaq, böyük minnətdarlıqla yad edəcək.**



Ümummilli Liderin anadan olmasının ildönümünü həm də ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunduğu bir vaxtda qarşılayırıq. Və bu tarixi reallıq Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun təntənəsi və Ulu Öndərin ən layiqli davamçısı olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyinin və qətiyyətli siyasətinin məntiqi nəticəsidir.

Xalqımızın dahi oğlu Heydər Əliyev elə bir dühadır ki, barəsində hər zaman böyük ehtiramla söz açılacaq, xalqımız və dövlətimiz qarşısındakı əvəzolunmaz tarixi fəaliyyəti bütün zamanlarda dərin minnətdarlıqla xatırlanacaq. Azərbaycanın son 55 illik tarixini fikir və təhlil süzgəcindən keçirdikdə görürük ki, bu dövrdə xalqımızın əldə etdiyi bütün nailiyyətlərin, dövlətçiliyimizin və müstəqilliyimizin xilasının təməllərində Heydər Əliyevin xidmətləri və ölməz ideyaları dayanır. Hələ keçmiş sovetlər dövründə Azərbaycana birinci rəhbərliyi illərində Heydər Əliyev ölkəmizin ittifaq miqyasında qazandığı uğurlar, müttəfiq respublikalar arasında qabaqcıllar sırasına çıxması müasir tariximizə intibah dövrü kimi həkk olunub. Azərbaycanın yüksəlişi ilə yanaşı, sovet ideologiyasının hakim olduğu həmin illərdə milli-mənəvi dəyərlərimizin yaşadılması, itməməsi üçün həyata keçirilən tədbirlər Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, Ulu Öndərin qətiyyətindən xəbər verir.

Üzləşdiyimiz bütün uğursuzluqlar Heydər Əliyevin siyasi rəhbərlikdə təmsil olunmadığı illərə təsadüf edir. Amma Heydər Əliyev onda da öz xalqının yanında olub. Heydər Əliyev öz böyük siyasi dühası ilə milli müstəqillik uğrunda mübarizənin öndəri idi. Böyük qürur hissi ilə qeyd etməliyik ki, məhz Heydər Əliyev müasir tariximizdə ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı rəsmi şəkildə ucaltdı. Heydər Əliyevin qətiyyəti ilə hələ sovet dövründə Naxçıvanda bütün sovet dəyərlərindən və adlarından imtina edildi. Məhz Heydər Əliyevin Naxçıvandan başlatdığı mücadilə xalqımızın müstəqillik uğrunda mübarizəsində həlledici amilə çevrildi və milli mücadiləmizin uğurlarını təmin etdi.

Ulu Öndər Heydər Əliyevin sayəsində ilk dəfə Naxçıvanda 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilmişdi. Heydər Əliyevin müdrikliyi ilə keçmiş sovet qoşunları Naxçıvanı tərk etmiş, silah və texnikası isə yeni yaradılan Azərbaycan Ordusunun və sərhəd xidmətinin sərəncamına verilmişdi. Naxçıvana gəlişi ilə Heydər Əliyev həm də bu qədim diyarı qorumuş, Ermənistan tərəfindən işğal edilməsinə imkan verməmişdi. Bu mənada blokada vəziyyətinə düşən Naxçıvan Muxtar Respublikasının ötən əsrin 90-cı illərində bütün tarixi sınaqlardan uğurla çıxmasının əsas səbəbi bu diyara məhz Heydər Əliyev kimi təcrübəli siyasətçinin və görkəmli dövlət xadiminin rəhbərlik etməsi idi.

Elə buna görə də Azərbaycanın siyasi-hərbi problemlərlə üz-üzə qaldığı müstəqilliyimizin ilk illərində ölkə ictimaiyyəti vəziyyətdən çıxmaq, Azərbaycanı xilas etmək üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Xalq Heydər Əliyevə inanır, ona güvənirdi. 1992-ci ilin noyabr ayında Naxçıvanda Ulu Öndərin liderliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması da Heydər Əliyevə olan inamdan irəli gəlirdi.

Ölkədə hərbi-siyasi vəziyyətin ən gərgin həddə çatdığı 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi, əvvəl Ali Sovetin Sədri, həmin ilin oktyabr ayında isə Prezident seçilməsi Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu. Respublikamızda başlanan Heydər Əliyev siyasətinin nəticəsi kimi bütün gərginliklər, təhlükələr dəf edildi, dövlətçiliyimizin təməlləri yaradıldı, inkişafın konturları müəyyən edildi, hüquqi dövlət quruculuğu həyata keçirildi. Tənəzzüldən çıxan Azərbaycan "Əsrin müqaviləsi" kimi tarixi sazişlə qlobal səviyyədə layiqli yerini tutdu.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursu, ideyaları, əsasını qoyduğu inkişaf xətti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Hələ 2003-cü ildə prezident seçilərkən andiçmə mərasimi zamanı cənab İlham Əliyev demişdi: "Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Ötən 20 ildən bir qədər artıq dövrün reallıqları göstərir ki, Prezident İlham Əliyev Azərbaycanı inkişaf etmiş müasir dövlətə çevirib. Bu 20 ildə möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən möhtəşəm uğurları yaşanıb. İqtisadiyyatımız 3 dəfədən çox artıb, Ulu Öndərin enerji siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlib, Azərbaycan kosmik kluba daxil olub. Bütün bunları təmin edən Prezident İlham Əliyev həm də Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.

Bu 20 ilin ən möhtəşəm hadisəsi isə torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağda 200 illik erməni separatizminə son qoyulması və ərazi bütövlüyümüzün təmin olunmasıdır. Qətiyyətli və müdrik siyasəti ilə bu uğurları xalqımıza yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin vəsiyyətini layiqincə yerinə yetirdi. Bütün bu hadisələrin məntiqi davamı kimi Rusiya sülhməramlılarının Azərbaycanı tərk etməsi və Qazaxın 4 qeyri-anklav kəndinin işğaldan azad olunması bir daha təsdiq etdi ki, Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edən Liderdir.

Mayın 10-da həm də fəaliyyəti ilə hər bir azərbaycanlının rəğbətini qazanmış Heydər Əliyev Fondunun yaranmasının 20-ci ili tamam olur. Yarandığı gündən Ulu Öndərin adını daşıyan fond 20 ildə qarşıya qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirib, Azərbaycanın yüksəlişinə, ölkəmizin dünyada tanınmasına xidmət edib. Heydər Əliyev Fondu hər zaman ehtiyacı olanın yanında olub, müraciət edən hər kəsə əl tutub. Fond tərəfindən sosial və mədəni sferalarda həyata keçirilən layihələr, məktəblərin, uşaq bağçalarının, uşaq evlərinin tikintisi və təmiri, tibb mərkəzlərinin yaradılması və son illərdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa işləri Heydər Əliyev ideyalarına sədaqətin nümunəsi olmaqla, cəmiyyətimiz tərəfindən böyük razılıqla qarşılanır.

Bu gün Azərbaycan xalqı tarixinin ən şanlı dövrünü yaşayır. Bunu bizə nəsib edən Ulu Öndər Heydər Əliyevin yolu, Prezident İlham Əliyev siyasətidir. Bu yol, bu siyasət Azərbaycanın daha da yüksəlişinin və yeni nailiyyətlərimizin yeganə təminatıdır.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***



# "Heydər Əliyev bir möcüzə idi"

## Sadə əmək adamı Ulu Öndəri bu sözlərlə xatırlayır

Ulu Öndər Heydər Əliyev haqqında söz demək dəryanın dibinə enib dürr çıxarmağa bənzəyir. Bu dahi şəxsiyyətin çoxşaxəli fəaliyyətinin hansı istiqamətindən yazmaq adamı uzun-uzadı düşünməyə vadar edir. O cümlədən Ümummilli Liderin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 14 illik fəaliyyətindən bir məqalədə yazmaq qeyri-mümkün olduğu üçün burada onun əmək adamına, zəhmətkeş kəndliyə verdiyi dəyərdən söz açacağam.



Məlumdur ki, Azərbaycan ötən əsrin 60-cı illərində iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. Kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq çox aşağı olmaqla yanaşı, torpaqlardan da səmərəli istifadə edilmirdi, kolxoz və sovxozların əksəriyyəti ziyanla işləyirdi, elmin və texnikanın tətbiqi hiss olunmurdu, kadr hazırlığı bərbad vəziyyətdə idi. Meyvə, tərəvəz, çay və digər məhsulların emalı özbaşına buraxılmış, ət, süd, pambıq və üzüm məhsullarının emalı isə primitiv sexlərdə çox cüzi miqdarda həyata keçirilirdi. Ulu Öndər ilk günlərdən bu geriləmənin səbəblərini aradan qaldırmağın yollarını tapdı və qısa müddət ərzində Azərbaycanı SSRİ miqyasında öncül yerlərə çıxara bildi. Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi yaşandı.

1969-1982-ci illərdəki fəaliyyəti dövründə Heydər Əliyev Azərbaycanda aqrar-sənaye kompleksinin yaradılmasına nail oldu. Məhz həmin dövrdə respublikada aqrar-sənaye kompleksi kimi qəbul edilmiş bu sahə yüksək sürətlə inkişaf etdi və onun inteqrasiyası təmin olundu. Əlbəttə, belə yüksək uğurların əldə edilməsi üçün öncə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması təmin edilməli idi ki, bunu da Ulu Öndər həyata keçirdi. Bütün bu uğurların təməlində təbii ki, sadə əməkçi, zəhmətkeş kəndli dayanırdı. Sovxoz fəhləsi, kolxozçu və heyvandar əməyinin yüksək dəyərləndirilməsi onlara stimul verir, işləməyə həvəsi artırırdı. Kənd təsərrüfatında çalışan işçilərə Heydər Əliyev şəxsən diqqət ayırır, onlarla görüşüb söhbət etməkdən, problemlərinin həlli üçün şərait yaratmaqdan zövq alırdı. Xüsusilə də qabaqcıl işçilər gözündə çox ucada idi. Səsləri Ali Sovetin tribunasından, qurultaylar sarayından gələn kolxozçu, heyvandar, sovxoz fəhləsi Ulu Öndərin dostu idi.

Heydər Əliyevin bu qəbildən olan dostlarından biri də Mələksə Əliyevadır. Mələksə xanım vaxtilə Tovuz rayonundakı Kirov adına sovxozda üzümçü fəhlə işləyib. İşlədiyi müddətdə 9-cu çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub. "Qırmızı Əmək Bayrağı", "Oktyabr İnqilabı", "Şərəf nişanı" ordenləri ilə təltif edilib. O, ötən əsrin 70-80-ci illərində nəinki rayonun, respublikanın məşhur üzümçüsü kimi tanınırdı, adı qəzet-jurnal səhifələrini bəzəyirdi. Düz 7 il "Sosializm yarışının qalibi" döş nişanını qazanan bu əməkçi xanım şəxsən Heydər Əliyevlə dəfələrlə görüşüb, söhbət edib. Hazırda təqaüddə olan və doğma kəndi Xatınlıda yaşayan Mələksə xanımla əlaqə saxladım. Ulu Öndərlə bağlı xatirələrindən söz açaraq dedi:

- Heydər Əliyev mənə doğmalarım qədər əzizdir. Baxmayaraq ki, cismən aramızda yoxdur, amma işıqlı xatirəsi həmişə mənimlədir. Hərdən düşünürəm ki, belə bir insanı unutmaq olarmı? O dahi şəxsiyyət həyatımda, əmək fəaliyyətimdə elə silinməz izlər buraxıb ki, onları xatırlamamaq, yaxud unutmaq mümkün deyil. Onunla ilk tanışlığım 1976-cı ildə olub. Bakıya qabaqcılların respublika müşavirəsinə getmişdim. Müşavirə Lenin Sarayında (indiki Heydər Əliyev Sarayı) keçirilirdi. Fasilədə foyedə toplaşan insanların yanına gələn rəhbər bizimlə görüşdü, hər kəslə ayrıca hal-əhval tutdu. Növbə mənə çatanda yaxamdakı deputat nişanına işarə edərək soruşdu ki, işlər necə gedir? Düzü, çox utandım, onsuz da xarakter etibarilə utancaq və bir qədər çəkingən adamam. Respublika rəhbərinin çox ciddi şəkildə işlərim haqda soruşması məndə böyük həyəcan yaratdı. Deyəsən, həyəcanımı anladı. Bu dəfə gülümsəyərək harda işlədiyimi, hansı rayondan gəldiyimi soruşdu. Mən onun üzündəki xoş təbəssümdən cəsarətlənib özüm haqqında məlumat verəndən sonra "yaxın zamanda Tovuza gələcəm, şəxsən sənin işlədiyin sahələrə də baxacam, görüm necə işləyirsən" deyə xoş sima sərgiləyərək digər müşavirə iştirakçıları ilə söhbət etməyə, suallar verməyə başladı. Onu da deyim ki, həmin görüşdə Ulu Öndər bizimlə şəkil də çəkdirdi. Heyif ki, hansısa qəzetin fotoqrafının çəkdiyi həmin şəkildən məndə yoxdur.

Heydər Əliyevi o zamana kimi yalnız televiziyadan, qəzet səhifələrindən görmüşdüm. Mənə olduqca ciddi, zabitəli, hökmlü bir insan təsiri bağışlamışdı. Amma yaxından izləyəndə anladım ki, respublika başçısı çox sadə, zarafatcıl, səmimi bir insandır. İlk dəfə üzündə gördüyüm o xoş təbəssüm hələ də yaddaşımdan silinməyib.

Bir neçə ay sonra Ulu Öndər, dediyi kimi, rayonumuza səfər etdi. Bizim kəndə də gəldi, sovxozun üzüm plantasiyalarını gəzdi. Mənim işlədiyim briqadanın 70 hektarlıq sahəsi ilə yaxından tanış oldu. Sentyabr ayı idi, artıq üzüm yetişmişdi, budaqlardan sapsarı salxımlar sallanırdı, yaxın günlərdə yığıma başlayacaqdıq. Briqadamız beş hektarlıq sahədə irigiləli "Kardinal" sortu deyilən süfrə üzümü də yetişdirirdi. Xatırlayıram ki, Heydər Əliyev salxımlardan birini əlinə götürüb heyrətlə "nə qədər böyükdür" deyərək gilələrdən birini qoparıb yedi. Həmin gün kəndimizdə yeni artezian quyusunun qırmızı lentini də Heydər Əliyev kəsdi. Çıxış etdikdən sonra Ulu Öndər mənə xalça və tozsoran hədiyyə etdi.

Uzun illərdir həmin xalça evimin ən dəyərli əşyası kimi qorunur. Sonralar mən Ulu Öndəri Ali Sovetin iclaslarında görürdüm, fürsət düşəndə yaxınlaşıb görüşürdüm. Və hər dəfə sanki onu yenidən kəşf edirdim. O, bir möcüzə idi. Heydər Əliyev dünyadan köç edən gün həyatımın ən acı günü oldu. Həmin hiss qəlbimdən və yaddaşımdan yalnız mən dünyadan gedəndə silinəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyevin gənclər siyasəti layiqincə davam etdirilir

Xalqımız müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü qeyd edir. Bu münasibətlə respublikamızın dörd bir yanında Heydər Əliyevin xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilir, insanlar Fəxri xiyabana axın edir, Ulu Öndərin məzarı önünə gül-çiçək dəstələri düzürlər. Bu günlərdə hər birimiz bir daha Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün, Heydər Əliyev əzəmətinin təsiri altındayıq.

Respublikamızın gənclər təşkilatları da Ulu Öndərin anadan olmasının 101-ci ildönümü böyük coşqu ilə qeyd edirlər. Heydər Əliyev Azərbaycan gənclərinin böyük dostu, himayədarı olmuşdur. Azərbaycanın son 55 illik tarixindən də məlum olduğu kimi, həm sovetlər birliyi, həm də müstəqillik illərində Heydər Əliyev gənclərin problemlərini, onları narahat edən məsələləri daim diqqətdə saxlamış, gənc nəslin cəmiyyətə inteqrasiyası, onların özlərini realizə etmələri üçün mütərəqqi gənclər siyasəti həyata keçirmişdir.

Ulu Öndər Heydər Əliyev hələ sovet illərində minlərlə azərbaycanlı gənci yüksək təhsil almaq, müasir peşələrə daha dərindən yiyələnmək üçün keçmiş Sovet İttifaqının ən nüfuzlu ali məktəblərinə göndərmişdir. Ümummilli Lider 1993-cü ildə xalqımızın istək və tələbi ilə siyasi hakimiyyətə gəldikdən sonra da xüsusi diqqət yetirdiyi məsələlərdən biri gənclərlə bağlı problemlərin aradan qaldırılması olmuşdur. Heydər Əliyev hələ 1993-cü ilin sentyabrında parlamentdə gənclərin nümayəndələrini qəbul edərək onları dinləmişdir. 1994-cü ilin iyulunda gənclər və idman siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanının yaradılması, 1996-cı il fevralın 2-də Ulu Öndərin iştirakı ilə Azərbaycan Gənclərinin Birinci Forumunun keçirilməsi və bu tarixin təqvimə hər il böyük coşqu ilə qeyd etdiyimiz Azərbaycan Gəncləri Günü kimi daxil olması Heydər Əliyevin dövlətçilik fəaliyyətində gənclər siyasətinin əsas yerlərdən birinin tutduğunu göstərir. Ulu Öndərin "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" sözləri isə biz gənclərin fəaliyyətinin devizidir.

Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi gənclər siyasəti Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev tərəfindən yeni mərhələyə yüksəldib. Prezident İlham Əliyevin fəaliyyətində gənclərin inkişafı, təhsili, dövlət idarəçiliyində irəli çəkilmələri ilə bağlı məsələlər hər zaman prioritet olub. O cümlədən gənclərin innovativ təşəbbüslərinin dəstəklənməsi, onlar üçün təqaüdlərin təsis olunması da mütərəqqi gənclər siyasətindən xəbər verir. Prezident İlham Əliyevin təsdiq etdiyi müxtəlif dövlət proqramları gənclərlə bağlı qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsini təmin edib. Xüsusilə qeyd edilməlidir ki, hər il yüzlərlə gəncimiz üçün dövlət hesabına dünyanın ən mötəbər ali təhsil müəssisələrində təhsil almaq imkanının yaradılması respublikamızda həyata keçirlən gənclər siyasətinin olduqca mütərəqqi olmasından xəbər verir.

Gənclərin intellektual, fiziki və mənəvi inkişafı, onların respublikamızın siyasi, ictimai, iqtisadi, sosial və mədəni həyatına daha aktiv qoşulmalarını təmin etmək üçün Prezident İlham Əliyev "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı da imzalayıb. Bu strategiya çərçivəsində ötən müddətdə həyata keçirilən dövlət gənclər siyasəti sayəsində qarşıda duran vəzifələr uğurla həyata keçirilib. Regionlarda "Gənclər Evi"nin yaradılması, gənc ailələrin sosial qayğılarının dəstəklənməsi, gənclər üçün ipoteka şərtlərinin sadələşdirilməsi kimi məsələlər gənc nəslin inkişafına və onların qayğılarının aradan qaldırılmasına xidmət edən mühüm addımlardır.

Azərbaycan gəncləri isə dövlətin onlara göstərdiyi diqqət və qayğıya öz layiqli əməlləri ilə cavab verir, etimadı doğruldur, hər bir sahədə vətənə və xalqa xidmətin layiqli nümunələrini göstərirlər. Ən mühüm məsələlərdən biri də budur ki, mütərəqqi dövlət siyasətinin nəticəsi kimi hər bir Azərbaycan gənci həm də vətənpərvər vətəndaş kimi formalaşır. Torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsində gənclər əsl qəhrəmanlıq nümunəsi göstərdilər. Onların əksəriyyəti heç vaxt Qarabağı görməmişdi. Amma Vətən müharibəsində vətənpərvərliyin, vətən sevgisinin ən mükəmməl nümunələrini yaratdılar. Bu savaşda gənclərimiz tariximizə səs salan qəhrəmanlıq salnamələri yaratdılar, şəhidlik mərtəbəsinə ucaldılar. "Fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və Müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar", - deyə Prezident İlham Əliyev bu barədə bildirib.

Bəli, dövlətimiz və xalqımız torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhid gənclərimizi hər zaman ehtiramla yad edir və tarixboyu yad edəcəklər.

Azərbaycan dövlətinin gənclərin inkişafı istiqamətində yaratdığı imkanlar olduqca nümunəvidir. Bütün bunlar göstərir ki, Heydər Əliyevin banisi olduğu dövlət gənclər siyasəti layiqincə yaşadılır və dövrün çağırışlarından irəli gələrək yeni keyfiyyət mərhələsinə yüksəldilir. Bu siyasətdən layiqincə bəhrələnən gənclik isə dövlət və xalq qarşısında mənəvi borcunu, məsuliyyətini düzgün dəyərləndirir və öz əməlləri ilə dövlətin göstərdiyi etimadı uğurla doğruldur.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və tələbə gənclər təşkilatları tərəfindən 3-10 may tarixlərində "Əbədi lider həftəsi" çərçivəsində silsilə tədbirlər keçirilməkdədir. Müxtəlif məzmunlu bu tədbirlərlə tələbə gənclərimiz Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edirlər. Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatı tərəfindən isə Ulu Öndərə həsr olunmuş tədbirlər bütün ilboyu davam etdiriləcək.

***Nicat ƏLİYEV,***
***Azərbaycan Dillər Universitetinin***
***Tələbə Gənclər Təşkilatının sədri***

# Milli inkişafa xidmət edən ideyaların müəllifi



**Hər bir xalq müəyyən taleyüklü mərhələdə dövlətə rəhbərlik missiyasını üzərinə götürən, milli inkişaf yolunu elmi əsaslarla müəyyənləşdirən liderlərinin sayəsində dayanıqlı tərəqqiyə nail olur. Dövlətin malik olduğu resursları milli hədəflər naminə səmərəli realizə edən belə qüdrətli liderlər son nəticədə mənsub olduqları xalqı sabit inkişaf yoluna çıxarır, xilaskar və qurucu rəhbər kimi milyonların qəlbində əbədiyaşarlıq qazanırlar.**

Azərbaycan xalqının dünya siyasi arenasına bəxş etdiyi böyük siyasət və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi tarixi mərhələ xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması kimi mühüm prosesləri əhatə edir.

Hər bir xalq taleyində müstəsna rol oynamış belə fenomen şəxsiyyətlərin zəngin ömür yolunu, mükəmməl dövlətçilik və siyasi irsini öyrənərək gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl addımlar atır. Sağlığında Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi naminə həyata keçirdiyi möhtəşəm tədbirlərlə ümummilli liderlik zirvəsinə yüksəlmiş Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi, ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması xüsusi aktuallıq kəsb edir.

Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Fərmanı ilə 70-80-ci illərdə inşa olunmuş bir sıra möhtəşəm tikililərə Ulu Öndərin adı verilib və ictimai əsaslarla Heydər Əliyev Fondu yaradılıb. 2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən, bu il yaranmasının 20-ci ildönümü tamam olan Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq Ümummilli Liderin siyasi və dövlətçilik irsinin dünyada tanıdılması, təbliği istiqamətində ardıcıl iş aparır. Fond ötən 20 ildə həmçinin elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olub, milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışıb. Fondun fəaliyyəti eyni zamanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına, bəşəriyyətin xilasına yönələn mütərəqqi idealların cəmiyyətdə möhkəm əsaslarla intişar tapmasına, fərqli sivilizasiyaların dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq, insanpərvərlik və nəciblik, humanizm kimi müqəddəs dəyərlərin aşılanmasına yönəlib.

Xalqımız Ulu Öndərin anadan olmasının 101-ci ildönümünü tamamilə fərqli ovqatda, böyük ruh yüksəkliyi ilə qeyd edir. "Heydər Əliyev İli" kimi tarixiləşən 2023-cü ilin sentyabrında dövlət suverenliyimizin bərpası, Qarabağda erməni separatizminin kökünün kəsilməsi, bu il fevralın 7-də bütöv Azərbaycanda keçirilən prezident seçkiləri, ölkəmizin Ermənistanı sülhə məcburetmə istiqamətində atdığı qətiyyətli addımlar Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsi, ərazi bütövlüyümüzün təmini məqsədilə zəmin hazırladığı proseslərin məntiqi nəticələridir.

Əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar, strateji məqsədlərini inamla reallaşdırması Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilən böyük strateq Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını işləyib həyata keçirdi. Qətiyyəti, iradəsi və təşəbbüskarlığı sayəsində keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələrinin həmin illər məhz Azərbaycanda inşasına nail oldu, respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasını formalaşdırdı. Sənayenin inkişafını müəyyənləşdirən tamamilə yeni sahələr meydana gəldi, müxtəlif elektrik cihazları istehsal edən zavodlar inşa olundu. Ümumilikdə 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradıldı, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başladı.

Ötən əsrin 70-ci illərində neft sənayesinin inkişafında da yüksəliş hiss olundu, milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyuldu. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiya və üsullardan istifadədə yeniliklər məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində mümkün oldu. Onun müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırıldı.

Qeyd edilənlər bir daha təsdiqləyir ki, Ulu Öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməyən, bəzən mümkün görünməyəni belə reallığa çevirən lider idi. Xüsusi vurğulamaq istərdim ki, azərbaycanlı gənclərin, o cümlədən ali təhsildə fərqlənən tələbələrin keçmiş SSRİ-nin bir sıra qabaqcıl universitetlərinə oxumağa göndərilməsi də Ulu Öndərin respublikada milli kadr potensialının formalaşdırılması istiqamətində atdığı mühüm addımlardan biri kimi xatırlanır. Azərbaycanın gələcəyi naminə uzaqgörənliklə əsası qoyulmuş bu ənənə milli elmi potensialın yüksəlməsinə, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsinə hesablanmışdı. Ümumiyyətlə, o dövrdə Heydər Əliyevin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikadan kənarda təhsil almağa göndərilmişdi.

Ümummilli Lider Heydər Əliyev 1982-ci ildən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildikdən sonra da gənclərin inkişafına, eləcə də ittifaq miqyaslı nəhəng layihələrin reallaşdırılmasına öz töhfələrini verirdi. Onların potensialından müxtəlif layihələrin, o cümlədən ittifaq üçün strateji əhəmiyyətli Baykal-Amur Magistralının (BAM) tikintisində istifadəni təmin edirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya aprel ayında reallaşan son rəsmi səfəri zamanı Rusiya Federasiyası Prezidenti Vladimir Putin o dövrün qeyri-adi, mürəkkəb dəmir yolu layihəsi olan BAM-ın inşasında Ulu Öndərin müstəsna xidmətlərini xüsusi vurğulayıb: **"Sovet İttifaqında çox nəhəng tikinti olan BAM Heydər Əliyevin adı ilə bağlıdır".**

Ulu Öndərin keçmiş ittifaq dövründə formalaşdırdığı uğurlu bünövrə üzərində 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası ilk illər dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan ağır sosial-mənəvi problemlərlə qarşılaşmışdı. Bu mərhələdə üzləşdiyimiz mürəkkəb proseslər təsdiqlədi ki, müstəqilliyi yalnız qətiyyətli liderlərin, xalqına bağlı rəhbərlərin yüksək idarəçilik səriştəsi sayəsində qoruyub saxlamaq olar.

1991-1993-cü illərdə ölkə iqtisadiyyatında tənəzzül prosesi dərinləşir, inflyasiyanın səviyyəsi günü-gündən yüksəlir, əhalinin sosial rifah halı pisləşir, ölkənin zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadə yönümündə səmərəli addımlar atılmırdı. Ölkə iqtisadiyyatında ümumi daxili məhsul hər il orta hesabla 16,5 faiz aşağı düşürdü. 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10, 1992-ci ildə 37, 1993-cü ildə 50 faizə qədər azalmışdı. Ölkə istehsal potensialının 23 faizini itirmiş, 1992-ci ildə inflyasiyanın səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artmışdı.

İqtisadi tənəzzülün sürətlənməsi nəticəsində həmin dövr inflyasiya özünün ən yüksək səviyyəsinə - hiperinflyasiya mərhələsinə qədəm qoymuşdu. İstehsalın kəskin şəkildə azalması, siyasi qeyri-sabitlik, müharibə, bazar elementlərinin kortəbii fəaliyyəti kimi iqtisadi proseslər və dövlət xərclərinin, əməkhaqqı səviyyəsinin bir neçə dəfə artırılması, maddi vəziyyyəti ağır olan sosial təbəqəyə güzəştlər, düşünülməmiş pul-kredit, vergi-büdcə, maliyyə-bank və xarici ticarət siyasəti tədbirləri dövlətin real iqtisadi imkanları ilə uzlaşmadığından inflyasiyanı daha da sürətləndirirdi.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə Naxçıvandan Bakıya qayıtması və Ali Məclisin Sədri seçilməsi onun sadəcə, hakimiyyətə qayıdışı deyil, eyni zamanda ölkənin xaosdan qurtulması, davamlı inkişaf yoluna qədəm qoyması prosesinin başlanğıcı oldu. Böyük strateq məhz bu mərhələdən müstəqilliyi BMT tərəfindən hüquqi baxımdan tanınmış Azərbaycan dövlətçiliyini faktiki olaraq qurmağa, onun milli dövlətçilik atributlarını formalaşdırmağa başladı. Bütün səylərini səfərbər edərək Azərbaycanın dövlət müstəqilliyini, sadəcə, şərti müstəqillik aktı və bəyanatlar səviyyəsindən çıxarmağa nail oldu.

Ulu Öndər Heydər Əliyevin lider kimi gücü və qüdrəti həm də ideyalarını praktikada reallaşdırmaq imkanları ilə şərtlənirdi. Bu mənada Ümummilli Lider müstəqil Azərbaycanı davamlı və sabit inkişaf yoluna çıxaran mütərəqqi iqtisadi modelin banisi kimi də ehtiramla xatırlanır. Yeni iqtisadi inkişaf modeli irəli sürülərkən mövcud dünya təcrübəsi heç də Azərbaycana köçürülmədi, respublikanın zəngin təbii resursları, Şərqlə Qərbi qovuşduran əlverişli coğrafi-siyasi mövqeyi, tranzit-kommunikasiya imkanları, tarixi təsərrüfatçılıq ənənələri, spesifik xüsusiyyətləri nəzərə alındı.

Böyük strateq Heydər Əliyevin siyasi uzaqgörənliyinin və qətiyyətinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına yeni təkan verdi. "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bügünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son illərdə daha böyük uğurlar gətirən bu strategiyanın əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə prinsipinə əsaslanır. Bu müqavilə dünyada miqyasca ən böyük enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, respublikamızın ciddi elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyasının gerçəkləşməsinə imkan yaratdı. Dayanıqlı siyasi sabitliyə, iqtisadi və milli təhlükəsizlik maraqlarının beynəlxalq səviyyədə təminatına real zəmin formalaşdırdı.

Sosialyönümlülük prinsipini daim əsas götürən Heydər Əliyevin bu istiqamətdə qabaqcıl dünya təcrübəsinə cavab verən, eyni zamanda ölkə və cəmiyyət reallıqlarını nəzərə alan məqsədyönlü siyasəti cəmiyyətdə özünü göstərən ziddiyyətlərin aradan qaldırılmasına rəvac verdi. Bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyən edən Ümummilli Liderin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhəti xüsusi olaraq diqqət cəlb edirdi. Bunlardan birincisi, sosial siyasətin dayanıqlı xarakter daşıması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi, onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsi idi. Ümumilikdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni iqtisadi şəraitə uyğun olaraq ölkədə formalaşan sosial müdafiə modeli cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onların sosial müdafiəsinə, layiqli həyat səviyyəsinin təmin edilməsinə, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanlar yaradılmasına xidmət edirdi. Ümummilli Lider Heydər Əliyevin 1994-cü il 15 iyun tarixli "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında", 1994-cü il 24 oktyabr tarixli "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamları bilavasitə insanların sosial müdafiəsinin daha etibarlı şəkildə qorunmasına yönəlmişdi.

1995-ci ildən Azərbaycan iqtisadiyyatının dirçəlməsi sahəsində görülmüş ardıcıl işlər nəticəsində əhalinin gəlirləri tədricən artmağa başladı. 2003-cü ilədək ölkədə orta aylıq real əməkhaqqı 5,1, pensiyalar 5,1, orta aylıq nominal əməkhaqqı 6 dəfədən çox artdı, habelə əhalinin rifahının yaxşılaşdırılması sahəsində ardıcıl proqramlar icra olundu.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı nəzərə alan Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Bunun nəticəsidir ki, 1995-2003-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradıldı. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirildi.

1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı oldu, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirdi. Dövlət proqramında ilk dəfə olaraq milli sahibkarlığın stimullaşdırılması və onun dövlət maliyyə təminatı mexanizmlərinin formalaşdırılması, daxili bazarın qorunması yolu ilə istehsal sahibkarlığının inkişaf etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması ilə bağlı kompleks tədbirlər planı əksini tapdı. Proqram çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində sahibkarlıq subyektlərində əsassız yoxlamaların aparılması qadağan edildi, iş adamlarının fəaliyyətinə əngəl yaradan problemlərin aradan qaldırılması yolları göstərildi.

Ümummilli Lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında" və 28 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanlarında dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında dərin kök salmış və həllini gözləyən bir sıra ciddi problemlər tam açıqlığı ilə göstərildi, onların qarşısının alınması üçün kompleks islahatlar aparıldı. Bütün bu tədbirlərin nəticəsi kimi 1996-2003-cü illərdə Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində dinamik inkişaf və tərəqqi təmin edildi, milli sahibkarlar ordusu formalaşdı, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 1994-cü idəki 29 faizdən 75 faizə yüksəldi.

Dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması məsələsinə xüsusi diqqət yetirən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması özəl sektora dəstək istiqamətində mühüm addımlardan biri idi. Şuranın əsas məqsədi Azərbaycanda sahibkarlığın inkişafına nail olmaq, sahibkarların dövlət başçısının yürütdüyü siyasətin həyata keçirilməsində səmərəli, fəal iştirakını istiqamətləndirmək, bu yolda mövcud olan problemləri araşdırmaq və onların həlli üçün təkliflər verməkdir.

2003-cü ildən Heydər Əliyev siyasi kursunu inamla davam etdirən dövlət başçısı İlham Əliyev ötən 21 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirdi, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi. Ötən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız son illərdə dünyanın sürətli inkişaf yolunda olan dövlətlərindən biri kimi tanınır.

Ümummilli Liderin uzaq hədəflərə hesablanmış siyasətini, ordu quruculuğu strategiyasını davam etdirməklə xalqımızın dərin mənəvi-siyasi dəstəyini qazanan Prezident İlham Əliyev bu gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminatçısıdır. Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad edilməsi kimi ağrılı və çətin missiyanı ilk gündən üzərinə götürərək "güclü ordu - güclü dövlət" konsepsiyasının fundamental bazisi olan yeni iqtisadiyyat quruculuğunu daim xüsusi diqqətdə saxlayır. Zəngin iqtisadi potensialımız "yumşaq güc" amili kimi Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlar, transmilli şirkətlər, inkişaf etmiş ölkələrlə iqtisadi-siyasi münasibətlərinin dərinləşməsində mühüm rol oynayır.

İqtisadiyyatın ildən-ilə güclənməsi, uğurlu neft-qaz strategiyası diplomatiyanın fundamental sütunu kimi çıxış edərək, ölkəmizin beynəlxalq arenada mövqelərini möhkəmləndirir. Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən Azərbaycan qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsızlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəbbüskarlarından biridir. İştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən hesab edilən COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu da ölkəmizin alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir. Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin, Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması bu sahədə aparılan məqsədyönlü, ardıcıl dövlət siyasətinin təzahürüdür.

Azərbaycanın dünyada böyük nüfuz sahibinə çevrilməsi bütün sahələrdə ölkəmizə məğlub olmuş Ermənistanı sülh istiqamətində real addımlar atmağa məcbur edir. Aprelin 19-da iki ölkə arasında delimitasiya prosesinin başlanması barədə əldə olunmuş tarixi razılaşma, işğal altında olan 4 kəndin ölkəmizin nəzarətinə keçməsi, eləcə də Rusiya sülhməramlı qüvvələrinin vaxtından əvvəl Qarabağdan çıxmaları mühüm siyasi hadisələr kimi hər bir vətəndaşımızı sevindirir.

Vətən müharibəsindəki Zəfərdən sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin Cənubi Qafqaz regionunda ən abad, müasir zonaya çevriləcəyini bəyan edib. Qısa zamanda regionda mühüm infrastruktur layihələrinin icra edilməsi, o cümlədən yeni yolların çəkilməsi, Füzuli, Zəngilan və Laçında hava limanlarının inşası, dəmir yollarının bərpasına başlanılması, "ağıllı kənd", "ağıllı şəhər", "yaşıl enerji" kimi innovativ layihələrin icrası, azad edilmiş ərazilərə köçün başlaması və digər tədbirlər dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurun bərpasına, yenidən qurulmasına həssas münasibətinin göstəricisidir.

Şübhəsiz, 30 ilə yaxın müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən iqtisadi təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaqdır. Görülən işlər deməyə əsas verir ki, yaxın illərdə işğaldan azad edilmiş ərazilərdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, həyata keçirilən quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını möhkəmləndirəcək, Azərbaycanın inkişafında yeni mühüm mərhələ açacaqdır.

*Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan mütərəqqi ideya və siyasi baxışlarını, gələcəyə hesablanmış planlarını son 21 ildə praktik şəkildə gerçəkləşdirən Prezident İlham Əliyev Azərbaycanda inqilabi xarakterli islahat və yeniliklərə müəlliflik edir. Dövlətimizin başçısı ölkəmizin davamlı inkişafı naminə qarşıda müəyyənləşdirdiyi strateji hədəfləri inamla gerçəkləşdirmək, Azərbaycanı müasir və inkişaf etmiş dövlətə çevirmək əzmi nümayiş etdirir. Ölkəmizin hər bir vətəndaşı kimi, iş adamları da Prezident İlham Əliyevin yürütdüyü bu siyasəti ürəkdən dəstəkləyir, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli maraqlarımızla bağlı bütün məsələlərin uğurla həll olunacağına ürəkdən inanırlar.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***

# BTC-nin müəllifi və xilaskarı

## Kəmərin tikintisinin maliyyələşməsi Ulu Öndərin dünyadakı nüfuzu sayəsində mümkün oldu



"Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür". Bu sözləri Ulu Öndər Heydər Əliyev 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməlqoyma mərasimində demişdi. Ümummilli Lider tərəfindən gələcəyə hesablanaraq görülən qlobal işlərdən biri də məhz elə BTC-nin çəkilişi idi.

Keçən əsrin 90-cı illərinin ikinci yarısında "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatı artdıqca mövcud olan Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Sazış Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Bundan əvvəl "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə onun baş tutmasına mane olmaq istəyənlər yenidən baş qaldırmışdılar. Bu dəfə hədəfdə BTC idi. Sonralar Ulu Öndər bunu belə xatırlayırdı: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutunun seçilməsinə müxtəlif maneçiliklər törədildi. Biz şübhə etmirdik ki, bu kəmər Gürcüstandan keçməlidir. Şübhə etmirdik ki, bu böyük neft kəməri məhz Türkiyəyə getməlidir. Xəzərin nefti Türkiyənin Ceyhan limanı vasitəsilə dünya bazarına çıxmalıdır. Amma bəziləri hesab edirdilər ki, kəmər başqa ölkələrdən keçə bilər. Yəni artıq Azərbaycanda, Xəzərin Azərbaycan sektorunda neftin hasil olunmasının reallığını görəndə bəziləri hesab edirdilər ki, bu neft borusu Cənuba gedə bilər, yaxud Şimala gedə bilər, Şərqə gedə bilər. Müxtəlif belə fikirlər, müxtəlif iddialar var idi və getdikcə bunlar güclənirdi. Ancaq biz öz qərarımızda qəti idik. Əvvəldən də biz bunu elan etmişdik ki, kəmər yalnız bu marşrut ilə keçəcəkdir. Bu barədə Azərbaycan, Gürcüstan, Türkiyə arasında qəti razılıq əldə edilmişdi. Demək istəyirəm ki, biz bu layihəni başlayandan indiyə qədər Amerika Birləşmiş Ştatları onun həyata keçirilməsinə çox böyük diqqət, qayğı göstərmişdir, bu işi himayə etmişdir. Əgər Amerika Birləşmiş Ştatlarının layihəyə bu qədər dəstəyi olmasaydı, biz bunu həyata keçirə bilməzdik".

Bundan üç il sonra isə kəmərin təməli qoyuldu. Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-nin energetika naziri, layihənin tərəfdaşları olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri Səngəçalda idilər. Deməli, Bakı-Tbilisi-Ceyhan reallığa çevrilirdi. Artıq işə başlanmışdı, Azərbaycana və Gürcüstana - tikinti aparılacaq ərazilərə xaricdən alınan borular gətirilirdi.

Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən baş qaldırdılar. Yəni onlar tikintinin təməli qoyulandan sonra da rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün növbəti səbəblər uydururdular. Bu dəfə kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Bu da layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirirdi. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər. Gürcüstan Respublikası dövlətinin və hökumətinin layihəni dəstəklədiyi, artıq işlərə start verildiyi bu məqamda sözügedən məsələ müəmma doğururdu. Demə, burada da erməni "əli" varmış.

O zaman AŞPA-nın sədr müavini olan İlham Əliyev məsələnin nədən və haradan qaynaqlandığını açıqladı. Belə ki, ermənilər BTC-nin reallaşma mərhələsinə qədəm qoyduğundan narahat olub internetdə sayt açmışdılar və Beynəlxalq Maliyyə Korporasiyasına, Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına layihə haqqında əks məlumat göndərirdilər. Onların əsas məqsədi Gürcüstanda kəmərin keçdiyi ərazilərdə gərginlik yaratmaq və bununla marşrutun dəyişdirilməsinə nail olmaq idi. "Borjomi" söhbətini ortaya atmaqla kəmərin yolunun Gürcüstanın əsasən ermənilər yaşayan Axalkalaki rayonundan keçməsinin mümkün olacağını güman edirdilər.

2003-cü ilin mart ayında ermənilər ABŞ-də BTC-yə böhtan atıb onu gözdən salmaq üçün konfrans keçirməyə hazırlaşırlar. Konfransa onları dəstəkləyən müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələrini dəvət edirlər. Bu, BTC əleyhinə kampaniyanın yeni mərhələsinin başlanması demək idi. Xaricdə yaşayan erməni diasporu həmin kampaniyaya açıq şəkildə hərtərəfli dəstək verirdi. Təbii ki, qarşıda layihənin maliyyələşdirilməsi məsələsinin dayandığı bir məqamda belə hallar təhlükəli idi.

Lakin Ümummilli Lider layihənin həyata keçirilməsinin bütün mərhələlərində "BTC olacaq, olacaq, olacaqdir!" deyirdi. Bu baxımdan 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında şəxsən iştirak etməyi qərara alması da təsadüfi deyildi. Tədbirin keçirildiyi günlərdə Heydər Əliyev ABŞ-nin Prezidenti Corc Buş, Vitse-prezident Riçard Ceyni, ticarət naziri Donald Evants, energetika naziri Spenser Abraham ilə görüşdü. "Mübarizəmiz davam edəcək və biz istəyimizə nail olacağıq!" - bütün söhbətlərin başlıca məzmunu bu idi.

Tədbirin keçirildiyi günlərdə Azərbaycanın, Gürcüstanın və Türkiyənin səlahiyyətli nümayəndələri, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbəri Beynəlxalq Maliyyə Korporasiyasında oldular. BTC-nin maliyyələşdirilməsinə dair fikir mübadiləsi aparıldı. Sonra Ulu Öndər korporasiyanın rəhbəri Piter Voykeni qəbul etdi. Layihədə bu beynəlxalq maliyyə qurumunun imkanlarından istifadə imkanları müzakirə olundu. P.Voyke bildirdi ki, korporasiyanın məqsədi yalnız bir kəmərin layihəsinin maliyyələşməsində deyil, regionda həyata keçirilən digər layihələrdə də fəal iştirak etməkdir.

Beləliklə, Heydər Əliyev dünyadakı hörmət və nüfuzu ilə BTC-ni bu dəfə də çətinlikdən çıxardı.

BTC qalib gəldi! Azərbaycanın bədxahları yenə də məqsədlərinə çatmadılar. Ümummilli Liderin daha bir şah əsəri tarixdə özünə yer aldı. Belə ki, 2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan " sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı.

Bu gün BTC təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər Azərbaycana və ərazisindən keçdiyi ölkələrə birbaşa gəlirlər gətirməklə yanaşı, marşrut boyu yerləşən yaşayış məntəqələrinin icmalarına sosial sərmayələri ilə də gəlirlər gətirir.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Başqa sözlə, Ümummilli Lider Heydər Əliyev bu nəhəng qurğunun təməlini qoydu, Prezident İlham Əliyev onu möhtəşəm dəhlizlərə qovuşdurdu. Dövlətimizin başçısının dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

*Flora SADIQLI, "Azərbaycan"*

# Moskvada Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş tədbir keçirilib

**Azərbaycanın Rusiyadakı səfirliyi Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəliyi ilə birgə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş xatirə gecəsi təşkil edib.**









AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Dumasının deputatları, diplomatik nümayəndəliklərin rəhbərləri, Rusiyanın tanınmış ictimai xadimləri, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin əməkdaşları, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) fəalları və Azərbaycan diasporunun görkəmli nümayəndələri iştirak ediblər.

Tədbirin qonaqları 1984-cü ildə Baykal-Amur Magistralına səfəri zamanı Heydər Əliyevi müşayiət edən "Vostoçno-Sibirskaya Pravda" qəzetinin əməkdaşı Valeri Karasyovun çəkdiyi fotolardan ibarət sərgi ilə tanış olublar. Ust-Kutdan Sakit okeana qədər bütün yolboyu Karasyov Ulu Öndər Heydər Əliyevin BAM-ın yerli rəhbərliyi və qəhrəmanları ilə görüşlərini lentə alıb. Həmin səfərdən bəhs edən fotomaterialları - 1600 şəkli - fotomüxbir Azərbaycanın Rusiyadakı səfirliyinə hədiyyə edib. Bu fotoşəkillərin bir hissəsi tədbirdə təqdim edilib.

Tədbiri açan Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy qeyd edib ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev 1990-cı illərin birinci yarısında baş vermiş iğtişaşlar dövründə ölkəni xilas edib.

"O, bütün Sovet İttifaqı üçün çox işlər görüb. Onun SSRİ hökuməti sədrinin birinci müavini, ondan əvvəl Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, sonra isə ölkə lideri kimi fəaliyyəti çox böyük əhəmiyyət kəsb edirdi", - deyə Şvıdkoy bildirib.

"Mən bu gün onun formalaşmasının bəzi mərhələlərini və əlbəttə ki, Naxçıvan Məclisinin sədri olduğu zaman onun Naxçıvana qayıtması, Azərbaycanın dağıldığı bir vəziyyətdə necə siyasət qurması, ölkədə baş verən üsyanlara necə müqavimət göstərməsini izlədim, oxudum, xatırladım. Bu, onun böyük daxili gücündən və bütün bunların nə üçün edildiyini dərk etməsindən xəbər verir. Bu isə Azərbaycanın çiçəklənməsi naminə edilirdi. Əsası Heydər Əlirza oğlu tərəfindən qoyulan işlər bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən gerçəkləşdirilir", - deyə Şvıdkoy qeyd edib.

O əlavə edib ki, müasir Azərbaycan öz ölkəsinin maraqlarına uyğun müstəqil siyasət aparır.

"Bu da Heydər Əliyevin düzgün təməl qoyduğunun təsdiqidir", - deyə Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi vurğulayıb.

Rusiya Liberal Demokrat Partiyasının sədri, Dövlət Dumasının deputatı Leonid Slutski çıxışında müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinin Rusiyada da dərin ehtiramla anıldığını qeyd edib.

"Heydər Əlirza oğlu iqtisadiyyatın ən mühüm, elmtutumlu sahələrinə nəzarət etməklə Sovet İttifaqındakı yüksək dövlət postunda da çox işlər görüb. Bu günlərdə 50 illiyini qeyd etdiyimiz Baykal-Amur Magistralının tikintisi Heydər Əliyevin adı ilə ayrılmaz şəkildə bağlıdır. Prezident İlham Əliyevin bu yaxınlarda Moskvaya səfəri, o cümlədən BAM-ın 50 illiyi münasibətilə keçirilən bayramlarla bağlı olub", - deyə Slutski bildirib.

Siyasətçi vurğulayıb ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev dahi atasının işini layiqincə davam etdirir. "Azərbaycan postsovet məkanında ən çiçəklənən, sabit iqtisadiyyatı olan ölkəyə çevrilib. Yoxsulluqla mübarizə proqramı uğurla icra edilib, Azərbaycan enerji nöqteyi-nəzərdən müstəqil dövlətə çevrilib", - deyə o, əlavə edib.

"Dahi atasının ən vacib nəsihətlərindən birini yerinə yetirən İlham Heydər oğlu Qarabağı azad edib. Bu, Heydər Əlirza oğlunun rəhbərliyi ilə, indiki Prezident İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının bütün bu illər ərzində nail olmaq istədiyi nəticə, bütün bu postsovet illərinin müqəddəs və nəcib yekunudur", - deyə Slutski bildirib.

Deputat qeyd edib ki, Azərbaycan bu gün Rusiyanın ən etibarlı tərəfdaşıdır.

"Heydər Əliyev Azərbaycan ilə Rusiya arasında konstruktiv, çoxşaxəli qarşılıqlı fəaliyyətin əsasını qoyub. Azərbaycan ən yaxın vaxtlarda hələ böyük uğurlara nail olacaq. O, artıq böyük nailiyyətlər əldə edib. Bu, Azərbaycan xalqının davamlı, əziyyətli əməyinin nəticəsidir. Mən qardaş Azərbaycan xalqına, Azərbaycanın Prezidenti İlham Əliyevə davamlı firavanlıq arzu edirəm", - deyə Slutski vurğulayıb.

Mərasimdə TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın "İlham Əliyev. And: 20 il sonra" sənədli filmi nümayiş olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

# Heydər Əliyev Fondu Samuxda yeni körpələr evi - uşaq bağçası inşa etdirib









**Heydər Əliyev Fondu tərəfindən Samux şəhərində 80 yerlik yeni uşaq bağçası - körpələr evi inşa etdirib.**

AZƏRTAC xəbər verir ki, Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev, Heydər Əliyev Fondunun əməkdaşı Cəmil Əliyev, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev və təhsil işçiləri uşaq bağçasının açılışında iştirak edib, burada yaradılan şəraitlə tanış olublar. İkimərtəbəli bir korpusdan ibarət bağça zəruri mebel və avadanlıqla təchiz edilib. Binada metodika otağı, oyun zalı, yeməkxanalar, yataq otaqları, həkim otağı, musiqi və idman zalları və s. yaradılıb.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, oyun meydançası salınıb.








# Heydər Əliyevin arzularındakı Qarabağ

**"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".**

**Heydər ƏLİYEV,**
**20 mart 1998-ci il**



**"Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik".**

**İlham ƏLİYEV,**
**10 may 2023-cü il**

**Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin 25 illik vaxt aralığı ilə böyük inam və qürurla söylədiklərindən gətirdiyimiz bu nümunələrdən də göründüyü kimi, Azərbaycan xalqı milli hədəflərinə doğru qət etdiyi birqərinəlik çətin, sınaq və məsuliyyətlərlə dolu uzun yolu Zəfər zirvəsinə yetirib. Üçrəngli, ay-ulduzlu bayrağını Qarabağ və Şərqi Zəngəzurun ən uca zirvələrində, Şuşada, Xocalıda, Xankəndidə dalğalandıraraq milli mücadiləsini məntiqi sonluğuna çatdırıb.**

Bu gün Qarabağ və Şərqi Zəngəzur dünyada misli bərabərinə rastlanmayan quruculuq meydanına çevrilib. Bir yanda yollar çəkilir, körpülər salınır, hava limanları tikilib istifadəyə verilir. Bir yanda da müasir yaşayış məskənləri salınır, qayıdış karvanları ilə yurdlarına dönən keçmiş məcburi köçkünlərimiz isti od-ocaqlarına qovuşdurulur. O torpaqlarda doğulan körpələrin hayqırtıları bir daha dünyaya "Qarabağ Azərbaycandır!" ismarışı verir.

Bütün bunlar isə Azərbaycan xalqının, dövlətinin dahi xilaskarı Ulu Öndər Heydər Əliyevin vaxtilə cani-könüldən dilədiyi Qarabağ, Şərqi Zəngəzur arzularının çin olduğu müqəddəs məqamdır.

## Azərbaycançılıq, milli ruh

Vaxtilə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyev tərəfindən qətiyyətlə əldə olunan bu milli qalibiyyətlərə yetməyimizə qədər isə xeyli mübarizələr aparmalı, çətinliklərlə savaşmalı olmuşduq.

İllər boyu Azərbaycan torpaqlarına ərazi iddiası ilə çıxış edən ermənilər 1980-ci illərin sonunda bu mənfur niyyətlərini açıq müstəviyə keçirərək sərsəm "Miatsum" ideyasını gerçəkləşdirməyə, azərbaycanlılara qarşı deportasiyaya, qətliama, soyqırımına başladılar. Çünki Azərbaycanın milli maraqlarını qətiyyətlə, böyük səylə qoruyan sədd - Ulu Öndər Heydər Əliyev məkrli yollarla hakimiyyətdən uzaqlaşdırılmış, bununla da ərazilərimizə göz dikən ermənilərin, separatçıların əl-qolu açılmış, Qarabağda at oynatmağa başlamışdılar.

Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu illərdə respublikanın inkişafı üçün böyük işlərə imza atan Heydər Əliyevin qəlbində Qarabağın ayrıca yeri var idi. Dahi siyasətçi yaxşı bilirdi ki, ölkəmizin bu dilbər guşəsi məqsədyönlü şəkildə diqqətdən kənarda saxlanılır, inkişafına səy göstərilmir, bir növ nəzərdən salınır və xalqımızdan qoparılmaq istənilirdi. Amma bu mənfur niyyətlərin gerçəkləşməməsi üçün vətənpərvər şəxsiyyət Heydər Əliyev əlindən gələn hər şeyi edirdi ki, Qarabağ bölgəsi hərtərəfli inkişaf etsin və bunun üçün real işlər həyata keçirirdi.

1976-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün Sərsəng, Suqovuşan su anbarları inşa edilmişdi. Ağdamdan Xankəndiyə dəmir yolu çəkilmiş, Xankəndidə ali məktəb yaradılmışdı. Ümumiyyətlə, Xankəndidə sosial obyektlərin, yaşayış binalarının əksəriyyəti Heydər Əliyevin rəhbərliyi dövründə tikilmişdi.

Xüsusi vurğulanası mühüm məqamlardan biri isə Heydər Əliyevin o illərdəki hakimiyyəti dövründə Qarabağda erməni millətçilərinin səslərini belə çıxarmağa cürət edə bilməmələri idi.

2023-cü ildə Xankəndidə Azərbaycan bayrağını ucaldan zaman Prezident İlham Əliyev söylədi ki, xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi: "1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi".

Qarabağın tarixinə, mədəniyyətinə, incəsənətinə, iqtisadiyyatının yüksəlməsinə xüsusi diqqət yetirən Ulu Öndər Şuşanın inkişafına da çox böyük qayğı göstərir, Azərbaycanın qədim mədəniyyət mərkəzi olan bu şəhərə zəngin tarixi abidə, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxır və bunu dilə gətirirdi.

1970-ci illərdə Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə xüsusi qərarlar qəbul edilmişdi. Qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana, ayrı-ayrı inzibati binalar tikilmişdi. Qarabağın baş tacı Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. O zamanlar Sovet İttifaqının çox yerlərindən insanlar Şuşaya dincəlməyə gəlir, burada Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə də yaxından tanış olurdular.

Şuşanın mədəni ruhunun da dirçəldilməsinə xüsusi önəm verən Ulu Öndərin göstərişi ilə 1980-1981-ci ildə Vaqifin məzarı üzərində möhtəşəm abidə, türbə ucaldılmışdı. Vaqifin möhtəşəm abidəsinin təntənəli açılışı isə 1982-ci il yanvarın 14-də olmuş və Ümummilli Lider ailəsi, Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə birlikdə burada iştirak etmişdi. Bir ildə ikinci dəfə, 1982-ci ilin avqustunda da Şuşaya gələn Heydər Əliyevin iştirakı ilə şair Xurşidbanu Natəvanın abidəsinin açılışı olmuşdu.

Şuşa Heydər Əliyev üçün həm də azərbaycançılığın, milli ruhun, tarixi, mənəvi dəyərlərin çuğlaşdığı məkan idi və o özü bu barədə demişdi: "Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar".

## Qurtuluş

1987-ci ildə Heydər Əliyevin siyasi hakimiyyətdən getməsi ilə Azərbayan xalqının faciələri başladı, olmazın müsibətlərlə rastlaşdıq. Bu fürsətdən istifadə edən erməni millətçiləri sovet iqtidarının mərkəzi idarəetmə orqanlarında olan himayədarlarının köməyi ilə Qarabağı Azərbaycandan qoparmaq üçün mənfur iddialarını qaldırdılar. Gerçəklikdir ki, əgər o zaman Ulu Öndər hakimiyyətdə olsaydı, düşmənlərimiz buna qətiyyən cürət edə bilməzdilər. Amma Azərbaycanda antimilli qüvvələrin, siyasi səriştəsizlərin hakimiyyətdə olması erməni millətçilərini daha da azğınlaşdırdı və xalqımız soyqırımlarına, işğala məruz qaldı. AXC-Müsavat cütlüyünün milli xəyanəti nəticəsində Şuşa işğala məruz qaldı, ardınca Laçın, Kəlbəcər rayonları və digər rayonlarımız da təcavüz nəticəsində nəzarətimizdən çıxdı.

Bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üzləşən, əraziləri qəsb olunan Azərbaycan parçalanma, dövlət olaraq yoxolma qarşısında qaldı. Həmin ümidsiz günlərdə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ölkəmizdə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın qurtuluşu oldu.

Ulu Öndər Heydər Əliyev 1994-cü ildə atəşkəs razılaşmasına nail oldu. Hakimiyyətdə olduğu 10 il ərzində titan siyasətçi Qarabağ probleminin siyasi gündəlikdən düşməsinə imkan vermədi. Etdiyi bütün xarici səfərlərdə, çıxış etdiyi bütün mötəbər tribunalarda Azərbaycanın üzləşdiyi işğalı, qaçqın və məcburi köçkün problemlərini dünyaya çatdırdı, BMT TŞ-nin qəbul etdiyi 4 qətnamənin qeyd-şərtsiz yerinə yetirilməsini tələb etdi.

## Böyük inam

Ulu Öndər Heydər Əliyev torpaqlarımız işğaldan azad edilənə qədər ölkə daxilində qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, onların yaşayış şəraitlərinin yaxşılaşdırılması istiqamətində mühüm işlər gerçəkləşdirdi. O, hakimiyyətə gəldiyi ilk vaxtlardan qaçqın və məcburi köçkünlərimizin problemlərinin həllini dövlətin əsas siyasətinə çevirdi.

"Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir", - deyə Ümummilli Lider bu insanlarımızla bağlı fikirlərini ürək ağrısı ilə belə ifadə etmişdi. Hər zaman xalqının yanında olan Heydər Əliyev dəfələrlə çadır şəhərciklərinə yollanır, orada yaşayan insanların şəraitləri ilə şəxsən tanış olur, onlarla səmimi ünsiyyət qurur, problemlərinin həllinə çalışırdı.

Ulu Öndərin çadır şəhərciklərinə gəlməsi, məcburi köçkünlərlə görüşməsi, onlara mənəvi arxa durması bu insanlara böyük sevinc bəxş etməklə yanaşı, Vətənə qayıdış ümidlərini də sönməyə qoymurdu, əksinə, onlarda dərin inam, nikbinlik yaradırdı.

Heydər Əliyev bütün nitqlərində, çıxışlarında hər zaman bir gün mütləq işğal altındakı torpaqlarımızın azad olunacağına və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıdacağına əminliyini bildirirdi.

Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə əsasını qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsait də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldi, eləcə də onların acınacaqlı vəziyyətdə yaşamağa məcbur olduğu çadır düşərgələrinin ləğvinə başlanıldı.

1994-cü ildə Heydər Əliyevin Ali Baş Komandanlığı altında aparılan uğurlu Horadiz əməliyyatı sayəsində torpaqlarımızın bir qisminin işğaldan azad olunması və Böyük qayıdışa illər əvvəl uğurlu start verilməsi ilə düşmən tapdağında olan digər ərazilərimizin də azadlığının və insanlarımızın dədə-baba yurdlarına qayıdışının tezliklə gerçəkləşdiriləcəyinin ilk müjdəsi verildi.

## Ulu Öndərin yolu

Ötən 20 il ərzində Heydər Əliyev siyasi yolunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı hərtərəfli inkişaf mərhələsnə yüksəltdi, dünyanın sayılıb-seçilən ölkəsinə çevirdi. Xüsusilə ordu quruculuğunda mühüm irəliləyişlər əldə edildi, Silahlı Qüvvələrimizin arsenalı müasir silah və sursatlarla, hərbi texnika ilə zənginləşdirildi, peşəkar hərbi kadrların yetişdirilməsinə xüsusi önəm verildi. Eyni zamanda gənclərimizin vətənpərvər ruhda böyüməsi milli məqsəd kimi qarşıya qoyuldu.

Çünki onilliklər boyu davam edən sülh danışıqları dalana dirənmişdi və problemin sülh yolu ilə çözülməyəcəyi Ermənistanın xarici havadarlarına güvənərək ölkəmizə qarşı hərbi təxribatlarını intensivləşdirməsinin fonunda da aydın görünürdü.

2016-cı ilin aprelində rəşadətli Azərbaycan Ordusu Ermənistan tərəfinin növbəti təxribatından sonra Lələtəpə yüksəkliyini azad edərək tezliklə işğal altndakı torpaqlarımızın hamısının azad olunacağına böyük inam yaratdı. Cocuq Mərcanlıya qayıdış köçü həyata keçirildi.

2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun çıxdığı haqq yürüşü cəmi 44 günə Zəfərlə nəticələndi, bayrağımız vətən qibləmiz Şuşada dalğalandırıldı.

Parlaq zəfərlə bitən Vətən müharibəsindən dərhal sonra isə 30 il ərzində erməni barbarlarının daşı daş üstündə qoymadığı yurd yerlərimizdə tikinti-quruculuq işlərinə başlanıldı, bu yerlərdə həyat yenidən məcrasına qayıtdı. İndi müasir infrastrukturun qurulduğu, "ağıllı kənd və şəhərlər"imizin salındığı Qarabağ və Şərqi Zəngəzur nəhəng tunellərin çəkildiyi, dünya miqyaslı dəhlizlərin salındığı, beynəlxalq hava limanlarının tikildiyi, meqalayihələrin gerçəkləşdirildiyi möhtəşəm məkana çevrilib.

İşğaldan azad edilən torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Dövlət başçısı mütəmadi olaraq azad edilən ərazilərə yollanaraq görülən işlərlə yerindəcə tanış olur, yeni-yeni açılışlar edir, bünövrələr qoyur. Artıq Tərtərin Talış, Laçının Zabux, Zəngilanın Ağalı kəndləri, eləcə də Füzuli və Laçın şəhərlərinə Böyük qayıdış karvanları ilə öz sakinləri dönərək xoşbəxt yaşama başlayıblar.

2020-ci ilin Vətən müharibəsində qazanılan zəfərin möhtəşəm nəticəsi olaraq 2023-cü ilin payızında suverenliyimizin tam bərpası, Xankəndidə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan bayrağının dalğalandırılması parlaq Zəfərimizin üçüncü ildönümünə ən böyük töhfə, həm də Ulu Öndər Heydər Əliyevin 100 illiyinə möhtəşəm ərmağan oldu. "Dəmir yumruq" Qarabağda separatizmin kökünü kəsdi, sərsəm "Miatsum" ideyası tarixin zibilliyinə gömüldü.

"Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub", - deyə oktyabrın 15-də Xankəndidə bayrağımızı ucaldan zaman Prezident İlham Əliyev bir daha vurğuladı ki, Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmaq böyük rəmzi məna daşıyır.

*Milli mənafelərimizin təmini istiqamətində ardıcıl qələbələr qazanan Qalib Lider İlham Əliyev 2020-ci il Şuşa, 2023-cü il Xankəndi zəfərləri ilə həm də bir oğul kimi ata vəsiyyətini layiqincə yerinə yetirdi.*

*İndi Qarabağ da, Şərqi Zəngəzur da Ulu Öndərin, dünyanın ən böyük azərbaycanlısının arzularındakı kimidir: çayları, bulaqları çağlayır, meşələri pöhrələyir, evlərində çıraqlar yanır, bir sözlə, dədə-baba torpaqlarımızdan doğma hənir gəlir.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Heydər Əliyev Fondu

## 2004 Xeyirxahlıq və mərhəmət ünvanı 2024

# Heydər Əliyevin ideyaları işığında

**Ölkələrin, xalqların taleyində mühüm rol oynayan böyük şəxsiyyətlərə ən dərin ehtiram nümunəsi onların ideyalarının davam etdirilməsi, tarixi missiyalarının real əməllərdə yaşadılmasıdır. Ümummilli Lider Heydər Əliyevin amalları işığında 20 il əvvəl - 2004-cü il mayın 10-da yaradılmış Heydər Əliyev Fondu da bunun bütün dünyadakı mükəmməl örnəyidir.**

### İşıqlı məramlar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış fond 20 il ərzində respublikamızda və ölkə hüdudlarından kənarda həyata keçirdiyi layihələrlə insanlığa mühüm töhfələr vermiş, böyük ictimai etimad qazanmışdır.

Ümummilli Liderin zəngin mənəvi-siyasi irsinin öyrənilməsi, bu böyük dövlət adamının ideyalarının nəsillərdən-nəsillərə ötürülməsi məramı ilə yaradılmış fond Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, vətəndaşlarımızın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasəti öyrənərək təbliğ edir. Amma fəaliyyəti təkcə bununla da məhdudlaşmır, bu ideyaların həm də davam etdirilməsinə, müasir dünyamızın çağırışlarına uyğun real layihələrlə Azərbaycan və ümumilikdə bəşəriyyət üçün faydalar yaratmasına nail olur. Nüfuzlu qurum Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəcib əməllərin parlaq salnaməsini yazır.

Hər bir insanın həyatda yaşam fəlsəfəsinin olduğunu deyən fondun prezidenti Mehriban xanım Əliyevanın fikrincə, heç də vacib deyil ki, kimsə bu fəlsəfəni sözlərlə izah etsin. Bu həyat fəlsəfəsi istər-istəməz onun hərəkətlərində, əməllərində özünü büruzə verəcəkdir. Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsinin əsasında isə çox sadə bir ideya, əməl durur: insanlara yaxşılıq! Azərbaycanın birinci xanımı haqlı olaraq hesab edir ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

Heydər Əliyev Fondu bu illər ərzində ölkəmizdə və dünyada genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək göstərməkdədir. Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr bu prosesdə mühüm yer tutur. Fond həm Azərbaycanın, həm də müxtəlif xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini ildən-ilə genişləndirir. Elmi tədqiqatların aparılmasına dəstəyini əsirgəmir. Xarici ölkələrin nüfuzlu araşdırma və tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsinə fayda verir. Azərbaycanın yaradıcı və elmi potensialının artırılması istiqamətində mühüm layihələr reallaşdırır. İnsanların bilik və bacarıqlarının aşkara çıxarılmasına, istedadların inkişafına şərait yaradır. Uşaq müəssisələrinin malik olduğu infrastrukturun inkişafı istiqamətində davamlı işlər görür. Uşaq və gənclərimizin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət edir.

Yerli əhəmiyyətli sosial problemlərin həllinə yardım göstərilməsi, xüsusi qayğıya ehtiyac duyan insanlara kömək, səhiyyə və tibbi təsisatların inkişafı, ekologiya sahəsində mühüm layihələrin dəstəklənməsi də bu 20 il ərzində Heydər Əliyev Fonduna rəğbət qazandıran fəaliyyətlərdəndir.

### İnsanın və cəmiyyətin sağlamlığı naminə

Azərbaycanın Birinci vitse- prezidenti Mehriban xanım Əliyevanın təşəbbüskarı olduğu layihələrlə fond sağlam həyat tərzini təbliğ edir, Azərbaycan mədəniyyətinin inkişafı və dünyada tanıdılması, mənəvi dəyərlərimizin qorunması istiqamətində aparılan işlərə kömək göstərir. Azərbaycan dövlətinin həyata keçirdiyi mədəniyyət diplomatiyasının uğurlarında müstəsna rol oynayır. Tarixi həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasına, ölkəmizin sivilizasiyalar arasında dialoq, tolerantlıq məkanı kimi tanınmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyamıza inteqrasiya prosesində milli-mənəvi dəyərlərimizin mühafizəsinə böyük töhfələr verir.

Heydər Əliyev Fondu respublikamızda və ölkə xaricində fəaliyyət göstərən fondlarla, qeyri-hökumət təşkilatları, ictimai qurumlarla əməkdaşlığı genişləndirir. Onlarla birgə layihələr həyata keçirir. Azərbaycanda və xaricdə müasir dünyamız üçün aktual mövzularda tədbirlər, sağlam müzakirə platformaları təşkil edir.

Fond gender problemlərinə, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına da xüsusi diqqət yetirir. Bakıda Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda forumda çıxış edən Mehriban xanım Əliyeva Azərbaycan qadınlarının cəmiyyətin ictimai-siyasi və mədəni həyatında daim mühüm rola və mövqeyə malik olduqlarını xüsusi vurğulayıb.

### Ümid qapısı

Bu nüfuzlu qurum Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ötən 20 il ərzində həyata keçirdiyi proqramların uğuru ilə, ölkəmizin və müasir dünyanın qabaqcıl ideyalarla fəaliyyət göstərən ən innovativ təsisatlarından biri kimi layihələrin icrasında yeni standartlar yaratmışdır. Qurumun yerinə yetirdiyi bütün layihələrdə ən kiçik detalların belə diqqətdən kənarda qalmadığını, qarşıya qoyulmuş məqsədlərin ən yüksək keyfiyyətlə yerinə yetirildiyini görürsən.

Mehriban xanımın rəhbərliyi ilə görülən bütün təşkilati işlərdə, o cümlədən fondun layihələrinin icrasında yüksək məsuliyyət, mükəmməllik nəzərə çarpır. Bunun əsas səbəbi bəlkə də budur ki, həmin layihələr çərçivəsində yerinə yetirilən işlər hər hansı inzibati öhdəliklərin diktəsindən çox sevgi ilə görülür. Əslində, bu layihələri ərsəyə gətirən, onlara həyat qazandıran da elə insana olan sevgidir, insan həyatında mümkün qədər gözəlliklər yaratmaq duyğusudur. Ona görə də Heydər Əliyev Fondunun reallaşdırdığı bütün işlər bu qədər uğurlu alınır və böyük rəğbət doğurur.

Düz 20 ildir ki, bu qurum köməyə, şəfqətə ehtiyacı olan insanların pənah qapısına, ümid ünvanına çevrilib. Əli bir çox yerdən üzülən insanların son çarə yeri kimi Heydər Əliyev Fonduna müraciət etməsinə, köməyi bu ünvanda axtarmasına və məhz burada ümidlərinin doğrulmasına az şahid olmamışıq.




Əlbəttə, elə dərdlər, müşküllər var ki, onlara çarə tapılması hər hansı təsisatın imkanları xaricindədir və onlara hər hansı dəstəklə kömək etmək mümkün deyil. Bununla belə 20 il ərzində Heydər Əliyev Fonduna getdikcə daha da artan ictimai inam bu quruma üz tutan əksəriyyətin buradan naümid qayıtmadığını, hətta ən çarəsiz durumlarda belə mənəvi dəstək gördüyünü, onları həyata bağlayan, güclü olmağa sövq edən səbəblərlə təskinlik tapdıqlarını göstərir. Burada gördükləri isti, həssas münasibətlə vətəndaşlarımız Azərbaycan dövlətinin kömək əlini öz üzərlərində hiss edirlər.

İndiyə qədər Heydər Əliyev Fondunun gördüyü işlər haqqında çox qiymətli fikirlər deyilib, yazılıb. Ən yüksək qiymət isə Azərbaycan Respublikasının Prezidentinə məxsusdur: "Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, ölkəmizin dünyaya olduğu kimi təqdim edilməsi - bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşübdür. Düşübdür deyəndə, fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görür..."

### Bəşəri missiya

Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən birini də təhsil sisteminin qabaqcıl dünya standartları əsasında təkmilləşdirilməsi təşkil edir. Bu məqsədlə 2005-ci ildən Mehriban xanım Əliyevanın rəhbərliyi ilə "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafına dəstək" layihələrinin icrasına başlanmışdır. Layihə çərçivəsində ölkəmizin müxtəlif bölgələrində yüzlərlə yeni məktəb binaları tikilərək gənc nəslin istifadəsinə verilmişdir. Eləcə də ayrı-ayrı bölgələrimizdə təhsil və səhiyyə ocaqları bərpa olunmuş, yeniləri ilə əvəzlənmişdir.

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinə artan tələbatı nəzərə alaraq, fond 10 il əvvəl - 2014-cü ildə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirməyə başlamış, həmçinin "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstanda, Niderlandda, Misirdə, Pakistanda, Rumıniyada, Rusiyada bir sıra məktəbləri yenidən qurmuş, yaxud əsaslı təmir etmişdir. Fondun təhsillə bağlı fəaliyyətinə Azərbaycandakı və ölkə hüdudlarından kənardakı bir çox təhsil müəssisəsinin lazımi vəsaitlərlə təchizatına kömək məsələləri də daxildir. Bütün bu işlər dünyada Azərbaycanın dostlarının çevrəsini genişləndirir, ölkəmizi bu cür nəcib əməllərlə xatırlayanların, xalqımıza, dövlətimizə rəğbət bəsləyənlərin sayı artır.

Yarandığı gündən Heydər Əliyev Fondunun təhsili və geniş mənada sosial tərbiyə məsələlərini fəaliyyətində ən mühüm istiqamətlərdən biri kimi seçməsi, 20 ildir bu məqsədə sadiq qalması elm və təhsilin cəmiyyətin bu günü, gələcəyi üçün müstəsna əhəmiyyətindən irəli gəlir. Fondun missiyası bəşəri missiyadır. Bu cür missiyaları isə yalnız elm və təhsilin gücü ilə yerinə yetirmək mümkündür. Məlumdur ki, dünyanın inkişaf etmiş bütün ölkələri müasir inkişaf səviyyəsinə məhz elmə, təhsilə zamanında qoyulan investisiyalar sayəsində, gənc nəslin təlim-tərbiyəsinə yaradılmış şərait, cəmiyyətdəki münbit mühit hesabına nail olmuşlar. Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi misilsiz layihələr, qurumun informasiya texnologiyalarının inkişafına, innovasiyalara etdiyi yatırımlar Azərbaycanda da eyni mərama xidmət edir.

Elm, təhsil bir mühitdir və bunun yaradılması təkcə dövlət qurumlarının inzibati vəzifəsi deyil. Burada dövlət strukturları ilə yanaşı, biznes qurumları, ictimai təşkilatlar, imkanı çatan hər bir vətəndaş da kömək göstərməli, dəstək verməlidir. Çünki inkişafa şərait yaratmaqla, istedadlı insanlarımızı dəstəkləməklə birbaşa, yaxud dolayı şəkildə cəmiyyətimizin gələcəyinə töhfə vermiş oluruq. Güclü cəmiyyət isə bütün fərdləri gücləndirir. Heydər Əliyev Fondu öz fəaliyyəti ilə cəmiyyətimizdə həm də bu mədəniyyəti formalaşdırır, korporativ sosial məsuliyyət prinsiplərini geniş sferada təşviq edir, xalqımızın xeyriyyəçilik, ehtiyacı olanlara kömək, nəcib, saleh əməllər sahibi olmaq kimi dəyərlərini aktuallaşdırır, bununla bağlı parlaq nümunələr ortaya qoyur.

### Həyat bağışlayan təşkilat

Heydər Əliyev Fondu ötən 20 il ərzində səhiyyə sahəsindəki mövcud problemlərin həlli, tibbi xidmətlərin vətəndaşlarımız üçün əlçatan olması sahəsində də tarixi xidmətlər göstərmişdir. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihəsi, Bakıda müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi, regionlarda çoxsaylı tibb müəssisələrinin tikilərək, abadlaşdırılaraq, ən müasir avadanlıqlarla təchiz olunaraq sakinlərin istifadəsinə verilməsi, mütəmadi şəkildə paytaxtda və regionlarda təşkil edilən tibbi aksiyalarla Heydər Əliyev Fondu 100 minlərlə vətəndaşımıza həyat bağışlamışdır.

Fondun səhiyyə sahəsindəki fəaliyyəti də ölkə hüdudlarını aşır, Azərbaycana böyük beynəlxalq rəğbət yaradır.

### Mədəni dəyərlərin hamisi

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu milli mədəniyyət incilərimizin, musiqimizin, o cümlədən genetik kodlarımızdan olan muğamlarımızın qorunması, bütün dünyada təbliği istiqamətində tarixi işlər görmüşdür. Bəşəriyyətin mədəniyyət xəzinəsinə qiymətli incilər bəxş etmiş böyük şəxsiyyətlərimizə ölkəmizdə və Azərbaycandan kənarda xatirə abidələrinin ucaldılması, ev-muzeylərinin bərpası, yubileylərinin təşkili, əsərlərinin nəşrinə dəstək, müxtəlif regionlarımızda mədəniyyət mərkəzlərinin, kitabxanaların, rəsm qalereyalarının, musiqi məktəblərinin, qədim tarixi irsimizin qorunduğu məkanların yaradılması Heydər Əliyev Fondunun mədəniyyət layihələrinin yalnız bir hissəsidir.

Fondun təşəbbüsü ilə inşa edilmiş Beynəlxalq Muğam Mərkəzi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və bir sıra digər mədəniyyət obyektləri, dünyanın ayrı-ayrı ölkələrində yaradılmış Azərbaycan Mədəniyyət mərkəzləri, keçirilən musiqi festivalları, beynəlxalq humanitar tədbirlər mədəniyyətin gücü ilə insan düşüncəsinin saflığına, yaradıcı ruhun təntənəsinə, dünyamızda sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edir.

Fond Azərbaycandan kənarda da mədəniyyət layihələrini uğurla davam etdirir, ümumbəşəri dəyər daşıyan abidələrin qorunmasına, bərpasına, təbliğinə öz dəyərli töhfələrini verir. Belə layihələrlə Azərbaycan özünü bütün dünyaya mədəniyyət işığında təqdim edir, Şərqlə Qərbin qovuşuğunda, sivilizasiyaların təmas məkanında yerləşən ölkəmizin qlobal nüfuzu, beynəlxalq ictimai rəyə təsir imkanları getdikcə artır. Qurum həm də öz fəaliyyəti ilə sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşmasını, bu sahələrdə səylərin birləşdirilməsini əsas götürür.

Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin siyasi irsinin təbliği sahəsində böyük xidmətlərinə, mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycanın mədəni irsinin beynəlxalq miqyasda təbliğinə və I Avropa Oyunlarının təşkilində apardığı genişmiqyaslı işlərinə görə ölkənin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.

### Dəyərlərimizə həssas münasibət

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, tarixi Zəfərimizdən dərhal sonra azad Qarabağda, Şərqi Zəngəzurda başlanan quruculuq-bərpa tədbirləri Heydər Əliyev Fondunun da fəaliyyətində yeni bir səhifə açmışdır. Bu gün işğaldan azad edilmiş yurdlarımızın dirçəlişi prosesində fəal iştirakı, bu torpaqlarda reallaşdırdığı tarixi layihələr fondun özünün 20 illik yubileyinə ən gözəl hədiyyəsidir.

Qısa müddət ərzində qurum işğal dövründə ermənilərin vandalcasına dağıtdıqları bir çox mədəniyyət abidəsinin bərpasını uğurla yekunlaşdırıb. Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Saatlı məscidi, İncəsənət qalereyası, Xalça muzeyi, Yuxarı Gövhər ağa məscidi, "Xan qızı" bulağı və digər tarixi dəyərlərin yenidən həyata qaytarılması Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun torpaqlarımızın azadlığına tarixi töhfəsidir. Fond hazırda Aşağı Gövhər ağa məscidinin, Mamayı məscidinin, Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin, Yeni Şuşa məscidinin, Ağdam Cümə məscidinin, Xocavənd rayonunun Susanlıq kəndindəki kilsənin bərpası işlərini uğurla davam etdirir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Beynəlxalq Kulinariya Festivalı və digər tədbirlər bu qala şəhərinin əvvəlki cəlalını daha yüksək səviyyədə özünə qaytarır.

Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr eyni zamanda mühüm tarixi-ideoloji, siyasi məzmun kəsb edir. Qurumun 20 illik fəaliyyəti çox geniş və çoxşaxəlidir. Zaman keçəcək, Heydər Əliyev Fondunun hər layihəsinə irimiqyaslı tədqiqat işləri, sanballı kitablar, filmlər həsr olunacaq, amma bütün bunlar da görülmüş işlərin hüdudlarını tam əhatə etməyəcək. Çünki yazılanlar, çəkilənlər tarixin konkret səhifələridir. Heydər Əliyev Fondunun fəaliyyəti isə tarixin hüdudlarından da əhatəlidir. Necə ki, fondun fəaliyyətinin cəmi 20 ili bu müddət ərzində görülmüş işlərin, yaradılmış faydaların mahiyyəti ilə əsrlərə bərabərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Heydər Əliyev Fondu

2004 Xeyirxahlıq və mərhəmət ünvanı 2024






# Nə yaxşı ki Mehriban xanım var...

## Heydər Əliyev Fondunun uşaqlara qayğı missiyası uğurlu nəticələr verir

















**"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**

Bu fikirlər təsdiqləyir ki, Azərbaycanın gələcəyini sağlam, təhsilli, vətənpərvər uşaqların böyüdülməsində görən Ulu Öndər Heydər Əliyevin dövlət siyasətinin prioritetlərindən birini uşaq siyasəti təşkil edib. Bu istiqamətdə mühüm qanunlar qəbul olunub, işlər həyata keçirilib.

Ulu Öndərin siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin gündəliyində də uşaqların inkişafı və gələcəyi ilə bağlı məsələlər vacib yer tutur. Təsadüfi deyil ki, ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən birini sağlamlıq imkanları məhdud olan uşaqlara sosial xidmətlərin göstərilməsi təşkil edir.

Ümummilli Liderin adını daşıyan, bu il fəaliyyətinin 20-ci ilini tamamlayan Heydər Əliyev Fondu da yarandığı ilk gündən bu sahəni daim diqqət mərkəzində saxlayır. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə uşaq evləri, reabilitasiya və sağlamlıq mərkəzləri, təhsil ocaqları yaradılır, bərpa edilir, bir sözlə, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə qaytarılması üçün hərtərəfli işlər aparılır. Belə mərkəzlərdən biri də Saray qəsəbəsində yerləşən 2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsidir.

### Onların hər gəlişi uşaqlar üçün toy-bayramdır

2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsi 1974-cü ildən fəaliyyət göstərsə də, 2010-cu ildən ikinci yeni həyatına başlayıb. Bura Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparıldıqdan sonra müasir standartlara cavab verən sosial xidmət müəssisəsinə çevrilib. "Saray 7 saylı ağıldankəm uşaqlar üçün internat evi" kimi fəaliyyət göstərmiş mərkəzin adı 2015-ci ildə dəyişdirilib. Burada 5-18 yaş arasında olan və təhsilə cəlb edilməyən, əlilliyi müəyyən olunmuş şəxslərə stasionar və yarımstasionar (günərzi) formada sosial, məişət, tibbi, psixoloji, pedaqoji, hüquqi və iqtisadi xidmətlər göstərilir. Mərkəzdə mentor və metodistlər tərəfindən uşaq və yeniyetmələrin hərtərəfli inkişafı üçün psixoloji və loqopedik təlimlər, əmək, müalicəvi rəqs, musiqi, nağıl və mətbəx terapiyaları həyata keçirilir. Dördmərtəbəli binanın birinci mərtəbəsində bu işlərin həyata keçirilməsi üçün inkişaf mərkəzi, kitabxana, emalatxanalar və müxtəlif fəaliyyət otaqları yerləşir.

Bizi mərkəzlə tanış edən direktor Pərvanə Səfərova bildirdi ki, hazırda mərkəzin 86-sı oğlan, 42-si qız olmaqla 126 sakini, onların həyata inteqrasiyası üçün kömək edən 102 işçisi var: "Həssas qrupa daxil olan uşaqlar daim dövlətin qayğı və nəvazişini üzərlərində hiss edirlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq mərkəzə gəlir, sakinlərimizin sağlamlığı və inkişafı ilə yaxından maraqlanırlar. Onların hər gəlişi uşaqlarımız üçün toy-bayram olur. Mehriban xanım və Leyla xanım uşaqlarımızın hər birini tanıyır, onlara fərdi yanaşır, məşğul olurlar, hər gəlişlərində onlara sovqatlar gətirirlər. Bu diqqət və qayğını görən sakinlərimiz də onların gəlişinə xüsusilə hazırlaşır, hər dəfə yeni nailiyyət, yeni bacarıqlarını nümayiş etdirirlər".

P.Səfərova qeyd edir ki, əsas məqsədləri təhsil ala bilməyən, fiziki və əqli bacarıqları məhdud olan sakinlərin həyata, cəmiyyətə mümkün qədər inteqrasiyasını təmin etməkdir: "Bacardığımız qədər onların özünəxidmət qabiliyyətlərini inkişaf etdirməklə, hər birimizin həyata keçirdiyi, lakin onlara mümkünsüz görünən adi işləri aşılamaqla ətrafdakılardan asılılıq səviyyələrini aşağı salmağa çalışırıq. Təkcə ötən il 10 sakin ailəsinə reinteqrasiya olunub. Bu rəqəm belə diaqnozlu uşaqlar üçün olduqca böyük göstəricidir. Çox istərdik ki, uşaqlarımızın hər biri müəyyən bacarıq və vərdiş qazandıqdan sonra ailələri ilə birlikdə yaşasınlar. Lakin təəssüf ki, bu, demək olar ki, mümkün deyil. Çünki onların 60-70 faizi yataq xəstəsidir. Digərlərinin əksəriyyəti ya valideynlərindən məhrum olub, ya da onların diqqətindən. Övladı mərkəzimizdə yaşayan hər bir valideynin hər bazar keçirilən görüş günlərinə gəlmələri sakinlərimizin əhvali-ruhiyyəsində müsbətə doğru dəyişikliyə səbəb olur. Bu da uşaqların inkişafına təsirsiz ötüşmür".

Mərkəzin direktoru məlumat verir ki, müəssisəyə daxil olan uşaqlar yaş, cins və xəstəliklərinə görə qruplara bölünür, buna uyğun olaraq onlar üçün sosial işçilər tərəfindən qiymətləndirilmə aparılır, ilkin fərdi inkişaf planları tərtib edilir. Bu fərdi planlar hər üç aydanbir inkişafa əsasən dəyişilir, həm də sakinlərin ilkin və sonuncu vəziyyətini müqayisə etməyə kömək edir, növbəti addımları müəyyənləşdirməyə imkan verir: "Uşaqların əksəriyyəti bura gəldikləri ilk gün qaşıqdan belə istifadə etməyi, yaxud stulda oturmağı bilmirlər. Müəssisəyə gələn uşaqların yaş aralığı da psixoloji və fizioloji baxımdan çox həssasdır. Onlar ya yetkinlikdən öncəki, ya da yetkinlik dövründədirlər. Hormonal dəyişikliklər nəticəsində əsəbləri daha gərgin olur. Mərkəzin mütəxəssisləri onların bu çətin dövrü rahat keçirmələri üçün əllərindən gələni etməyə çalışırlar".

### "Nail olduğumuz hər kiçik irəliləyiş böyük uğurdur"

Müəssisənin birinci mərtəbəsində 12 reabilitasiya otağı, digər 3 mərtəbədə isə 170 çarpayılıq yataq otaqları yerləşir. Mərkəzə gələn uşaqlara hər gün daxil olduqları qrupla birlikdə və ya fərdi şəkildə təyin olunmuş plan əsasında asılılıq səviyyələrinin aşağı salınması üçün sosial xidmətlər göstərilir.

Mərkəzin psixoloqu Zərinə Həsənova məlumat verir ki, benifisiarlar ilk gəldikdə onların psixoemosional vəziyyəti qiymətləndirilir, psixoloji yardıma ehtiyacı olan uşaqların vəziyyətinin stabilləşməsinə kömək edilir: "Mərkəzimizdə serebral iflic, əqli geriliyi və autizm spektr pozuntusu olan uşaqlar var. Biz onların inkişaf səviyyələrinə uyğun olaraq işlər aparırıq. Hazırda əlil arabasından istifadə edən benefisiarımız var ki, onunla apardığımız həm qrup, həm də fərdi halda reabilitasiya işləri nəticəsində müəyyən irəliləyişlər əldə etmişik. Həmin uşaq artıq yavaş-yavaş ayaq üstə dayana bilir, hətta bir-iki addım atmağa başlayıb. Xidmət göstərdiyimiz uşaqlarda aqressiv hallar da müşahidə olunur. Aqressiyanın korreksiyası və emosional balansın tənzimlənməsi istiqamətində terapiya otaqlarında işlər aparılır. Bütün bu işlər uşaqların əlillik dərəcələri nəzərə alınmaqla asandan çətin səviyyəyə doğru aparılır".

Psixoloq bildirir ki, mərkəz mütəxəssisləri mütəmadi olaraq "dəyirmi masa"lar təşkil edib benefisiarların inkişaf dinamikası ilə əlaqədar müzakirələr keçirirlər. Eyni zamanda gecə və gündüz növbəsində fəaliyyət göstərən mütəxəssislər də uşaqların real vəziyyəti ilə bağlı məlumat verir, aktlaşdırma işləri aparırlar. Bir sözlə, çoxprofilli kollektiv şəklində işləyirlər.

Müəssisə sakinlərinin nitq inkişafı ilə məşğul olan loqoped Arzu Qurbanovanın da işi olduqca mürəkkəbdir. Belə ki, mərkəzdə sakinlərin əksəriyyətinin nitqi çox zəif, qüsurludur, bir çoxunun nitqi isə, ümumiyyətlə, inkişaf etməyib. Loqopedin işinin mahiyyəti uşaqların nitqini inkişaf etdirmək, bu, mümkün olmadıqda isə verbal nitq üzərində işləməkdir: "Uşaqlara istədiklərini, fikirlərini, hiss etdiklərini bizə çatdırmaları üçün qeyri-verbal nitq vasitəsilə jestləri öyrədirik ki, ən azından haralarısa ağrıyanda, su, yemək istəyəndə bunu ifadə edə bilsinlər. Fəaliyyətimizi çətinləşdirən məsələ isə benefisiarlarımızın yaşlarıdır. Belə ki, beş yaşa qədər nitq tamamilə formalaşır. Buna görə də yaş artdıqca nəticə əldə etmək üçün müddət uzanır. Uşağın diaqnozundan asılı olaraq nəticə almadıqlarımız da çoxdur. Buna görə də nail olduğumuz hər bir kiçik irəliləyiş bizim üçün böyük uğurdur".

### Yaradıcılığın növü uşaqların bacarıqlarına görə seçilir

Reabilitasiyanın terapiya otaqlarında sakinlər müxtəlif yaradıcılıq növləri ilə məşğul olurlar. Hər yaradıcılıq sahəsinə görə ayrılmış bu otaqlarda benefisiarlar musiqi alətlərində ifa etməyi öyrənir, rəqs edir, kiçik motorikanın inkişafı üçün müxtəlif yaradıcılıq sahələri ilə məşğul olurlar.

Əmək təlimatçısı Pərvanə Yasinova bildirir ki, müəssisə sakinləri qruplara bölünərək günün müxtəlif saatlarında art terapiya ilə məşğul olurlar. Onlar bu zaman həm uşaqların kiçik motorika bacarıqlarını inkişaf etdirir, həm də asudə vaxtlarını dəyərləndirirlər. Emalatxanalarda müəssisə sakinləri iplərlə, muncuqlarla naxışlar tikir, boya edirlər. Həftədə iki dəfə keçirilən mətbəx terapiyasında isə kəsici alətlərdən istifadə etmədən meyvə salatı edir, xəmirdən fiqurlar kəsərək peçenye hazırlayırlar. Yaradıcılığın növü uşaqların bacarıqlarına görə seçilir. Uşaqların əksəriyyəti eyni anda bir neçə növ ilə məşğul olurlar. İsti havalarda isə otaqları təbiət əvəz edir. Uşaqlar müəssisənin həyətyanı sahəsində art terapiyalar keçir, yelləncəklərdə yellənir, ağacları sulayır, bir sözlə, təbiətlə birbaşa təmasda olurlar.

2008-ci ildən bu müəssisədə çalışan Pərvanə Yasinova mərkəzin təmir-bərpadan öncəki və sonrakı dövrünü müqayisə edir: "Mərkəzimiz demək olar ki, yenidən qurulub. Nə isitmə, nə isti-soyuq su, nə də ləvazimat çətinliyimiz yoxdur. Ehtiyac olduğu halda tibb mütəxəssisləri tərəfindən ilkin tibbi yardım göstərilir. Dövlət tərəfindən bütün tibbi ləvazimatlarla təmin edilmişik. Daha qəliz situasiyalarda isə xəstələrimiz ixtisaslaşmış tibb müəssisələrinə göndərilirlər. Bizim üçün gözəl şərait yaradıldığına görə diqqətimizi, gücümüzü kənar qayğılara deyil, yalnız benefisiarlarımızın inkişafına yönəldirik".

### "Mən ana və bacı nəvazişini, sevgisini onlardan alıram"

Reabilitasiya mərkəzinin mütəxəssisləri qeyd edirlər ki, bacarıqsız uşaq yoxdur, üzə çıxarılmamış istedad var. Buranın fəal sakinlərindən biri Həbib Tağıyev 4 yaşından mərkəzdə yaşayır. Mərkəzin onun evi olduğunu söyləyən Həbib dostlarıyla maraqlı vaxt keçirir, mahnı oxuyur, rəqs edir, müxtəlif tamaşalarda iştirak edir, dama, domino və stolüstü tennislə məşğul olur. Stolüstü tennisdə xüsusilə fərqlənən Həbib bu bacarığı ilə ölkə sərhədlərini də aşıb. O, Belçikada və ABŞ-də keçirilən stolüstü tennis üzrə xüsusi yarışlarda dəfələrlə iştirak edərək qızıl və gümüş medallar qazanıb.

Həbibin 22 yaşı olmasına baxmayaraq, o, hələ də müəyyən müddət burada yaşamağa davam edəcək. Qaydaya görə, 18 yaşı tamam olmuş benefisiarlar tədricən, hissə-hissə digər mərkəzlərə köçürülürlər. Amma mərkəz hələlik Həbibdən ayrılmaq istəmir.

Mərkəzin digər istedadlı sakini Xəyalə Hüseynovanın isə 15 yaşı var. Musiqi, rəsm və mətbəx kimi bir neçə yaradıcılıq növü ilə məşğul olan Xəyalə şeir söyləyir, dostları ilə birlikdə musiqi ifa edir. Asudə vaxtını necə keçirdiyini soruşduqda isə o, Mehriban xanım və Leyla xanım ilə növbəti görüşə hazırlaşdığını bildirdi: "Mən ana və bacı nəvazişini, sevgisini onlardan alıram. Hər dəfə yeni bacarıqlar öyrənib Mehriban xanıma göstərmək üçün səbirsizliklə onu gözləyirəm".

### Günərzi qayğı mərkəzi

Sosial reabilitasiya mərkəzi yerində dayanmır, daim inkişaf edir, benefisiarlar və onların valideynlərinin həyatının asanlaşdırılması üçün mühüm addımlar atılır. Burada artıq iki ildir qeyri-stasionar, yəni günərzi qayğı mərkəzi də fəaliyyət göstərir. Mərkəzin yaradılmasında məqsəd müəssisələşmənin qarşısını almaq üçün uşaqların ailə mühitində böyümələridir. Günərzi mərkəzində sakin sayı 10 nəfərdir. Onlar valideynləri tərəfindən hər gün 9-da mərkəzə gətirilir, axşam 6-da isə evə aparılır. Burada uşaqlar gün ərzində 3-5 dəfə qidalanır, art terapiyalarda iştirak edir, günorta onlar üçün ayrılmış yataq otaqlarında dincəlirlər.

Günərzi mərkəzinin mentoru Balacaxanım Qasımova məlumat verir ki, uşaqları burada olduğu müddətdə valideynləri işə gedir və ya gündəlik işləri ilə məşğul olurlar: "Mütəxəssis olmadığın təqdirdə həssas təbəqəyə aid, əqli və fiziki məhdudiyyətli uşaqlarla daim məşğul olmaq çox çətindir. Burada uşaqlarımız yeni bacarıqlar öyrənir, onların sosial, funksional, qavrama bacarıqları inkişaf etdirilir. Günərzi mərkəzinə 5 yaşından kiçik uşaqlar da qəbul edilir. Müəssisəmizin psixoloq və mentorları valideynlərlə işlər aparır, ayda bir dəfə onlarla görüş təyin edilir. Bu görüşlərdə onlara evdə uşaqlarla necə rəftar etməli, onlara qulluq göstərmələri izah edilir. Habelə valideynlərin psixoloji vəziyyətlərinin stabilliyi üçün onlarla söhbətlər edilir, dəstək göstərilir. Bu dəstək və təlimlər yalnız valideynlərə deyil, həmçinin mütəxəssislərə də göstərilir. Mərkəzimizdə mentorlar mütəmadi olaraq ayda bir və ya bir neçə dəfə təlimlərdə iştirak edir, bilik və bacarıqlarını inkişaf etdirirlər".

Uşaqlar hər bir dövlətin və cəmiyyətin gələcəyidir. Azərbaycan dövlətinin də əsas vəzifələrindən biri xoşbəxt gələcəyə, sağlam cəmiyyətə nail olmaq üçün uşaqlara diqqət və qayğı göstərmək, onların hərtərəfli inkişafı üçün münbit şərait qurmaqdır. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar da diqqət və qayğıdan kənarda qalmır. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mühüm fəaliyyət nəticəsində bu uşaqlar da cəmiyyətimizə uğurla reinteqrasiya olunurlar.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Gerçəkləşən ideya - azərbaycançılıq

Tanrı onu Azərbaycanı xilas etmək, qorumaq, ölkəmizin müstəqilliyini əbədiləşdirmək üçün göndərdi. Ömrünü xalqına və dövlətinə həsr etmişdi. Bu gün müstəqil Azərbaycan dövlətinin yeni tarixində yaxşı nə varsa, onun adı ilə bağlıdır.

Ötən əsrin sonlarında müstəqilliyini bərpa edən, yenidən azadlığına qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması məhz Ümummilli Lider Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan bu böyük dövlət adamı cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində durmadan çalışaraq ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Ümummilli Lider haqlı olaraq azərbaycançılıq ideologiyasının ölkədə vətəndaş birliyinin qorunub saxlanması, eləcə də xalqımızın milli-mənəvi dəyərlərinin müdafiəsi üçün, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən ən uğurlu vasitə olduğunu düşünürdü.

Ümummilli Lider azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Ulu Öndər azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür.

Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada, azərbaycançılıq ideologiyası milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir. Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir.

Təsadüfi deyil ki, məhz Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra xüsusi fəallıqla lobbiçilik fəaliyyətinə start verildi. Böyük rəhbər azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif ali məktəblərinə qəbul edilməsinə xüsusi diqqət göstərirdi. 1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illər SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərilmişdi. Ənənəvi olaraq hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Təhsilini başa vurduqdan sonra SSRİ-nin müxtəlif məkanlarında çalışan həmin insanların böyük əksəriyyəti həmişə xalqına və dövlətinə sadiqlik nümunəsi göstərib, azərbaycanlı adını şərəflə daşıyıblar. Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycanın əsl təbliğatçısı olaraq sinələrini dövlətimizə qarşı olan haqsız hücumlara sipər ediblər.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul olundu. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanladı. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul etdi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Ümummilli Lider bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə, soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa təşviq edirdi. Ulu Öndər daim həmvətənlərimizi yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, eyni zamanda Vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun Azərbaycanı təmsil etdiklərini unutmamağa çağırırdı. 1997-ci ildə Heydər Əliyev ABŞ-yə rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Məlum olduğu kimi, 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlməsi isə sonralar dünyanın müxtəlif yerlərində yaşayan həmvətənlərimizin əsl sloqanı oldu.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması diaspor quruculuğu işinin ən mühüm məsələlərindəndir. Həmin yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və davamlı olaraq bu gün də həyata keçirilir. Böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən müdrik siyasəti bu gün nəticəsini verməkdədir. Dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri ölkəmizin tanınması, milli maraqlarının və dövlət mənafeyinin qorunması yolunda əsl fədakarlıqlar edirlər. Ulu Öndərin ideyalarının özündən sonrakı mərhələlərdə də davam etdirilməsi diaspor quruculuğuna töhfələrini verir.

Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə sadiq qalan Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2022-ci ilin aprelində Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı isə bu sahədə yeni bir mərhələnin başlanğıcını qoydu. Qurultayda çıxış edən Prezident İlham Əliyev iftixarla demişdir: "Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdi. Ulu Öndər dərinməzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdi və demişdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik".

Bu gün Azərbaycan diasporu Rusiya, ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, İsveçrə, Qazaxıstan, İtaliya kimi onlarla dövlətlərdə fəaliyyət göstərir.

Hazırda ölkəmizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfələr verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporaları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondu öz adını fəaliyyəti ilə doğruldur

Heydər Əliyev Fondu 20 ildir ki, xalqımızın milli-mədəni və mənəvi dəyərlərimizin qorunub saxlanılmasına, onların təbliğinə, gənclərlə iş birliyinə, təhsilin və səhiyyənin inkişafına böyük töhfələr verir. Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti ilə Ulu Öndərin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini, Azərbaycan mədəniyyətini və tarixini dünyada daha geniş tanıdır.

Sağlam həyat tərzini təbliğ etməklə ölkəmizdə və xaricdə bu istiqamətdə müxtəlif tədbirlər keçirən fondun dəstəyi ilə uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgiləri təşkil olunur, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verilir. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir.

Dilçi alimlərin fikrincə, hər bir xalq öz dili ilə yaşayır, mövcudluğunu qoruyur. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq həmin xalqın ziyalılarının, alim və pedaqoqlarının fəaliyyəti nəticəsində mümkündür. Bu mənada Heydər Əliyev Fondunun Azərbaycan dilinin 50 dünya dili arasında tanınmış institutlarda tədris olunmasının dəstəkçisi olması sıradan fakt deyil.

Heydər Əliyev Fondunun dəstəyi ilə son illər UNESCO-nun iqamətgahında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, tarixi şəxsiyyətlərinin, incəsənət və elm xadimlərinin yubileylərinin keçirilməsi ənənə halını alıb. Bu, ilk növbədə Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür.

Heydər Əliyev Fondunun Azərbaycanın mədəniyyət tarixində iz buraxacaq layihələrindən biri də Bakıda Müasir İncəsənət Muzeyinin yaradılmasıdır. Muzeydə Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılıb. Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işçinin toplandığı muzeyə gələnlər Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltaraşların işləri ilə tanış ola bilirlər. Qərbi Avropa incəsənəti salonunda isə Ümummilli Lider Heydər Əliyevə, habelə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Səttar Bəhlulzadə adına sərgi salonunda uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisinin keçirilməsi isə mədəniyyət sahəsində xüsusi istedada malik yeniyetmələrin üzə çıxarılması işində böyük irəliləyişdir. Eləcə də Dənizkənarı Milli Parkın ərazisində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yaradılması vacib hadisədir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan binanın ümumi sahəsi 18 min 446 kvadratmetrdir.

Paytaxtın yaxınlığında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi də fəaliyyət göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan kompleks Azərbaycanın tarixi keçmişini özündə əks etdirməklə ölkəmizin turizm mərkəzlərindən birinə çevrilmişdir. Qoruğun 156 hektar sahəni əhatə edən ərazisində eramızdan əvvəl III minillikdən XX əsrə qədər dövrə aid kurqanlar, sərdabələr, yaşayış evləri, 4 ovdan, qədim qəsrin qalıqları, 5 məscid, 3 hamam və s. var.

Bu işlər Azərbaycan xalqının mədəni irsinin qorunmasında, dünya ictimaiyyətinin diqqətinə təqdim olunmasında və təbliğ edilməsində böyük əhəmiyyət daşıyır. Həmin sırada adət-ənənələrimizlə yanaşı, muğamı xüsusilə vurğulamalıyıq. Prezident İlham Əliyev "Muğam dünyası" Beynəlxalq Festivalının açılış mərasimində demişdi ki, muğam Azərbaycanın milli sərvətidir. Mehriban xanım Əliyeva isə muğamı obrazlı şəkildə səciyyələndirərək "Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq. Məhz muğam bizim varislərimizdə köklərə bağlılıq, milli ləyaqət, qürur, emosional zənginlik, iztirab çəkməyi və başqalarının iztirabına şərik olmağı bacarmaq, muğamın özünün malik olduğu mənəvi kamillik, tamlıq kimi keyfiyyətlər aşılamağa qadirdir" söyləmişdir. Məmnunluq doğuran həm də odur ki, Heydər Əliyev Fondunun dəstəyi ilə muğam UNESCO-nun bəşəriyyətin şifahi və qeyri-maddi irsi inciləri siyahısına daxil edilib.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fondun dəstəyi ilə ötən illər ərzində ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib. Onların sırasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsidir. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır.

Neçə illərdir fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən yeni məktəb binalarının inşasına istiqamətlənib. Layihə çərçivəsində paytaxtda və regionlarda müasir standartlara cavab verən məktəb binaları inşa edilib, neçə-neçə təhsil ocağı cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub. Ötən il Heydər Əliyev Fondunun təhsil sahəsindəki layihələri əsasında Qubada inşa olunan iki yeni məktəb binası istifadəyə verilib. Pirvahid kənd tam orta məktəbin yeni binası 320, Bağbanlı qəsəbə tam orta məktəbin yeni binası isə 360 şagirdlikdir. Bundan əlavə, 2023-2024-cü tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə müəllim və şagirdlərin istifadəsinə verilib. Tədris ili ərzində fond tərəfindən inşa və təmir edilən daha 10 məktəbin açılışı olub. Ümumiyyətlə, Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500-dən çox məktəb inşa və təmir olunaraq istifadəyə verilib.

Heydər Əliyev Fondunun ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, habelə mədəni irs nümunələrinin daxil edilməsi Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində də xidmətləri diqqətəlayiqdir. Fond xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə həssaslıqla yanaşaraq onun dünya arenasında təbliğində fəal iştirak edir. Fondun dəstəyi ilə Pakistanın bütün əyalətlərində səhiyyə, təhsil sahələrində silsilə humanitar yardımlar proqramı icra olunmuşdur.

Fondun təşkilatçılığı və dəstəyi ilə dünyaşöhrətli müğənni Müslüm Maqomayevin, habelə böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtın görməli yerində heykəllərinin açılışı olub. H.Z Tağıyevin heykəlinin açılışı zamanı Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir".

Heydər Əliyev Fondu 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində də kənarda qalmadı. Fond həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək olmaq üçün çox iş gördü. Bu gün isə fondun əməkdaşları erməni işğalından azad olunmuş bölgələrdə tikinti-quruculuq işlərinə səfərbər olublar.

Qurumun əsrin fəlakətinə çevrilmiş qardaş Türkiyə Cümhuriyyətində baş verən zəlzələdə zərərçəkənlərə hər cür humanitar yardımlar etməsi, Hollandiyada, Rusiyada, Gürcüstanda, Rumıniyada, Misirdə və digər ölkələrdə təhsil ocaqlarının müasirləşdirilməsinə kömək, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına yardımlar etməsi görünən reallıqlardır.

*Xalqa xidmətləri, milli dövlət quruculuğu və Azərbaycan gəncliyinin sağlam, savadlı, geniş dünyagörüşünə malik formalaşmasında misilsiz fəaliyyəti ilə əbədiyaşarlıq qazanmış türk dünyasının böyük oğlu Heydər Əliyevin anım günü, hər il olduğu kimi, bu il də adını şərəflə daşıdığı fondun təşkilatçılığı ilə Bakıdan tutmuş respublikamızın ən ucqar kənd, qəsəbə və rayonlarında, habelə dünyanın bir çox ölkələrində böyük qürur hissilə qeyd edilir.*

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Qüdrətli Azərbaycan Ordusunun yaradıcısı

Bəşər yaranandan həmişə belə olub: xalqının, millətinin taleyində misilsiz xidmətləri olan böyük şəxsiyyətlər heç vaxt unudulmayıb. Onlar daim yaddaşlarda yaşayıb, tarixin bütün dönəmlərində zaman-zaman ehtiramla xatırlanıblar. Bu cür böyük tarixi şəxsiyyətlər isə dünyaya yüz ildən, min ildənbir gəlir. Ümummilli Lider Heydər Əliyev xalqımızın tarixində, taleyində mühüm və əvəzsiz yeri olan belə böyük şəxsiyyətlərdəndir.

Azərbaycanlı olmağı ilə həmişə fəxr edən Ulu Öndər bütün ömrünü xalqının rifahına, Azərbaycanı qurub yaratmağa və dünyada tanıtmağa sərf etdi, bacarığını, qüvvəsini dövlət quruculuğuna yönəltdi. Və son nəticədə istəyinə, amalına nail oldu - güclü, qüdrətli və yenilməz bir dövlət qurdu, tarixin səhifələrində heç vaxt pozulmayan dərin izlər qoydu. Buna görə də xalqın əbədi ehtiramını, hörmətini və sevgisini qazandı.

1991-ci il Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə ictimai-siyasi vəziyyət çox gərgin idi. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında qərar qəbul olunsa da, heç bir iş görülmürdü. Hər şey kağız üzərində qalmışdı. Ozamankı iqtidarın dövründə ölkədə yaranan xaos və özbaşınalıq ordu quruculuğuna da mənfi təsir göstərirdi. O dövrdə hakimiyyətdə olanların dövlətçilik təcrübəsi, dövləti idarə etmək qabiliyyətləri yox idi. Ona görə də hər yerdə özbaşınalıq hökm sürürdü. Bundan istifadə edən erməni işğalçıları addım-addım torpaqlarımızı ələ keçirirdilər. Yeni qurulmağa başlayan orduda baş alıb gedən özbaşınalıq, vahid komandanlığın olmaması ərazilərimizin 20 faizinin işğalı, bir milyondan çox vətəndaşımızın ata-baba yurdundan didərgin düşməsi ilə nəticələndi.

1993-cü ilin iyununda isə ölkədə vəziyyət gərgin xarakter aldı. Yenicə müstəqillik qazanmış Azərbaycan dövləti dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Zaman və vəziyyətin ağır durumu, həyatın özü tələb edirdi ki, xalqı bu fəlakətdən qurtarmağa qadir olan bir şəxsiyyət hakimiyyətə gəlsin. Məhz ölkəmiz, Vətənimiz üçün belə çətin və keşməkeşli bir zamanda milyonların dəvəti və təkidi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı.

Ulu Öndərin hakimiyyətə qayıdışı və dövlətçiliyimizi inkişaf etdirməsi ölkəmizin hər bir vətəndaşını sevindirdi. Bütövlükdə isə Azərbaycan xalqı bu tarixi qayıdışı böyük ümidlə qarşıladı. Və xalq yanılmamışdı. Çox çəkmədi, Azərbaycan dövlətçiliyinin bərpası yolunda inamlı və uğurlu dönüş yarandı. Ümummilli Liderin qətiyyəti, sarsılmaz iradəsi sayəsində ölkədə sabitlik bərqərar olundu, xaosun qarşısı alındı, sivil, demokratik inkişaf yolu seçildi, islahatlar aparıldı. Bu nailiyyətləri saymaqla, yazmaqla qurtaran deyil. Sonrakı hadisələr və quruculuq işləri bir daha sübut etdi ki, 1993-cü ilin iyun hadisələri zamanı xalq Ulu Öndəri hakimiyyətə dəvət etməkdə yanılmayıb.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğu istiqamətində də inamlı addımlar atıldı. Ulu Öndər 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə çıxış edərək, ölkədə yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına tarixi müraciət etdi. Azərbaycan övladlarını ordu sıralarına, yurdumuzun müdafiəsinə səslədi. Qısa müddət ərzində yüzlərlə, minlərlə vətənpərvər gənc ordu sıralarına yazıldı. Onlar silaha sarılaraq, torpaqlarımızın müdafiəsinə qalxdılar. Təcavüskar Ermənistanın torpaqlarımızı işğal etməsinə yalnız Heydər Əliyevin Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi cəbhə bölgələrinə səfərlərindən, zabit və əsgərlərlə görüşündən sonra son qoyuldu. Onun cəbhə xəttinə gəlişi, çıxışları, dəyərli və qiymətli tövsiyələri hərbçilərin qələbə əzmini daha da artırdı, döyüş ruhunu yüksəltdi.

1994-cü il may ayının 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqqında müqavilə imzalandı. Bundan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi. Uğurla həyata keçirilən islahatlar nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı artdı, döyüş ruhu, qələbə əzmi yüksəldi. Bu gün tam inamla demək olar ki, muasir müstəqil dövlətimizin memarı və qurucusu olan Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır.

Ümummilli Lider hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. 1997-2001-ci illərdə zabit heyətinin təkmilləşdirmə kurslarının, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının (2004-cü ildən Heydər Əliyev adına Hərbi Lisey), ehtiyat zabitlərin hazırlıq kursunun və Azərbaycan Tibb Universitetində Hərbi tibb fakültəsinin yaradılması da Silahlı Qüvvələrin peşəkar, bilikli, Vətəninə, xalqına sadiq hərbçilərlə təmin olunmasında böyük əhəmiyyət kəsb etdi.

Ulu Öndər Heydər Əliyev dövlətimizin nüfuzunu beynəlxalq aləmdə yuksəltdikdən sonra Silahlı Qüvvələrimizin də dünya ölkələrinin ordularına inteqrasiya etməsinə şərait yarandı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ordumuzun beynəlxalq əlaqələri qısa vaxt ərzində möhkəmləndi. Ümummilli Liderin təşəbbüsü ilə Silahlı Qüvvələrimizin tərkibində formalaşan sülhməramlı taborun şəxsi heyəti Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak etdi. Bütün bunlar ordumuzun beynəlxalq aləmdə artan nüfuzunun bariz nümunəsidir. Orduda xidmət edən hərbçilər xidmətləri ilə belə dəyərli nümunələrin sayını artırmağa çalışırlar.

Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirilir. Ordumuzun döyüş hazırlığının daha da artırılması ilə bağlı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi bütün əmr və tapşırıqlar Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır və yüksək səviyyədə icra olunur. Ordumuz gücünü, qüdrətini gündən-günə daha da artırır. Dünyanın hər bir xalqının öz xilaskar ordusu ilə öyünməyə, qürur duymağa haqqı var. Qəhrəman Azərbaycan xalqı da öz ordusu ilə öyünür, fəxr edir. Çünki Azərbaycan Ordusu müstəqilliyimizin və ərazi bütövlüyümüzün ən etibarlı təminatçısıdır.

Qüdrətli Azərbaycan Ordusu bunu Vətən müharibəsində dünyaya göstərdi. 27 sentyabr 2020-ci ildə Ermənistan ordusu müxtəlif istiqamətlərdən mövqelərimiz üzərinə hücuma keçdi. Prezident İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Ordumuzun hissələri bu qəfil həmlənin qarşısını qətiyyətlə aldı. Döyüşlərin elə ilk dəqiqələrindən ordumuzun hissələri əks-hücum əməliyyatlarında üstünlük qazanaraq düşmənə sarsıdıcı zərbələr endirdi. İşğalçılar bu dəqiq və sarsıdıcı zərbələrin, güclü əks-hücumların qarşısında tab gətirməyərək 28 ildən bəri əllərində saxladıqları və xeyli möhkəmləndikləri mövqelərdən qaçmağa məcbur oldular. Qüdrətli Azərbaycan Ordusu Ermənistanı diz çökdürdü.

Vətən müharibəsinin davam etdiyi günlərdə Azərbaycan xalqı müstəqilliyinin təminatçısı olan ordusundan hər gün qələbə xəbərləri eşidirdi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri bununla xəyalları gerçəkləşdirirdi. Silahlı Qüvvələrimizin şəxsi heyəti Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qanı və canı bahasına uzun illər ermənilərin tapdağında qalmış torpaqlarımızı azad etdi. Sentyabr ayının 27-də başlanan Vətən müharibəsi 10 noyabr 2020-ci ildə Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Azərbaycan Ordusu ölkənin müstəqilliyinin təminatçısı olduğunu bir daha sübut etdi. Zabit və əsgərlərimiz döyüş meydanlarında böyük hünər və rəşadət göstərərək, adlarını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazdılar. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu ordu Vətən müharibəsində Zəfər çaldı.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycanlı olmağı ilə fəxr edən böyük şəxsiyyət



Hər bir xalqın adət-ənənələri, yaşayış tərzi, milli-mənəvi dəyərləri kimi, dili də özünəməxsusdur. Dil cəmiyyətin təşəkkülü və inkişafında, xalqın mənəviyyatında, mədəniyyətində ən mühüm amillərdən biridir. Onun varlığı mənsub olduğu xalqın taleyi, səadəti ilə sıx bağlıdır. Tarixdən bəllidir ki, işğala məruz qalmış, azadlığı itirilmiş ölkələrdə bütün milli-mənəvi dəyərlərə təhlükə və təhdid yaranır.

Doğma dilini gərəyincə yaşatmaq, onun saflığını qorumaq və daha da inkişaf etdirmək ən ümdə vəzifəsi olan xalqın azad, dövlətinin müstəqil olması ən böyük səadətidir. Azərbaycan xalqı XX əsrin sonlarında yenidən bu səadətə qovuşdu. Bundan sonra dünyanın ən qədim, zəngin, ahəngdar dillərindən biri, tariximizin qədimliyinin, mədəniyyətimizin özünəməxsusluğunun göstəricisi olan, elmi, bədii, üslubi imkanları ilə seçilən ana dilimizin yaşadılmasında, yad ünsürlərdən qorunmasında, inkişaf etdirilməsində yeni imkanlar açıldı.

## Hər bir millətin mənliyinin əsası

Ana dilimizin saflaşması, yad ünsürlərdən qorunması, inkişaf etdirilməsi, dövlət dili səviyyəsinə yüksəlməsi istiqamətində misilsiz xidmətlər göstərən Ümummilli Lider Heydər Əliyev deyirdi: "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir".

Ulu Öndər xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək dəyərləndirirdi. "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" deyirdi.

Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olmadığı zamanlarda ana dilimizə ögey münasibət bəslənildi, sıxışdırıldı. Bunu keçmiş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dövründə də gördük. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilini qorumaq üçün böyük çətinliklərlə, təzyiqlərlə qarşılaşdı. Onun tariximizə, mədəniyyətimizə, mənəviyyatımıza dərindən bələd olması, zəngin təcrübəsi nəticəsində 1960-cı illərin sonlarından etibarən həyata keçirilən dil siyasəti tariximizdə mühüm hadisəyə çevrildi. Dilçi alim Nizami Xudiyev qeyd edirdi: "Mübaliğəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşib nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi tanınmış dövlət xadimi Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır".

1978-ci il aprelin 21-də qəbul olunan Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili statusu barədə 73-cü maddənin daxil edilməsi üçün Heydər Əliyev böyük qətiyyət göstərdi. Ulu Öndər sonralar həmin dövrü belə yada salırdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

## "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir"

Ötən yüzilliyin axırlarında, dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın ictimai-siyasi, sosial, mədəni həyatında bir çox mühüm hadisə baş verdi. Bir sıra əhəmiyyətli məsələlər yenidən gündəmə gətirildi və onların həlli istiqamətində məqsədyönlü tədbirlər görüldü. Bu sırada ana dilimiz mühüm yer tutdu. 1995-ci ilin 31 oktyabr-11 noyabr tarixləri arasında Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili məsələsi Milli Məclisdə müzakirəyə çıxarıldı. Azərbaycan Respublikasının dövlət dilinin yekdil fikirlə Azərbaycan dili olması təşəbbüsü irəli sürüldü. 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili elan olundu.

Heydər Əliyevin 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda müstəqil dövlətimizin rəsmi dili olan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə, ana dilimizin öyrənilməsi və cəmiyyətdə işlənmə mexanizminin təkmilləşdirilməsinə, həmçinin bu sahədə həyata keçiriləcək tədbirlərə nəzarətin gücləndirilməsi, bu məqsədlə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi bir vəzifə olaraq qarşıya qoyuldu. Eyni zamanda fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı, "Azərbaycan Respublikasında dövlət dili" haqqında qanun layihəsinin hazırlanması barədə aidiyyəti qurumlara göstərişlər verildi.

Öz ölkəndə doğma dilində danışmaq, yazmaq misilsiz xoşbəxtlikdir. Bu möhtəşəm duyğunu Ümummilli Lider belə ifadə etmişdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

2001-ci il avqustun 9-da Heydər Əliyev "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman imzaladı. Hər iki fərmandan - "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanlardan irəli gələn tələblərə uyğun olaraq, ölkə ərazisində yaşayan hər kəs, bütün Azərbaycan vətəndaşları doğma dilimizi öyrənməli, bütün dövlət sənədləri bu dildə aparılmalıdır.

2002-ci il sentyabrın 30-da Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət dilinin işlənməsi, inkişafı, saflığının qorunması, ədəbi dilin normalarına əməl edilməsi, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafı üçün lazımi şəraitin yaradılması və digər mühüm məsələlər əksini tapdı.

2003-cü il yanvarın 2-də Ümummilli Liderin imzaladığı "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman ana dilinin tətbiqi və inkişafında daha bir mühüm sənəd oldu.

Heydər Əliyev deyirdi: "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir". Bildirirdi ki, hər bir Azərbaycan gənci birinci növbədə gərək öz dilini, ana dilini bilsin: "Bu, ölkənin dövlət dilidir və gənc bu dildə təhsil alsın, bu dildə yazsın, bu dildə oxusun. Məhz bu dildə Azərbaycan xalqının zəngin tarixini, mədəniyyətini, əsrlər boyu yaranmış böyük irsini öyrənə bilsin". O, tələbələrlə görüşlərinin birində bildirmişdi: "Mənim şəxsən arzum budur ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim gözəl, zəngin, cazibədar dilimiz var və onu heç bir şeyə dəyişmək olmaz".

## Milli-mənəvi dəyərlərin hamisi

Tarixinin ən mürəkkəb, ən ziddiyyətli, ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini, adət-ənənəsini qoruyub saxlamağı, nəsillərdən-nəsillərə ötürməyi bacarması Azərbaycan xalqının böyüklüyünün bariz nümunəsidir. Heydər Əliyev bildirirdi: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Ümummilli Lider Heydər Əliyev həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə səy göstərirdi.

Respublikamızda ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə təsdiq etdi. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə - 1993-2003-cü illərdə xalqımızın mənəvi dəyərlərinin təbliğində və gənclərimizin bu ruhda tərbiyə olunmasında məqsədyönlü işlər həyata keçirdi.

Ümummilli Lider bildirirdi ki, hər xalqın öz mentaliteti var, bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir: "Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

Ümummilli Lider hər bir azərbaycanlının qəlbindən keçən bu hissləri qürurla belə ifadə etmişdi: "Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Dostluğun siması" sənədli filminin və "Heydər Əliyev - Gürcüstan" kitabının təqdimatı olub

**AMEA-nın Rəyasət Heyətində Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş, Gürcüstanın "Dalğa" televiziyasının və "ERA" film studiyasının birgə ərsəyə gətirdiyi "Dostluğun siması" sənədli filminin və "Heydər Əliyev - Gürcüstan" kitabının təqdimat mərasimi keçirilib.**



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə və dünyada Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş silsilə tədbirlərin keçirildiyini, bu təqdimat mərasiminin də Ulu Öndərin əziz xatirəsinə ithaf edildiyini bildirib.

Ulu Öndərin dünyada sülhün qorunmasına və təhlükəsizliyin təmin edilməsinə misilsiz töhfələr verdiyini deyən AMEA rəhbəri dahi liderin Qafqazda həyata keçirdiyi siyasətin təməlində birliyin və əmin-amanlığın dayandığını söyləyib.

Prezident İlham Əliyevin Ümummilli Liderin ideallarını inkişaf etdirərək və daha da zənginləşdirərək ölkəmizi dünyada söz sahibi olan dövlətlərdən birinə çevirdiyini deyən İ.Həbibbəyli bugünkü Azərbaycanın uğurlarının təməlində dahi liderin arzularının dayandığını vurğulayıb. Bildirib ki, Ali Baş Komandan İlham Əliyevin liderliyində hər birimizin arzusuna çevrilmiş Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub, bütün ölkə ərazisində Dövlət bayrağımız ucaldılıb.

Ümummilli Liderin həm də Azərbaycana dost və etibarlı tərəfdaşlar qazandırdığını deyən AMEA rəhbəri bunların içərisində Gürcüstanın xüsusi yer tutduğunu söyləyib. Qeyd edib ki, müasir dövrdə bu dostluğun təməllərini Ümummilli Lider Heydər Əliyev və Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadze atıb və hər iki lider "Qafqaz evi"nin yaranmasına və daim qorunmasına çalışıb.

Əməkdar jurnalist Şahismayıl Şəmmədoğlunun müəllifi olduğu "Heydər Əliyev - Gürcüstan" kitabını və ssenari müəllifliyi ilə çəkilən "Dostluğun siması" sənədli filmini yüksək qiymətləndirən İ.Həbibbəyli filmdə gürcü ziyalıların Ulu Öndər haqqındakı ali fikirlərinin iki ölkə arasındakı bugünkü münasibətlərin göstəricisi olduğunu bildirərək kitabın və sənədli filmin elmi əhəmiyyətini diqqətə çatdırıb.

Gürcüstan Stateji Araşdırmalar Mərkəzinin sədri Levan Mamaladze "Heydər Əliyev və Gürcüstan" filminin əhəmiyyətindən bəhs edib. Ümummilli Lider Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla aparıldığını, ölkənin ərazi bütövlüyünün bərpa edilməsinin bütün dünya, o cümlədən Gürcüstan üçün unikal nümunə olduğunu vurğulayan Levan Mamaladze bu tarixi hadisələrin ümumilikdə Qafqaz üçün əhəmiyyətindən danışıb.

Digər çıxış edənlər Azərbaycan-Gürcüstan əlaqələrindən, Ulu Öndərin Qafqaz siyasətindən danışıb, filmin və kitabın ərsəyə gəlməsini yüksək qiymətləndiriblər.

Çıxışlardan sonra ssenari və ideya müəllifi, həmçinin prodüseri Şahismayıl Şəmmədoğlu, quruluşçu rejissorlar isə Elnur Vəlizadə və Georgi Toradze olan "Dostluğun siması" sənədli filmi nümayiş etdirilib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

---

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu

# "Bakı Prosesi" nüfuzlu qlobal platformaya çevrilib

"Səlib yürüşlərinin, dini toqquşmaların və təriqət savaşlarının az qala sərhədlərimizə çatdığı bir vaxtda Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi bəşər sivilizasiyasına ən real töhfə, dünyaya isə ən zəruri mesajdır. 2008-ci ildə İlham Əliyevin müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun və əməkdaşlığın gücləndirilməsi məqsədilə irəli sürdüyü təşəbbüsü - "Bakı Prosesi" formatında reallaşan bu forumda 110 ölkənin təmsil olunması göstərdi ki, Azərbaycan Prezidenti bu istiqamətdə hədəfinə çatıb və cari platformaya qlobal miqyas qazandırıb".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat söyləyib ki, xüsusən COVID və post-COVID dövrü ilə əlaqədar olaraq, dünya birliyinin 60 faizinin 5 il keçəndən sonra yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ümid kimi baxması, habelə platformanın gündəliyinin əvvəlki illərə münasibətdə xeyli genişlənərək iqlim dəyişikliyi və süni zəka kimi əlavə amilləri də əhatələməsi, sözün əsl mənasında, siyasi qələbədir: "Əslində, bu situasiya bizi təəccübləndirmədi, çünki bizə də, bu platformaya maraq göstərənlərə də bəlli idi ki, İlham Əliyevin özünün də ifadə etdiyi kimi, "gündəlikdə olan məsələlərin müzakirəsi və həllində Azərbaycanın öz təcrübəsi var". Digər tərəfdən, təkzibolunmaz bir fakt da var ki, proseslər Azərbaycan Prezidentinin personası ətrafında cərəyan edir və bu platformaya kütləvi maraq həm də Prezident İlham Əliyevin şəxsiyyətinə olan inamın göstəricisidir. Daha doğuq desək, dünya məhz Azərbaycan Prezidentinin özünün də tədbirdə ifadə etdiyi kimi, "ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirməklə - mədəniyyətlərarası dialoq daha təhlükəsiz bir ekosistem yaratmağın mümkünlüyünə inanır. Bu inamın təməlində isə Azərbaycan təcrübəsi dayanır".

Bəhruz Məhərrəmov söyləyib ki, əvvəla, Azərbaycanın Şərq ilə Qərb arasında yerləşməsi, mövcud siyasi kursun isə bu coğrafi mövqeyi əlahiddə üstünlüyə çevirməsi Bakıya bir neçə addım öndən başlamaq imkanı verir: "İkincisi, bu gün insan haqları və demokratiyadan danışan bir çox Qərb ölkələri, o cümlədən özünü "mədəniyyətin beşiyi" adlandıran Fransa etnik müxtəlifliyə açıq təhdid kimi baxır və məcburi assimilyasiya tədbirlərini aşkar formada həyata keçirməkdən çəkinmir. Məsələn, dənizaşırı ərazilərdə həyata keçirilən cinayətlər, habelə Korsikada milli dilin qadağan olunması kimi çoxsaylı nümunələr mövcuddur. Azərbaycan isə tam əksinə, çoxmədəniyyətliliyə, çoxkonfessiyalı və mürəkkəb etnik müxtəlifliyə malik olmağa dövlətimiz və cəmiyyətimiz üçün təhdid və ya problem kimi yox, özünün ən mühüm sərvəti kimi yanaşır. Tolerantlıq, qarşılıqlı hörmət, dostluq və tərəfdaşlıq kimi dəyərlər milli ideologiyanın tərkib hissəsi kimi bütün səviyyələrdə qətiyyətlə qorunur. Dövlət başçısının Qlobal Bakı Forumundan dünyaya bəyan etdiyi kimi, "Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar". Bu isə Azərbaycanın Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etməsinə həm mənəvi, həm də hüquqi cəhətdən haqq qazandırır".

Deputatın sözlərinə görə, müxtəlifliklərin təhdidə çevrildiyi və bir çox cinayətlərin, o cümlədən məkrli siyasi addımların çoxunun dinlə əlaqələndirilməsi ilə müşahidə olunan mürəkkəb bir şəraitdə tolerantlıq və qarşılıqlı hörməti İlham Əliyevin rəhbərlik etdiyi ölkənin uğurlarını şərtləndirən amillərdən birinə çevirdiyi sirr deyil. Bu, əslində, qlobal zəmində ən çox ehtiyac duyulan situasiyadır. Çünki ötən dövr ərzində qlobal miqyasda proseslər nəinki müsbət məcrada inkişaf etməyib, əksinə, yeni münaqişə ocaqları və qeyri-sabitlik mənbələri yaranıb, tamamilə fərqli xarakterli təhdidlər meydana çıxıb.

"Azərbaycan getdikcə ağırlaşan bu proseslərdən qalib çıxan yeganə beynəlxalq subyektdir. Məlumdur ki, Azərbaycan ilk növbədə özünün ərazilərini işğaldan qurtarmaqla və Cənubi Qafqazda ən uzunmüddətli və təhlükəli sayılan təcavüzə son qoymaqla, beynəlxalq hüququn aliliyini təmin edərək yeni reallıq yarada bilib. Həmçinin dünyanın ikinci nüfuzlu təsisatına - Qoşulmama Hərəkatına rəhbərliyi dövründə Bakı qlobal miqyasda imperializm və müstəmləkəçilik siyasətinə qarşı sərt mövqe tutaraq, o zamana qədər göz yumulan cinayətlərə, o cümlədən fransız neokolonializminə ciddi zərbə vurub", - deyə müsahibimiz əlavə edib.

Bəhruz Məhərrəmov həmçinin qeyd edib ki, ötən dövrdə Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi, təsisatın özünün fəaliyyətində dönüş yaratmağa da nail olub, yeni dövr başladıb. Qoşulmama Hərəkatını ətalətdən qurtarıb işlək mexanizmə çevirməklə, hərəkatın təsisatlanması seqmentini gücləndirməklə, təsisat daxilində şəbəkə yaradılması, qadınların və gənclərin təşkilatlarının təsis edilməsi kimi tarixi gedişlər həm də çoxtərəfliyin təntənəsi hesab olunmalıdır.

Deputat onu da bildirib ki, məhz uğurlu fəaliyyətinin nəticəsidir ki, Azərbaycan yekdil qərarla COP29-a ev sahibi seçilib: "Bu, real nəticələrə əsaslanan həqiqi dünya ictimaiyyətinin Azərbaycana və əlaltxisus Prezidentimizə böyük inam və ehtiramının göstəricisidir. Bu nüfuzlu prosesə rəhbərlik edəcək ölkə kimi Azərbaycanın hədəfləri aydındır.

Müsahibimiz sonda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Azərbaycan Prezidentinin "Biz indi öz rolumuzu körpülərin salınmasında görürük" ifadəsinə diqqət çəkib. Vurğulayıb ki, tədbirin auditoriyası dəməyə əsas verir ki, Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları qarşıya qoyulan məqsədlərlə bağlı öz töhfəsini verəcək və qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılması üçün ciddi addımlar atılacaq.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

---

# Mədəniyyətlərarası dialoqda turizmin mühüm rolu var

**Ölkəmizin paytaxtı dünyanı təhdid edən çox ciddi problemlərin müzakirə olunduğu və həlli istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi yollarının müəyyənləşdirildiyi beynəlxalq platformaya çevrilib. Bakı Konqres Mərkəzində keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da bu məqsədə əhəmiyyətli oldu.**

Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən tədbirdə 100-dən çox ölkəni 700 nümayəndəsi qonaq təmsil etdi. Dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün mayın 1-dən 3-dək ölkəmizdə bir araya gələn yüksəksəviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar tərəfdaşlığın möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoq çərçivəsində mühüm və aktual məsələlərin təşviqi üçün fikirlərini bölüşdülər.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu beynəlxalq tədbirin əhəmiyyətini vurğuladı: "Dünya VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna toplaşdığı zaman biz gələcəyimizi öz əllərimizdə saxlayırıq. Burada - Bakının mərkəzində bizim dünyanın gələcəyinə təsir etmək fürsətimiz var. Bu, ümid, anlaşma və dirçəlmə gətirə biləcək dinlərarası dialoq dünyasıdır. Burada dayanıqlı inkişaf, təhsil və turizm bizi bir-birimizə yaxın edir. Burada sosial media və süni intellekt bəşəriyyəti parçalamır, birləşdirir. Bakı COP29 Sammitinə evsahibliyi edəcəyi vaxtda biz iqlim dəyişmələrinin yaratdığı çətinliyi aradan qaldırmaq üçün millətlərin bir araya gələcəyi dünyanı formalaşdırmaq istəyirik".

Üç gün davam edən forum çərçivəsində təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edən plenar sessiyalar və panel müzakirələr keçirildi. Müzakirəyə çıxarılan mühüm mövzulardan biri də turizm oldu. Belə ki, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Turizm insanları birləşdirən və mədəniyyətlərarası dialoqu təşviq edən alət kimi" adlı panel sessiya təşkil olundu.

Sözügedən sessiyada çıxış edən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev COVID pandemiyasından sonra bu il ölkəmizdə turizm sahəsinin tam bərpasına nail olunduğunu, xarici turistlərin sayında xeyli artım qeydə alındığını diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycanda turizm sahəsinin inkişafına böyük diqqət yetirilir. Azərbaycanın turizm potensialı yüksəkdir: "Həmçinin turizm insanları birləşdirmək imkanı yaradır. Bütün dünya üzrə turistlərin sayının artmasını nəzərə alaraq, fərqli mədəniyyətlərə malik insanlar davamlı şəkildə mübadilə edirlər. Turizm mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır".

"Turizm insanları birləşdirən və mədəniyyətlərarası dialoqu təşviq edən alət kimi" adlı panel sessiyasında çıxış edən BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Zoritsa Urseviç Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, forum vasitəsilə mədəniyyətlərarası dialoqa təsir göstərə bilirik: "Turizmin gəlir yerlərinin yaradılmasında rolu məlumdur. Daha aydın desək, iş yerlərinin 10 faizi məhz turizmlə bağlıdır. Dünyada 2023-cü ildə 1 trilyondan çox turist qeydə alınıb. Bu, kifayət qədər böyük rəqəmdir. Bu mənada, turizmin daxili və beynəlxalq dialoqa necə şərait yaratdığını görürük".

Sarayevo Şəhər Şurasının sədri Yasmin Ademoviç turizmlə bağlı gənclərdə ortaq fikrin çox olduğunu dedi. Gənclərə turizmlə bağlı daha çox məlumat verilməsinin vacibliyini nəzərə çatdırdı.

"Songa Africa"nın təsisçisi Roset Şantal öz çıxışında Ruandanın turizmin bərpası baxımından yaxşı nümunə olduğunu söylədi: "Bu ölkə keçikdir və hazırda bərpa olunur. Turizmin bu baxımdan böyük rolu var. Ölkəmizdə yoxsulluğun aradan qaldırılması və statusunu yaxşılaşdırmaq üçün turizmi inkişaf etdirdik. Yenidənbərpa üçün turizm əsas şərtdir. Bu da sülh olmadan mümkün deyil".

Dünyada son zamanlarda gənclərin ciddi çağırışlarla üzləşdiyini qeyd edən turizm sektorunda gənclər və istedadların inkişafı üzrə ekspert Lusi Qarner onların fikirlərini dinləyib dəyərləndirməyin gərəkli olduğuna diqqəti çəkdi. Bildirdi ki, əsas məqsəd müxtəlif dinə və mədəniyyətə mənsub olan gənclərin ünsiyyətinə şərait yaratmaq olmalıdır: "Bunun üçün birgə layihələrin həyata keçirilməsi şərtdir. Düşünürəm ki, mədəniyyətlərarası dialoq bu baxımdan böyük təsir göstərəcək".

Turizmin inkişaf etdirilməsinin vacibliyindən söz açan Dünya Turizm Etikası Komitəsi sədrinin icraçısı Daniela Otero bu sahənin inkişafı üçün belə forumların keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Çıxışında turizm sahəsində icmalara dəstək göstərən layihələrin vacibliyindən bəhs edən "Get up and go Colombia"nın həmtəsisçisi və direktoru Migel Karvaxal bununla bağlı mərkəzlərin daha çox qurulmalı, həmin yerlərdə insanlara turizmlə bağlı məlumatların verilməli olduğunu vurğuladı: "Düşünürəm ki, bütün ölkələrdə bu cür yerlər olmalıdır. Çünki həqiqətən də, turizm çox vacib sahədir".

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

---

# Makron Fransanı nüfuzdan salıb

**"Neokolonializm siyasətini davam etdirən Fransa müstəmləkəsində olan xalqların hüquqlarına hörmət etmir. Özünün dünyadakı hegemonluğunu təmin etmək məqsədilə yeni müstəmləkəçilik strategiyaları həyata keçirir. Bununla yanaşı, Paris onun cinayətkar əməllərini ifşa edən Bakıya qarşı açıq düşmənçilik sərgiləməkdən də çəkinmir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat söyləyib ki, Fransanın Azərbaycana qarşı riyakarlıq üzərində qurulmuş oyunları bu ölkənin çirkin niyyətlərindən xəbər verir: "Müstəmləkələri üzərində hegemonluğunu itirmək üzrə olan Paris Cənubi Qafqazda hərbi mövcudluğa nail olmaq istəyir. Bu məqsədlə ölkəmizə qarşı apardığı "qara piar" kampaniyalarını davam etdirir, ermənidən daha çox erməni olmaq istəyir. Təbii ki, bu ssenaridə əsas rolu Fransa prezidenti Emmanuel Makron oynayır. Hər addımında Azərbaycana və Türkiyəyə qarşı əsassız iddialarla çıxış edən Makronun komandasının üzvləri riyakarlıq göstərməkdə heç də ondan geri qalmırlar".

Deputat Fransanın "ölmüş" kolonializmə nəfəs vermək cəhdlərini beynəlxalq münasibətlər sistemi üçün təhlükəli hesab edir. Müsahibimiz bildirir ki, Makron hakimiyyətinin bu cəhdləri Parisi nüfuzdan salır, dünya ictimaiyyətinin fransızlara inamını azaldır. "Makron əsassız planlarını reallaşdırmağa cəhd etməklə birbaşa Fransa dövlətçiliyinə zərbə vurur. Ölkəsinin daxili problemlərini həll etmək əvəzinə, özünə aiddiyəti olmayan qlobal məsələlərə münasibət bildirir, hətta müharibə cinayətlərinə haqq qazandırır. Hər addımda beynəlxalq hüququn norma və prinsiplərini pozan Makron Fransanı bu gün böyük uçurumun kənarındadır", - deyə deputat qeyd edib.

Məlahət İbrahimqızı həmçinin onu da deyib ki, Fransanın Cənubi Qafqazla bağlı siyasəti kökündən yanlışdır. Makron Fransası regiondakı mövcud reallıqları düzgün qiymətləndirmir, Azərbaycanın yaratdığı reallıqları qəbul etmək istəmir: "Azərbaycana təzyiq göstərmək üçün müxtəlif "qərarlar" qəbul edərək, müstəmləkə siyasətini Cənubi Qafqaza da yeritməyə çalışır. Beynəlxalq təşkilatlarda ölkəmiz əleyhinə qətnamələrin qəbul olunması üçün dəridən-qabıqdan çıxan rəsmi Paris, bu azmış kimi, Ermənistanı silahlandırır. Lakin unudur ki, bu addımları Fransanı regionumuzdan daha da uzaqlaşdırır, ölkəmizə qarşı məkrli siyasət yürütməklə Mərkəzi Asiya ölkələri ilə əlaqə qurmaq imkanlarını da itirir".

Deputat Fransa kimi bəzi dövlətlərin və təşkilatların Azərbaycanla təhdid dili ilə danışmağının da mümkünsüzlüyünü vurğulayıb. Müsahibimiz deyib ki, bu cür addımlar heç bir təsir imkanlarına malik deyil. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, "Azərbaycanla kimsə təhdid, şantaj dili ilə danışa bilməz".

*N.QAFARZADƏ, "Azərbaycan"*

---

# "Fransadan regionda vəziyyəti gərginləşdirməməyi və sülhə manеə olmamağı tələb edirik"

**"Fransanın Ermənistandakı səfiri, azərbaycanofob Olivier Dekotini "Azadlıq" radiosunun erməni xidmətinə mayın 8-də verdiyi müsahibəsində bir daha məsuliyyətsiz və destruktiv bəyanatlar səsləndirərək, regiondakı vəziyyəti gərginləşdirməyə və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində müsbət dinamikanı pozmağa çalışıb.**

Azərbaycanın guya Ermənistan ərazilərini işğal altında saxladığını və hücum niyyətində olduğunu iddia edən səfir yaxşı bilir ki, bütün bunlar Fransanın Cənubi Qafqaza soxulması, Ermənistana silah satışına haqq qazandırmaq üçün ortaya atdığı uydurmadır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Dekotininin Azərbaycanın Qarabağ bölgəsindən köçüb getmiş ermənilərin qayıdışı ilə bağlı beynəlxalq instansiyaların guya dəstəyinin olmasına dair sərsəmləməsi ilə əlaqədar olaraq, icma ilk növbədə Fransanın Ermənistandan qovulmuş azərbaycanlılara münasibətdə nümayiş etdirdiyi ayrı-seçkiliyi qınayır. Bundan əlavə, "beynəlxalq instansiyalar" təkcə islamofob, korrupsioner Avropa Parlamenti deyil. "Beynəlxalq instansiyalar" həm də bu günlərdə keçirilmiş Bancul sammitində Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına qayıdışı barədə birmənalı qərar verən İslam Əməkdaşlıq Təşkilatı və ona üzv olan 57 ölkədir.

Dekotinin Parisin məsləhətləşmə üçün geri çağırdığı və təkrar Bakıya geri göndərdiyi səfir Ann Buayonun harada olması barədə suala verdiyi cavab bütün diplomatik normalardan kənar, ucuz və cılız xarakter daşımaqla, onun şəxsən özünün və Fransanın destruktiv yanaşmasını ortaya qoyur. Faktiki olaraq, Fransa siyasiləşmiş erməni kilsəsinin və "ruhaniləri"nin hazırda Ermənistanda apardıqları dini radikalizmini, revanşizmi və antisülh fəaliyyətini dəstəkləyir. Fransız səfirin "ermənidən çox erməni" olmaq istəyi, Azərbaycanın əleyhinə yersiz "atmacaları", özünü "dövrün Taleyranı" hesab etməsi acınacaqlıdır.

Qərbi Azərbaycan İcması Fransadan destruktiv siyasətindən əl çəkməyi, regionda vəziyyəti gərginləşdirməməyi və sülhə manеə olmamağı tələb edir".

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 mart (Bazar ertəsi günü) tarixli 127-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 30 cəmadiyələvvəl sənə 1337.
3 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## MÜRACİƏTNAMƏ

### Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən

Həyati-siyasiyyə içrə camaat müharibə və hərc-mərcliyin minlərcə nahaq qurbanlarını yadlarından çıxarmışdır. Evsiz, ac və naxoş qaçqınlar Azərbaycanın hər yerinə dağılmışlardır. Bir tək Qarabağda arvad, uşaq və qocalar üzərinə hücum edən quldur dəstələrinin xainanə əli ilə 119 müsəlman kəndi xarabazara döndərilmişdir və 50 mindən ziyadə bu kəndlərin qaçqınları Qarabağın düzlərində və çöllərində ahzar edirlər. Onların arasında səpmə yatalaq azarı dəhşətli bir surətdə hökmfərma olub [hökm sürüb], üsrətdən [çətinliklərdən] və qəm-qüssədən özünü itirmiş insanları amansız bir surətdə biçməkdədir. Bundan əlavə, arvad və uşaqları tanınmaz bir hala salmış olan aclıq və bir köynək ilə bədənləri göyərmiş balaca uşaqları titrətməkdə olan soyuq daha amansız bir surətdə hökm-fərmadır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ qaçqınlarının ehtiyacını öyrənmək və onlara müavinət etməkdən ötrü təşkilatlar düzəltməyə göndərilən xüsusi komissiya bir çox arvad və uşaqların ac və çılpaq qaldığını görmüşdür. Bir tək Qarabağda 50 min nəfər qaçqın vardır. Bunlardan əlavə, Şamaxıda, Lənkəranda və İrəvan quberniyasından Gəncəyə, Qazaxa gələn nə qədər qaçqınlar vardır. Bu bədbəxtlər Azərbaycanın hər yerində soyuqdan, aclıqdan və xəstəlikdən məhv olurlar. Bu biçarələri ölümdən xilas etməkdən ötrü təcili surətdə pul, paltar və ərzaq şeyləri ilə geniş bir dairədə müavinət [kömək] lazımdır. Bunun üçün böyük pul lazımdır. Hökumət, camaatın köməyi olmadan bu qaçqınları lazımi qədər təmin etmək iqtidarında deyildir. Buna görə hökumət, Azərbaycan vətəndaşlarına müraciətlə bu qaçqın qardaşlara müavinət göstərməyə dəvət edir. Sizin köməyiniz gözlənir. İsti evdə qarnı tox, salamat və aclıq, soyuqluq dəhşətini görməyənlər qulaqlarını tutmamalıdırlar. Öz uşaqlarınıza baxaraq çörəksiz, paltarsız, soyuqda titrəyən bədbəxt yetimləri yadınıza salınız! Hər kəs öz qüvvəsinə görə pul və paltarla müavinət etsin. Bir qəpiyə də utanmayınız. Dama-dama göl olar, deyiblər. Yüz minlərcə öz qardaşlarınızı amansız əcəldən xilas etməkdən ötrü hər kəs öz payını versin. İanələr qəbul olunur. Pul vermək istəyənlər Naberejni küçədə 33 nömrəli evdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsinə, şey vermək istəyənlər Nikolayevski küçədə Parlaman binası altında "İsmailiyyə" binası tərəfindən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin mərkəzi anbarına müraciət etməlidirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

**Amerikada Vilsondan narazıdırlar**

Amerikada Vilsonun siyasətinə edilən tənqid Vilson Amerikada olmadığı müddət ərzində daha da artmışdır. Bu narazılıq Vilsonun Sülh Konfransında olan məramnaməsindən, bundan əlavə, Yevropada olan möhtac hökumətlərə 100 milyon dollar borc verilməsi münaqişəsindən nəşət etmişdir [irəli gəlmişdir]. Rəisi-cümhur namizədi Hardinq övdət edən [qayıdan] saldatlara iş vermək üçün təzə məramnamə hazırlamaqdan ötrü Vilsonun qayıtmasını tələb etmişdir. Hardinq demişdir ki, bolşevizmin qərbə tərəf yolunu saxlamaq əhalini ərzaqdan təmin etməklə olar.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Sülh Konfransının təsəvvüratına görə Elzas-Loren əhalisinə də Fransa əhalisi misalı tezliklə haqq və ixtiyar vagüzar edilməlidir [verilməlidir]. Bəzi tədabir ancaq ittifaqlarda tətbiq ediləcəkdir. Buna görə Sülh Konfransı əhalini cümhuriyyət qanunlarından istifadə etməkdən məhrumedici hər cür tədabir layihəsi əleyhinə olacaqdır. Konfrans heyəti-rüəsası [rəyasət heyəti] çaharşənbə [çərşənbə] günü gündüz vaqe olan iclasda Belçika komissiyası üzvünün konfrans şurası tərəfindən vəkalətinin dürüst müəyyən və aşkar edilməsi xahişinə, Transilvaniyada romaniyalılarla macarlar arasında ixtilaf olmaması üçün görülməsi lazım gələn tədbirlərə və erməni komitəsi ilə Ermənistan Cümhuriyyəti sədri Poqos Nubar paşa tərəfindən təqdim edilən Ermənistan tələbatına baxılmışdır.

Qupers sədarəti [sədrliyi] altında beynəlmiləl qanunlarına baxan komissiyanın iclası vaqe olmuşdur. İngiltərə layihəsinin beynəlmiləl qanunlarına görə öz vəzifəsini ifa etməyən hökumətlər haqqında görüləcək tədbirlərə dəxli olan maddələrinə baxıldıqdan sonra, iclas müstəmləkələrdə beynəlmiləl ... təşkilatı məsələsilə məşğul olmuşdur. ... bu təşkilatın gələcəkdə təbdili [dəyişdirilməsi] məsələsinə də baxılmışdır.

**Cəmiyyəti-Əqvamda**

Parisdən verilən xəbərdə deyilir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası yunan, Polşa və Romaniya nümayəndələrinin müzakiratda iştirak etmələrinə müttəhidülqövl [yekdilliklə] razı olmuşdur. Komissiya öz işlərinin üçdən bir hissəsini görüb, Cəmiyyəti-Əqvam təşkil edilməsi məqsədinə müstəqim [birbaşa] münasibatı olmayan bir çox maddələri müzakirə etmişdir. Komissiyanın maddələr haqqındakı qərarları müvəqqətidirlər. Bir çox gözlənilən müşkülatlar rəf edilib [aradan qaldırılıb], bütün layihəyə münasibəti olan əsaslar haqqında ümumi saziş hüsula gəlmişdir. Buna görə qalan maddələrin də tezliklə müzakirə ediləcəyi gözlənir.

## QƏZETƏLƏRDƏN

**Rusiya haqqında Müttəfiqlər**

Müttəfiqlər Rusiyanı cəmahiri-müttəhidə [birləşmiş cümhuriyyətlər] və yaxud federasiya hesab edirlər. Bundan əlavə, Müttəfiqlər sosialist tələbatı ilə uzlaşma olmasını mümkün hesab edirlər. Müttəfiqlərin Rusiya haqqında qəsbedici fikirləri yoxdur. Hərgah bir tərəfdən bu və ya digər surətdə zəbt məsələsi qaldırılarsa, o da Müttəfiqlər siyasəti başında olan məsuliyyətli şəxslər tərəfindən rədd edilər. Amerika və Fransa bu barədə müttə-hidül-rəydirlər [həmfikirdirlər].

**Ermənistan haqqında**

Təzə təşkil olunan hökumətlərə Yevropada hüsn-təvəccöhlə baxıb, millətlərin müstəqil olmaları haqqını təsdiq edirlər. Hal-hazırda muxtariyyətlərin müxtəlif surətlərini öyrənirlər. Ermənistan məsələsini həll edilmiş hesab edirlər. Erməni millətinin arzusu təmin ediləcəkdir. Bu barədə iki plan vardır. Birisi Rusiya Ermənistanının Rusiya Federasiyasına (ola bilər ki Qafqaziya Federasiyasına) daxil edilməsi və Türkiyə Ermənistanından da altı vilayət və Kilikya, Ponti yunanlıları ilə bir yerdə (ola bilər ki bir para kürd tayfaları ilə) əlahiddə [ayrıca] federasiya təşkil edilsin. İkinci plan Rusiya və Türkiyə Ermənistanını bitişdirib Böyük Rusiya federasiyası cümləsinə daxil etməkdən ibarətdir. Birinci planın nöqsanı bundadır ki, Rusiya və Türkiyə Ermənistanı təqsim edildikdə [bölündükdə] Rusiya Ermənistanının dənizə çıxacaq yeri olmayacaqdır.

**Bolşevik cümhuriyyətləri**

Royter acentəliyinə xəbər verirlər ki, bolşeviklər Şura Cümhuriyyətinin federalnı bir hissəsi kimi Litva ilə Çervonnını kommunist cümhuriyyəti elan etmişlərdir.

**Petlyura və Denikin**

Şayiata görə Petlyura fransız generalı Bertlo ilə aşağıdakı şərait üzrə [şərtlərlə] sazişə girmişdir: Petlyura diktator təyin edilir. Fransız komandanlığından bixəbər, Petlyura heç bir hərəkati-hərbiyyəyə iqdam edə [girişə] bilməz. Petlyura əsgərlərinin hər bir bölüyünə fransız müəllimləri təyin edilir. Ukrayna əsgərləri Denikin ordusu ilə birləşib Denikin komandasına daxil olurlar. Ukrayna dəmiryolları, ərzaq mövcüdatı və Ukrayna siyasəti fransızlar ixtiyarına keçir.

**Rostov əhvalı**

Tiflisdə olan İngiltərə heyəti fevralın 27-də xahiş etmişdir xəbər verilsin ki, Rostov və Novoçerkassk həyəcanları haqqında şaye olan [yayılan] xəbərlər əsilsizdirlər. Hər iki şəhərdə halət adi qərar üzrədir. Denikin ordusu bütün cəbhə boyu irəli hərəkət etməkdədir.

**Rusiyada xəstəlik**

Petroqradda, Moskvada və Rusiyanın sair şəhərlərində səpmə yatalaq xəstəliyi hökmfərmadır [hökm sürməkdədir]. Xəstəxanaların birində 12 təbib və 40 şəfqət bacısı vəfat etmişdir. Kifayət qədəri tabut hazırlamaq mümkün deyildir.

**Almaniya gəmilərinin təqsimi [bölünməsi]**

"Tan" qəzetəsinin məlumatına görə, fevralın 19-da vaqe olan Büdcə komissiyası iclasında Almaniya sualtı qayıqlarının məhv edilməsi barəsində Bəhriyyə vəzirinə [Dənizçilik nazirinə] verilən suala məzkur [adı çəkilən] vəzir böylə cavab vermişdir: Mən bu tədbirin qətiyyən əleyhindəyəm və zənn edirəm ki, düşmən gəmiləri Müttəfiq dövlətlər arasında təqsim edilməlidir [bölünməlidir]. Bu cavab Büdcə komisiyyasını qənaətləndirmişdir.

**Petroqrad altında**

Bolşevik simsiz teleqrafı xəbər verir ki, Çud gölünün şimalında Narvada İngiltərə-eston əsgərləri ilə bolşevik əsgərləri arasında müharibələr davam edir. Düşmən tərəfdən uzaqvuran toplar və tanklar iştirak edir.

## AZƏRBAYCAN HƏŞƏRATI

Hamımızın məlumu olan məşhur "Daşnaksutyun" firqəsinin mürəvvici-əfkarı [mətbuat orqanı] və Bakıda nəşr olunmaqda olan "Vperyod" qəzetəsinin 15-inci nömrəsində Zaqatala xristianlarından Bakıdakı Rus Milli Komitəsinə verilmiş "Bir ərizədən" deyə yazılmış bir məqalə, daha doğrusu müğalitənamə [əsassız, qələt sözlər] gördüm. Həqiqətlə münasibəti olmayan bu müğalitənaməni ənzari-amməyə [ictimaiyyətin diqqətinə] ərz və bu haqda bir neçə söz söyləməmi kəndimə borc bildim. İştə, məktub budur:

*"Rusiya inqilabi-əziminin ibtidalarından [Böyük Rusiya inqilabının əvvəllərindən] bu ana qədər Zaqatala okruqu əski idarə məmurları və əhalinin cəhaləti səbəbli bir tilsimə düşübdür. Hələ bu tilsim içindən doğru yola çıxammayır. Əski idarə məmurları əlindən çıxıb yenə siyasi şantajistlər və quldurlar əllərinə keçib və məfövqlərində [özlərindən yuxarıda] kəndilərini təhti-məsuliyyətə alacaq [məsuliyyətə cəlb edəcək] idarələr görmədiklərindən, qəlblərində olan düşmənliklərini izhar [açığa vurmağa] və adət etmiş cinayətlərində davam etməyə başladılar. Bir il yarımdan bəri işbu məmurlar müavinəti [yardımı] ilə okruqdakı müsəlmanlar tərəfindən işlənmiş fövqəladə oğurluq, soyğun və cinayətləri görən əhli-insafın heyrətdə qalmaması mümkün deyildir.*

*Məhəlli [yerli] məmurların vəhşiyanə hərəkətlərinin nəhayəti yoxdur. Bunlar səbəbli bütün dəhşətilə hökmfərma olan [hökm sürən] anarşiya seylabına [selinə] xristianlar açıq-açığına qurban olmaqdadır. Min dürlü cövr və cəfaya, zülmlərə düçar olmayan heç bir xristian kəndləri qalmamışdır. Zaqatala şəhərindəki pravoslavnı kilsəni məscidə təbdil edib [çevirib], məzlum xristianları ibadətdən məhrum etməklə əvvəlki zülmləri bir qat daha artırdılar. Bu kilsənin əmvalını [mallarını] qarət, keşişini qətl etdilər. Xristian qəbirlərini, qəbristanda olan tikililəri dağıtdılar.*

*Məhəlli Azərbaycan məmurlarından vali Haşımbəyov (sabiq Qars valisi müavini), Şabanbəyov, şəhər komissarları Mustafa bəy Qəbulov və Yusif bəy Ağayevlər hal-hazırda belə kəndi mənfəəti-şəxsiyyələri üçün əsassız, dəlilsiz olaraq günahsız adamları, hətta qadınları, çocuqları döymək, söymək, heysiyyətlərinə toxunmaq, mallarını müsadirə etmək və qeyri bunun kimi bəd əməllərdə bulunurlar. Zaqatala okruqunda xristianlara olan hədsiz-hesabsız zülmlərin, talanların, qarətlərin, qətllərin bəziləri göstərilməklə kifayət olunur ki, məhəlli məmurlar bunun önünü almadıqlarından və caniləri bildikləri halda məhkəməyə vermədiklərindən müqəssirdirlər. Qətl edilənlər:*

*1) Gürcü keşişi Mixail (oktyabrda);*

*2) Erməni keşişi Ter-Mkırtıçyan (avqustda);*

*3) Parsam Zaxarov, Keqomona Sakanov (Mazıx kəndində, oktyabrda);*

*4) Serdyuk Artinov, Aleksandr Serkisov (Balakənd yolunda);*

*5) Şamil Qriqoryans, Əmircan Ayrapetov, Mkırtıç Pantoryans, Aqasanov (Carda);*

*6) 6 nəfər Balakənd yolunda: Mendereşvili, Keqo, Vano, Gegile. Bir grek atasıyla və oğlu;*

*7) Baqqal Samson (Balakənd yolunda);*

*8) Qəribşah Ayrapetov, Krebit Avanesov;*

*9) Kazar Qriqoryans (Qax kəndində);*

*10) Sergey Atomyans (Talada);*

*11) Ağamirzə Avanesov, bunun qızını götürüb qaçanda arvadını da yaralamışlardır;*

*12) Petros Petrosov (Talada).*

*Soyulmuşlar:*

*13) Marqarit Stepanyans, Kirkov, Simonov, Şerbakov, Akopov, bir qızın irzinə təcavüz edilmək;*

*14) Aleksandr Avetov, Boqos Akopov və oğlu, Zarya Ananova, Yelena Oskanova, Aram Xaçaturov, Qriqori Baronov və qeyriləri (3 dəfə soyulmuşdur).*

*Administrasiya və məhkəmə yoxluğundan bura xristianları hər bir müavinətdən [köməkdən] məhrum qalmışlardır. Bunlar üzərinə yollar qapalı olduğundan, heç bir yerə gediş-gəlişləri mümkün deyildir.*

*Onu da demək lazımdır ki, burada olan türk əsgərlərindən (!) və müsəlman alayı zabitlərindən çox zülmlər görürük. Bunlar açıq-açığına deyirlər ki, biz Türkiyə hökumətinə yəmin etmişik. Ona görə, başqa hökumətə tabe olmarıq. Bu zabitlər əvvəlki qaçaqlardan daha zalım, daha tərbiyəsizdir. Bunlar hər gün əsgərlər və jandarmalarla xristian evlərinə gəlirlər, heç sual etmədən qapını sındıraraq evə girirlər, məhkəməsiz adamları döyürlər və həbs edirlər. Bir neçə saatdan rüşvət alıb buraxırlar və buraxdıqda döyülmədiyini bildirən qəbz alırlar.*

*Hamıdan artıq zalım, quldur, qaçaq vəzifəsini ifa edən şəhər komissarı Mustafa bəy Qəbulovdur. Mərqum [adı çəkilən şəxs], camaatın 100 min manatdan artıq pulunu yeyib və yediyini də açıq-açığına söyləyir. Qəbulov Likvidasiya Komisyonunun [Ləğvetmə Komissiyasının] sədri olduğu halda "miravoy sud"un [məhkəmənin] və başqa müəssisə şeylərinin talan olunmasına imkan verdi. Bu haqda valiyə olan hər dürlü şikayətlər əncamsız qalır.*

*Gürcüstanla Azərbaycan arasında Zaqatalaya malik olmaq üstündə tabəhal [bu günə kimi] mübahisə davam edərkən, bu söylənən sözlərdən burasını vaqedə [hal-hazırda] Azərbaycan qəsb etdiyi görünür."*

Azərbaycan vilayətindən gəlmiş bir ərzi-halın Azərbaycan Hökumətinə deyil, Rus Milli Komitəsinə verilməsindən və həman ərzi-halın "Daşnaksutyun" qəzetəsində nəşr edilməsindən bu ərzi-halın nə məqsədlə verildiyini hər kəs anlar zənn edirəm.

Bu məktubu oxuyanlardan bir çoxu Zaqatalada xeyli xristian kəndləri olduğunu və bu kəndlərin müsəlmanlar tərəfindən qarət və talan edildiyini zü'miyyatda buluna [haqsız yerə düşünə] bilərlər. Binaənileyh [ona görə], Zaqatala vilayətində bütün xristianların miqdarını göstərməyi kəndimə borc bilirəm: Erməni 270 xanə, rus 17 xanə, gürcü (yəni ingiloy) 560 xanə olub, Qax, Əlibəyli, Meşəbaşı, Alatəmir və Kötüklü kəndlərindən ibarətdir. Demək, kəndlərdə ancaq gürcü milləti vardır. Rus, erməni millətləri isə Zaqatala şəhərində, qismən də Qax qəsəbəsində sükunət etməkdədirlər. Gürcülər yerli, ruslar Nikolay yadigarı, ermənilər Qarabağ və İrəvan tərəflərindən ticarət qəsdi ilə 15-20 sənə bundan müqəddəm [qabaq] gələnlərdir.

1917 oktyabr ortalarında qətl edilmiş gürcü keşişi Mixail tənəssür etmiş [sonradan xristian olmuş] bir adamdır. İslam vaxtında ismi Mirzə olduğuna görə "Mirzə Keşiş" - deyə məşhurdur. Mirzə Keşiş 120 xanədən ibarət olan Tasmalı adlı islam kəndində ancaq bir xristian ailəsinə keşişlik edirdi. Fövqdə məzkur [yuxarıda deyilən] tarixdə Alatəmir isimli gürcü kəndi yanında qətl edilmişdir. Mirzə Keşişin qövmləri [qohumları] Tasmalı kəndinin müsəlmanları öldürmüş olar zənni ilə olsa gərək, Alatəmir yaxınlığında yol ilə ötüb gedən Tasmalı müsəlmanlarından bir arabaçını yoldaşı ilə birlikdə öldürüb, mallarını da aparırlar. Təqibatda bulunan Əliabad nahiyə müdiri Temiraz cənabları məqtul [öldürülən] arabaçının malları ilə bir yerdə caniləri tutur. Canilər Mirzə Keşişin qövmlərindən 4 dənə gürcü olduğu aşkar olur.

Gürcülər Əlibəyli gürcü kəndi yanından keçib gedən 80 sinninə ermiş [yaşına çatmış] Hacı Məhəmməd ismində bir Almalı[lı]nı boğazlamışlardır. Bununla kifayət etməyərək Qax qəsəbəsinə bazarlıq üçün gedən bir müsəlman arabasını gülləyə tutmuşlardır. Arabanın içində olan 2 qadın, 4 kişidən 3-ü ölür, 1-i yaralanır.

İştə bu səbəbli Almalı müsəlmanları ilə Əlibəyli gürcüləri arasında atışma başlanır. Bunu eşidən komissar Musa bəy, Milli Komitə sədri Qazızadə, gürcü keşişi Portsiladze və başqa adamlar həman dəm gedib bu iki kənd adamlarını barışdırır. Atışmada heç bir tərəfdən ölən olmayır. İşbu hadisədən sonra gürcülərlə müsəlmanlar arasında nəinki düşmənlik, heç bir soyuqluq belə olmamışdır və olmayacaqdır da. Ona görə "min dürlü cövr və cəfaya, zülmlərə düçar olmayan heç bir xristian kəndliləri qalmamışdır" cümləsi daşnaklara məxsus uydurma və müfəttinanə [fitnəkarca] bir sözdür.

Məktubda göstərilmiş məqtullar siyahısı doğrudur. Fəqət bu qətllər komissariat və Zaqafqaziya hökumətləri zamanlarında vaqe olmuşdur. Bu hökumətlər vaxtında Zaqatalada qətl edilmiş və soyulmuşlar yalnız xristian olmayıb, bir çox islamlar da qətl və qarətə düçar olmuşdur. Əzancümlə [o cümlədən] polkovnik Hacıxan bəy Sultanov, yoldaşı Səfərağa; bunlar Çobankol kəndi yaxınlığında güllə ilə öldürülmüş və başları daşla əzilmişdir. Dağıstanlı Əmirxanov ismində bir zabit (Balakənd yolunda), Hacı Bilal (şəhər bağları yanında), gənc alimlərimizdən Molla Məhəmmədəli (kəndi evi daxilində), Tala kəndinin yüzbaşısı Ömər adında biri (məsciddən çıxıb evinə gedəndə), Almalı[lı] Hacı Məhəmməd (Əlibəyli kəndi yanında), Tasmalılı ... (Alatəmir kəndi yanında), iki İlisulu (şirəkdə [şumda]), Mosul kəndində bir nəfər (öz evində), Zaqatala şəhərində Həsən Məhəmmədkərim oğlu (öz dükanı daxilində), İran təbəəsindən Şıxəli adında bir nəfər (şəhər hamamının içində).

Soyulanlar: Tiflisdən Zaqatalaya gələrkən bir fayton islam qadınlarını soymuşlardır ki, yalnız Hacı Zeynal Əsgərov və İsmayıl Axundov hərəmlərindən 12 min manatdan fəzlə [çox] pul alınmışdır; Şaban Yusif oğlu, Əziz Qurbanəli oğlu (Balakənd yolunda), Mustafa Məhəmmədzadə, Qeybulla Əhmədov (İtitala yolunda) və qeyriləri.

İştə bu yazdıqlarımdan anlaşılır ki, 1917-ci sənə axırki və 1918-ci sənənin əvvəlki aylarında Zaqatala vilayətində vaqe olmuş qətl və soyğuna yalnız xristianlar deyil, müsəlmanlar da giriftar olmuş, müsəlmanlar bəlkə daha artıq mütəzərrir olmuşdur [zərər çəkmişdir]. Ona görə "bunlar səbəbli bütün dəhşəti ilə hökmfərma olan anarşiya seylabına xristianlar açıq-açığına qurban olmaqdadırlar" sözləri bütün-bütünə yalan və iftiradır. Əgər Zaqatala müsəlmanlarında xristianları qırmaq fikri olmuş isə idi, 1918 fevral 16-22 arasında, yəni 6 günün zərfində İrəvan vilayətində 42 müsəlman kəndini ermənilər xak ilə yeksan edən bir zamanda Zaqatalada heç bir erməni sağ qalmazdı. Halbuki, birinin də burnu qanamadı. Əgər bura müsəlmanları xristianlara zərər iras etmək [zərər yetirmək] istəmiş olsaydılar, daşnaklar bolşevik dərisi geyib bolşeviklərlə birlikdə Bakı-Şamaxı müsəlmanlarını qətl və qarət, qadınlarının irz və namuslarına canavarcasına təcavüz edən bir vaxtda Zaqatala xristianlarını bir saat içində məhv və nabud [yox] edərlərdi. Halbuki bu vaxt bura xristianları bizlə birlikdə rahatcasına yaşadılar və yaşamaqdadırlar. Bilxassə Nikolay yadigarları əvvəlki məmuriyyətlərində əmnü asayişlə [əmin-amanlıqla] iş görməkdədirlər. Yalnız fövqdə məzkur məktubu Bakıya gətirən rusun məmurluğu əlindən alınmışdır. Məəhaza [bununla bərabər] bu da boşda qalmasın üçün sadədil [sadəlövh] müsəlmanlar buna da kooperativlərdə yer vermişlərdir.

Məscidə təbdil edilmiş kilisə haqqında: Zaqatala qalası, şəhərindən 50-60 sajın miqdarda yüksək bir təpədə olduğuna görə, qala ilə şəhərin münasibəti yoxdur. Yəni, qalada ancaq hərbi məmurlar sükunət edir [yaşayır]. Qala içərisində bulunan kilsədə də yalnız hərbi məmurlar ibadət edirlərdi. Rus əsgərləri çəkildikdən sonra qalada islam əsakiri [əsgərləri], islam zabitləri qərarlaşmışdır və həmişə də islam əsakiri olacaqdır. Ona görə qala daxilində olan bu "əsgəri kilsə"nin tövləyə deyil, məscidə təbdil edilməsi [çevrilməsi] lazım və labüd idi. Kilsə təbdil edildikdə içərisində dinə, ibadətə mütəəlliq [məxsus] bütün əşyası həman kilsənin keşişi Portsiladzeyə verildi. Portsiladze isə hal-hazırda sağ və salamat olub, Zaqatala ali-ibtidai məktəbində "zakon bojiy" [şəriət] müəllimidir. Binaə-nileyh [ona görə], "Zaqatala şəhərindəki pravoslavnı kilsəni məscidə təbdil edib, məzlum xristianları ibadətdən məhrum etməklə əvvəlki zülmləri bir qat daha artırdılar; bu kilisənin əmvalını qarət, keşişini qətl etdilər" cümlələri yersiz, olduqca haqsız bir böhtandır. 80-90 nəfər pravoslavnı məzhəbində olanlar üçün şəhər daxilində ayrıca kilsələri vardır. Yuxarıda yazdığım həqiqi və bitərəfanə sözlərimdən, Azərbaycanın təşəkkülündən əvvəl, yəni komissariat və Zaqafqaziya hökumətləri vaxtında Zaqatalada vaqe olmuş məzkur cinayətlərdə milli və dini rəng olmayıb, dinini, milliyyətini tanımayan naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən bilatəfriqidin [din fərqi qoymadan] sadir olduğunu [meydana çıxdığını] və bu məktubun nə məqsədlə yazıldığını hər bir əhli-vicdan hiss və dərk etsə gərək.

Məktubda Azərbaycan məmurlarının da məzkur cinayətlərdə iştirak etmələri dərmiyan edilmişdir [meydana atılmışdır]. Bu tamamən yalan və iftiradır. Çünki məktubda göstərilmiş cinayətlərin, soyğunların hamısı Azərbaycan Cümhuriyyəti dünyaya gəlməzdən əvvəl vaqe olmuş və Azərbaycan Cümhuriyyəti təşkil edildikdən sonra Zaqatalada heç bir xristianın burnu belə qanamamışdır.

Erməni keşişi Ter-Mkırtıç Mkırtıçyans isə Zaqatala vilayəti daxilində öldürülməmişdir. Eşitdiyimə görə, mərqum [adı çəkilən] keşiş Zaqatala ermənilərindən ianə toplayıb, Ararat Cümhuriyyətini təbrik, topladığı ianəni məhəllinə [yerinə] vermək üçün İrana getmişdir.

Aleksandr Serkisov erməni-gürcü müharibəsində Gürcüstandan qaçıb Zaqatalaya gələrkən hüdudda öldürülmüşdür. Bunun da gürcülər tərəfindən yapılması zənn olunur.

Ey daşnaklar! Qars, Ərdahan müsəlmanlarını qırdığınız halda Zaqatalada heç birinizə güldən ağır söz deyən olmadı. Bakı, Şamaxı, İrəvan və Qarabağ türklərini canavarcasına boğazladınız, qadın-qızların irz, namuslarına təcavüz etdiniz, Zaqatalada yenə sağ qaldınız. Erməni-gürcü müharibəsində Gürcüstandan qaçıb Zaqatalaya gəldiniz. Sizi hüsn-təvəccöhlə qəbul etdik. Yenə də içərimizdə xoşbəxtanə yaşayırsınız. Bu qədər güzəşt və insaniyyət qabağında bir neçə monarxist rusları da özünüzə quyruq yaparaq bədəfkarlar tərəfindən keçmişdə vaqe olan şeylərə din rəngi vermənizdən heç həya etməyirmisiniz? Vilayətimizdə heç bir türk təbəəsi olmadığı halda alayımız içərisində türk əsgərləri olduğunu və zabitlərimizdən zülm gördüyünüzü yalan yerə yazmağınızda məqsədiniz nədir? Kimin müdaxiləsini istəyirsiniz? Məktubunuz axırında "burasını vaqedə Azərbaycan qəsb etdiyi görünür" cümləsini yazmağınızdan fikriniz nədir? Yoxsa Zaqatalada xristian ismi altında başqalarının əli ilə daşnak hökumətimi qurmaq istəyirsiniz?

*Bayram Niyazi [Kiçikxanov]*

## TƏŞKİLATLARIMIZ

Mart faciəsi və ondan sonra uzanan istiqlaliyyət və paytaxtımızı xilas mübarizələri münasibətilə bütün mədəni təşkilatlarımız da tərki-fəaliyyətə məcbur olmuşlardı.

O təşkilatlardan ən məşhurları "Cəmiyyəti-Xeyriyyə", "Nicat", "Səfa" və "Nəşri-Maarif" tərəqqi cəmiyyətləri, "Qənaət", "İsmailiyyə" və bir çox bu kimi iqtisadi və kooperativ ittifaqları idilər ki, Azərbaycan-türk xalqının mədəni və ictimai həyatında böyük rollar oynayırdılar.

Paytaxtımızın fəthindən sonra bu təşkilatlar fəaliyyətə şüru etmədilər [başlamadılar]. Ancaq bircə "Cəmiyyəti-Xeyriyyə" (erkək və xanımlar[ın]ki) yenidən seçki icra etmişlərdir.

Bunların əvəzində yeni mədəni təşkilatlar da doğulmadı ki, hökumətimizin və millətimizin işlərini bir qədər yüngülləşdirsin. Fəqət böylə mədəni təşkilatların varlığını millət, xüsusən camaatımızın ziyalı hissəsi hiss edirdi, anlayırdı və bilirdi ki, əhvali-hazirədən xəbərsiz ölü kimi kəndi hüququnu anlamaqdan məhrum olan zavallı türk kütləsini düşmənlərimizin alətliyindən azad etməkdən ötrü türk ürəfası [ziyalısı] birləşməli və xalq içinə doğru getməlidir.

Bir tərəfdən bu əhvali-hazirə təcrübələri, varlığımıza vurulan tətil zərbələri, demokratiyamızı süpürüb aparan "..." aclıq, bahalıq, o biri tərəfdən də məktəblərin milliləşməsi münasibəti ilə elmi, fənni, ədəbi kitablara olan ehtiyac təsiri ziyalılarımızı toplaşmağa və yeni təşkilatlar vücuda gətirməyə məcbur etdi.

Bu təşkilatlardan birinci olaraq "Türk Ocağı"nı əlavə etmək lazımdır. Mən keçmişdə və gələcəkdə öylə bir mədəni təşkilat zənn etməyirəm ki, Türk Ocağı qədər əhəmiyyət və qiymətə malik ola bilsin. Bir dəfə diqqət verilsin: parça-parça olmuş, müstəqil millətlər halına gəlmiş türk xalqını dil, hiss, ədəbiyyat və tarixcə ümumiləşdirməyi, mədəni bir türk milləti yaratmaq vəzifəsini öhdəsinə alan bir cəmiyyət nə qədər ağır və mühüm məqsədlə çalışmış olur. Fəqət ümumi cəmiyyətlərimizdə olan ümdə nöqsan məqsəddə deyil, üzvlərin zəifliyindədir. O nöqsan burada da büruzə verilmişdir. Türk Ocağı bu vaxta kimi öz işində heç hərəkət etməyir vəhalonki [halbuki] kütləmizin hissini, düşüncə və diləyini təshih etmək, ölkəmizdə türk mədəniyyəti yaratmaq vəzifəsini daşıyır.

Türk Ocağından sonra mədəni bir cəmiyyət təşkil etmək fikri tələbə, gənc, ziyalı və mütəəllimlər [şagirdlər] içində qalxışdı. Tələbələr və mütəəllimlər xüsusi birər təşkilat yapmağa müvəffəq oldular. Fəqət ümumi türk ziyalılar təşkilatı yapmaq fikri ortadan qalxmadı. Ziyalı türk gənclərinin erkək və qadınını bir bayraq altına toplayıb, bir yerdə çalışdırmaq fikri qövldən feilə [sözdən işə] gəlməyə başladı.

"İrşad" adını daşıyan bu cəmiyyət hökumət tərəfindən təsdiq olunmuş, hətta 3 minə kimi müavinət də görmüşdür. Cəmiyyət böyük diqqət və üsul ilə təşkil olunur və müvəffəqiyyətinə də ümid vardır.

Yeni təşkilatlardan birisi də fevralın 15-də təşkil olunan Bakı və Ətrafının Müsəlman Zəhmətkeş Ziyalılarının İttifaqıdır. Bu cəmiyyət şəhərimizin mütəxəssis ziyalıları, doktor, yurist, mühəndis, müəllimləri tərəfindən təşkil olunur. Məqsədi də camaatımıza maddi, siyasi, ictimai, iqtisadi və mədəni müavinət etmək, onda bir vətəndaşlıq, bir qrajdanlıq hissi oyatmaq və müsəlman xalqı ilə qonşu millətlərin arasını gözəlləşdirmək fikri olacaqdır.

Cəmiyyətin mədəni tərəfindən başqa siyasi, milli və camaatın hüquq və ictimai işlərinə qatışması ümumi iclasda mühüm bir məsələ də ortaya atmış oldu. Tərəfimdən verilən o sorğu da bundan ibarət idi: Camaatda oyadılacaq vətəndaşlıq, siyasi və milli oyanıqlıq nasıl olacaqdır? Yəni camaata nə deyiləcək? Söylənəcəkmi ki, sən türksən və yainki yazdığınız kimi "müsəlman milləti" adı ilə çalışılacaq və camaatda öylə bir duyğu da oyadılmağa səy ediləcəkdir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 mart (Bazar ertəsi günü) tarixli 127-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Məlum oldu ki, cəmiyyət müsəlmanlıq fikri və adı ilə çalışmağı qət etmişdir və bu barədə olan "türk, Azərbaycan" təklifləri ümumiyyətlə rədd olunub qaldı.

Əgər bu yeni təşkilat ancaq mədəni və iqtisadi məsələlərlə iktifa [kifayət] edib dursaydı və müsəlmanlıq və türklük kimi öylə mühüm və əsaslı məsələlər təbliğatını da proqramına əlavə etməsəydi, ola bilərdi ki, o cəmiyyət həqiqətən zəhmətkeş ziyalıların bir ittifaqı ola biləydi. Fəqət təəssüf ki, böylə deyildir. Ziyalılar arasında vaqe olan xüsusi siyasi və milli nəzərlər o cəmiyyəti zəif salmış olacaqdır və ümumi mütəxəssis ziyalılar bir bayraq altında toplanammayacaqlar.

Millətin doktor, yurist, mühəndis, müəllim, mühərrir və bu kimi mütəxəssis ziyalılarının ittifaqı ancaq sənətləri olan elmlərin nəşrinə çalışmalı və o biliklərlə millətlərinə yardım etməlidir. Siyasi və milli məsələlər təbliği isə onların sənəti olmadığı kimi, camaatın da bir sinfini ziyalılardan qaçırar. Xalqımızda mədəniyyətə və maarifə "mühafizəçilik" kimi bir hal törədər.

*Məhəmmədzadə Mirzəbala*

## GENERAL SÜLEYMAN BƏY

Bugünlərdə Azərbaycan Cumhuriyyəti ordusu komandanlarından, ordunun böylə mühüm bir vəziyyətində mirliva [general-mayor] Süleyman bəy Əfəndiyevin tif xəstəliyindən vəfat etməsi xəbəri gəldi. Rəhmətullahi əleyhi rəhmətən vasiə.

Mirliva Əfəndiyevin vəfatı nəinki yalnız mütəvəffanın [vəfat edən şəxsin] əqrəba və mütəəlliqatını [yaxınlarını] məhzun və dilgir edəcəkdir, bəlkə onu tanıyan, onun haqqına arif, onun vətən və millət uğrundakı xidmət və fədakarlıqlarını bilmiş olan cümlə azərbaycanlıları dilxun və dağdar [ürəyi qanlı və qəlbi dağlı] edəcəkdir.

Süleyman bəy Əfəndiyev kim idi? Bu suala hazırki Hərbiyyə nazirimiz general Mehmandarov həzrətləri: "Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda təhti-idarəmdəki cümlə zabitan [əmrim altındakı bütün zabitlər] arasında ən birinci mövqe tutanlardan idi!" deyə cavab vermişdir.

Bizlər isə mərhumun səhifeyi-tarixiyyəsinə bir nəzər edəlim. Mən onun bütün səhaifi-tarixiyyəsindən bəhs etməyə məəttəəssüf [təəssüf ki], qadir deyiləm. Bu mənə dəxi məchuldur. Fəqət mərhumun Gəncə şəhərindəki imrari-həyatından [ömür sürməsindən] bəhs etmək mümkünümdür.

O vaxt miralay [polkovnik] rütbəsində olan Süleyman bəy 917-ci sənənin təmmuz [iyul] ayında Gəncə şəhərinə təşrif gətirdilər. Müəyyən bir vəzifə ilə Mavərayi-Qafqaz Hökuməti [Zaqafqaziya Seymi] tərəfindən ezam edilmiş idi. Vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan [çatan] kimi Gəncə Müsəlman Milli Komitəsinə təşrif gətirərək bəyanat verdi və Azərbaycan türklərinin qüvayiəsgəriyyəsi [ordusu] olmaması və buna əşəddi-ehtiyac [şiddətli ehtiyac] xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsarifi Gəncə Milli Komitəsi öz öhdəsinə götürərək qüvayi-əsgəriyyə təşkili əsasına ibtidar etmək [başlamaq] arzusunda bulunarsa, məəlməmnuniyyə [məmnuniyyətlə] bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir.

Milli Komitə işə başladı. 150 nəfərlik leyli və nəhari [gecə və gündüz növbəsi] olaraq bir məktəbi-hərbiyyə güşadına [hərbi məktəb açılmasına] qərar verdi. Bu miqdarı Gəncə vilayəti qəzaları arasında nüfus etibarı ilə təqsim edərək [əhalinin sayı nisbətində bölərək] namizədlər və onların məsariflərini göndərmək xüsusunda cümlə qəzaların milli komitələrinə müraciət etdi. Bəzi qəzalardan mütəəllimlər [şagirdlər] göndərildi. Lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildi isə nəhayət az miqdar. Mərhum Süleyman bəy çalışmağa başladı. Pulsuzluq, aclıq, əlbisəsizlik onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə ağustosunun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şubat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi. Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr [çətin bir iş] hesab edirdi.

Gəncədə anarşi başlandı. Cümlə mülki və hərbi məmurlar dəxi qarətgərlərə, talançılara iltihaq etdilər [qoşuldular]. Kimsə kimsəni tanımaq istəmədi. Kimsə kimsəyə itaət etmədi. Şimdi demək olar ki, düz, doğru, qeyrət və namuslu şəxslər tapılmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyqusuz öz cavan mütəəllimləri ilə şəhərin hirasətinə [mühafizəsinə], şəhərdə əmnü asayiş [əmin-amanlıq] əmələ gətirməkdə zərrə qədər qüsur göstərmədi. Şəhərdə, istasyonda nerəyə gedilsə, Süleyman bəy görülürdü. Özü namus və qeyrətli, mütəəllimləri düz, doğru.

Şəmkir müharibəsi əsnasında isə mərhum Süleyman bəy heç bir fədakarlıqdan çəkinmədi. Əvvəldən axıradək ən təhlükəli, ən mühüm nöqtələrdə isbati-vücud [iştirak] edənlərin birincisi oldu. Bundan sonra Süleyman bəyin məmuriyyəti Qarayazıya təbdil edildi [dəyişdirildi]. Bir müddət Gəncədən getdi. Bu halda müsəlman ordusu təşkilinə hökumət tərəfindən müsaidə edildi. General Əliağa Şıxlinski baş komandan təyin edildi. Gəncədə qüvayi-əsgəriyyə təşkilinə başlanıldı. Yenə mərhum Süleyman bəy 5-ci alay komandanlığına təyin edilərək Gəncəyə təşrif gətirdi. Yenə fəaliyyətə, fədakarlığa başladı. Bu vaxt şəhərdə öylə bir anarşi hökmfərma idi [hökm sürürdü] ki, heç bir qüvvə təmini-asayişə müqtədir deyildi. Nəhayət, mövcud türk əsgərlərini müsəlləh edərək [silahlandıraraq] onların namus və qeyrətlərinə istinadən onların vasitəsi ilə iadeyi-asayişə [asayişi geri qaytarmağa] və Bakı tərəfindən Gəncə üzərinə tərtib edilməkdə olan hücuma qarşı müdafiə etməyə müqtədir ola bilmək lüzumu hiss edilərək buna təşəbbüs edildi. Süleyman bəy: "Mən bu vəzifəni qəbul edə bilərəm" - deyə bütün üsəranı [əsirləri] öz alayına qəbul və hər bir cəhətdən təmin etdi. Həqiqətən bununla da Gəncədə iadeyi-asayiş əmələ gələrək nizam-intizam bərqərar edildi.

Böyləcə, mərhum mirliva Süleyman bəy Əfəndiyev heç bir gün fədakarlıqdan çəkinməyərək fəaliyyətinə davam etməkdə idi.

Bugünlərdə bir ziyayı-əbədi qəbilindən mə'dud olaraq [əbədi bir itki qəbilindən sayılaraq] darülbəqaya irtihal edərək [əbədiyyət evinə köçərək] cümlə azərbaycanlıları hüzn və ələm dəryasına qərq etmiş. Rəhmətullahi əleyhi rəhmətən vasiə.

*Səid*

## BAKI XƏBƏRLƏRİ

**Hərbi gəmilər əhvalatı**

Dün nəşr olunan nömrəmizdə Bakıdakı hərbi donanmadan "Ərdahan", "Qars" və "Leytenant Şmidt" hərbi gəmilərinin İngiltərə komandanlığı tərəfindən verilən ultimatumu qəbul etməyərək gecə ilə şəhərdən getmələrini xəbər vermişdik. Bu gün isə bu xüsusda mövsuq [etibarlı] mənbələrdən aldığımız məlumatı dərc ediriz:

Fevralın 28-də gecə Bəhri-Xəzər donanmasından "Ərdahan", "Qars" və "Leytenant Şmidt" hərbi gəmiləri tərki-silah etmək və Könüllü orduya dəxi təslim olmaq istəməyərək bu barədə İngiltərə komandanlığı tərəfindən verilən təklifi rədd etmiş və işıqları söndürdükləri halda hərbi iskələdən [limandan] çıxıb getmişlərdir. Məzkur [adı çəkilən] hərbi gəmilərin zabitlər heyəti tamamı ilə olaraq sahildə qalmışdır. "Qars" gəmisində qalmış zabitlərdən bir hissəsi gəmi nəfəratının [matroslarının] böylə xudsəranə [özbaşına] hərəkətinə tabe olmaq istəməyərək dənizə tullanmış və salamatlıqla kənara üzüb çıxmışdır.

Səhər saat 8 radələrində dənizə getmiş gəmilərin dalınca "Göytəpə" gəmisi dəxi bir nəfər zabitlə nəfəratı ilə olduğu halda dənizə getmişdir. Gəmilər Nargin cəzirəsi [adası] dalında dayanmış və işin aqibətini gözləyirlərmiş. Gündüz saat 11 radələrində "Nobel" adlı [gəmi], güllə ilə dolu olan "Belaya" gəmisi[ni] arxasına qoşub hərbi gəmilərin dalınca sürət etmişdir.

Dənizə getmiş olan "Ərdahan" gəmisinin sahildə qalmış matrosları "Astarabad" gəmisi nəfəratı arasında təbliğat yapıb onları dəxi həman gəmilərin dalınca dənizə getməyə dəvət edirmişlər. Bundan sonra həman matroslar iskələ kantorundan dəmir daxılı (kassanı) zəbt edib, həman gəmiyə aparmışlardır. Bu vaxt "Astarabad" gəmisinə general Tomson tərəfindən təklif edilmişdir ki, bir saat yarım ərzində Bakı iskələsini tərk edib getsin və yaxud təslim olmaq tələbatını qəbul edərək, 12 və 13-cü körpülərə qayıtsın. "Astarabad" gəmisinin komandiri tərəfindən təslim və tabe olmaq təklifi qəbul edildiyinə baxmayaraq, gəmi nəfəratı özbaşına gəmini dənizə aparmışdır. Bu gəminin zabitləri isə tövqif [həbs] edilib İngiltərə ərkani-hərb [qərargah] idarəsinə gətirilmişdir. "Astarabad" gəmisinin getməsi haqqında təhqiqat icra edildikdən sonra zabitlər azad edilmişlərdir. Azad edildikdə onlardan söz alınmışdır ki, yekşənbə [bazar] günü martın 2-də, gündüz saat 10-da yenidən İngiltərə ərkani-hərb idarəsinə gəlsinlər.

"Astarabad" paraxodu getdikdən sonra bütün hərbi iskələ dairəsi İngiltərə əsgərləri tərəfindən mühasirə edilmişdir. Bir para yerlərdə pulemyotlar qoyulmuş idi. Hərbi iskələdə olanların həpsi həbs edilmişlərdir. Hərbi iskələdə qalan gəmilər tədriclə 12 və 13-cü körpülərə keçməyə başlamışlar. Gedən gəmilərə isə "Vstreça" qayığı ilə general Tomsonun yazmış olduğu qəti tələbatı göndərilmişdir ki, gəmilər qayıdıb göstərilən körpülərə gəlsinlər. Əks surətdə hamı gəmilər qərq ediləcəklərdir. Bundan sonra saat 4-dən başlamış hamı gəmilər biri-birinin dalınca tədricən göstərilən körpülərə gəlmişlər. Gəmi komandanları İngiltərə əsgərlərinin şiddətli mühafizəsi altında olaraq sahilə buraxılmamışlardır. Bulvara yaxın hərbi gəmilər dayanan hissə dəxi İngiltərə əsgərləri tərəfindən mühasirəyə alınmışdır.

12 və 13-cü körpülərə cəm edilən hamı hərbi gəmilər dünən martın 2-də, saat 2-yə qədər tərk-silah edilməyib İngiltərə məmurlarının binagüzarlığı [sərəncamı] olana qədər hələ İngiltərə əsgərlərinin mühafizəsi altındadırlar. Hərbi gəmilər hadisatına görə İngiltərə ərkanı həbs edilənlərin ailələrini də mühafizə altına almışdır. Həbs edilənlərin ailələri arasında şayiə nəşr olunmuşdur [şayiə yayılmışdır] ki, guya hərbi gəmilərdə özlərini öldürənlər vardır. Mövsuq [etibarlı] mənbədən verilən xəbərlərə görə, bu şayiələr yalandır.

Hərbi gəmilər hadisatı münasibatı ilə şəhərdə cürbəcür yalan xəbərlər buraxılmışdır. Məhəlli [yerli] fəhlələr arasında həyəcan olduğunu söyləyirlər. Buna baxmayaraq gəmilərin bilaixtilaf tərk-silah ediləcəkləri ümid olunur. Bizə verilən xəbərlərə görə, gəmilərin tayfaları [heyəti] İngiltərə maryakları ilə əvəz edilib, onlar isə Batuma göndəriləcəklərdir. Hərbi gəmilərin zabitlərindən bir hissəsi bu hadisat qurtarandan sonra Bakıdan Tiflisə və qeyri şəhərlərə getmək niyyətindədirlər.

**Müsəlman məhbuslarının ərizəsi**

Bakı Mərkəzi Həbsxanasında olan müsəlman məhbuslarından 37 nəfəri Bakı qubernatoruna zeyldəki [aşağıdakı] ərizə ilə müraciət etmişlərdir:

*"Biz Mərkəzi Həbsxanada olan 37 nəfər müsəlman məhbusları yaşımızın əsgərliyə təsadüf etdiyini nəzərə alaraq gənc Azərbaycan Cümhuriyyətinin müdafiə və möhkəmləşməsi uğrunda hər bir fədakarlığa hazır olduğumuzu bildirərək tezliklə əsgərliyə qəbul olmağımızı rica ediriz. Bununla məlum ediriz ki, əsgərliyə getməyimizi kəndimizə böyük şərəf və müqəddəs vəzifəədd [hesab] edərək bu yolda çalışmaq və var qüvvəmizlə vətəni mühafizət etməyə hazırız. Ümidvarız, bizim şu ricamız qəbul olub da əsgərliyə alınmamıza binagüzarlıq ediləcəkdir [sərəncam veriləcəkdir].*

*İmzalar"*

**Rüşvət almaq**

4-cü polis idarəsinin məmuru okolotoçnıy nadziratel [şəhər polisi] Lomakin rüşvət almaqda müttəhim edilərək Bakı qubernatoru tərəfindən təhti-mühakiməyə alınmışdır. Rüşvət almağı qubernator kəndisi ona sübut etmişdir.

**Rus Milli Komitəsinin hərəkəti**

Bakı qalabəyisi [komendantı] bəratülqövl [protokol] ilə qubernatora məlum etmişdir ki, Bakıdakı Rus Milli Komitəsi Bakıda və Azərbaycanın başqa yerlərində sükunət edən [yaşayan] ruslara öz tərəfindən şəhadətnamələr və pasportlar verərək özünü hökumət kimi tanıtmaq istəyir. Məzkur [deyilən] komitənin böylə hərəkətini Azərbaycan Cümhuriyyətinin heysiyyət və nüfuzuna zərərli və böylə hərəkətin Azərbaycan istiqlaliyyətinə və onun hüququna təcavüz ədd [hesab] edərək qalabəyi cənabları qubernatordan böylə qeyri-təbii hərəkətin bir an əvvəl önünün alınmasını və bir daha təkrar edilməməsini rica etmişdir. Bəratülqövl ilə bərabər məzkur komitə tərəfindən bir nəfərə verilmiş olan pasport dəxi qubernatora təqdim edilmişdir. Bu münasibətlə Bakı qubernatoru tərəfindən Bakı və Balaxanı-Sabunçu qalabəyiləri və həmçinin bütün uyezd naçalniklərinə zeyldəki təlimnamə (sirkulyar) göndərilmişdir:

*"Axır vaxtlar müşahidə olunur ki, Bakıdakı Rus Milli Komitəsi Bakıda və Azərbaycanın başqa yerlərində sükunət edən ruslara öz tərəfindən şəhadətnamələr və pasportlar verməkdədir. Məzkur komitənin böylə hərəkətini qanundankənar və Azərbaycan istiqlaliyyətinin hüququna təcavüz hesab edərək əmr edirəm ki, bu andan etibarən həman komitə tərəfindən verilmiş və bundan sonra veriləcək olan pasportlar və şəhadətnamələr etibara alınmayıb, onların sahibləri tövqif [həbs] edilsinlər."*

**Bakı quberniyasında qatarın güllələnməsi**

Balaxanı-Sabunçu dairəsinin 7-ci polis müdiri (Bakı qəza qaiməqamı) qubernatora məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] dəmiryol qatarı Güzdək mövqifi [stansiyası] yaxınlığında güllələnmişdir. Təhqiqatdan məlum olur ki, qatar qaçaqmal (tüfəng, patron) aparan Şahsevən quldurları tərəfindən güllələnmişdir. Qaçaqmal ilə yüklü olan sahibsiz bir at dəmiryol xəttinə yaxınlaşdıqda qatar saxlanıb atı axtarmaq istədikdə quldurlar atəş açmağa başlamışlardır. Atışmadan sonra atı yükü ilə bərabər qaçırmışlardır.

**Öldürmək**

Göyçay uyezdi Zərdab kəndi yüzbaşısı uyezd naçalnikinə [qəza rəisinə] məlum etmişdir ki, Lələağacı kəndi əhilləri İsmayıl Osman oğlu, Həsən Cavad oğlu öz həmkəndliləri ... tüfəngdən atdıqları güllə ilə yaralamışlardır. Müqəssirlər tövqif [həbs] edilmişlər. Təhqiq davam edir.

Göyçay uyezdi Axarlı kəndinin yüzbaşısı naçalnikə məlum etmişdir ki, həman kəndin əhli Məşhədi Həmzə Şirəli oğlu öz həmkəndliləri Məhəmmədvəli Ağakişi oğlunu öldürüb və onun qardaşı Fətəlini ağır surətdə yaralamışdır.

## AZƏRBAYCANDA

**Quba qəzasında**

Xüsusi müxbirimizdən: Anarşidən sonra bir azacıq asayiş görə bilmiş Quba qəzası şimdi bir taqım vicdansız millət və vətən xainlərinin intriqalarına məruz qalıb həyəcanlı günlər kecirmədədir. Ötədən bəri gizli olaraq "işləməkdə" olan şu hariflər Parlamanda qaldırılan süni böhrandan sonra bir xeyli daha cürətlənərək ortaya buraxmış olduqları fitnəəngiz şayiələrlə yalnız hökumətimizin nüfuz və etibarını qırmağa deyil, hənüz bərkiməmiş istiqlalımız əleyhinə də bir nümayişçi kimi nəzərə atılırlar. Hələ cayi-təəssüf [təəssüf yeri, təəssüf ediləsi] şurasıdır ki, müfəttinlər [fitnəçilər] başında duran "ziyalı" adını qəsb etmiş ziyadan məhrum olan hariflərin "fəaliyyətləri" ara-sıra əsərsiz [təsirsiz] də qalmayır. Bəzən olur ki, bir köydə bir qaç kişi "üsyan bayrağı" qaldıraraq "əsgər verməyəcəyiz" kimi cəsarətlərdə bulunurlar. Xüsusən neçə aylardan bəri qımıldana bilməyən quldurlar şimdi övzanı [vəziyyəti] kəndiləri üçün əlverişli görüb ortanı qarışdırmış prova-kasiyadan istifadə ilə ötə-bəridən qətl və qarət kimi cinayətlərə başlamışlar.

Eşitdiyimə görə, bu məsələ ilə əlaqədar olaraq Ədliyyə Nəzarəti məmurlarından bir zat bugünlərdə Qubaya varid olub [gəlib] təhqiqat yapmaya şüru etmişlər [başlamışlar].

Müqəssirləri ağır cəzaya düçar etmək hökumətimizin vicdani vəzifələrindən biri olsa gərəkdir.

———

İləri zamandan bəri, xüsusən Mart hadisatından sonra Quba qəzası köylərində məskən etmiş bir xeyli iranlılar vardır ki, təhəmmülgüdaz dürlü məsaib və müşkülata [müxtəlif dözülməz müsibətlər və çətinliklərə] qarşı olaraq bir parça əkmək əldə edib zillətlər içində imrari-həyat edirlər [ömür sürürlər].

Quba qəzası Müşkür polis məntəqəsi Həmşəhri denilən bir köydə İbad Talıb oğlu nam [adlı] bir iranlı yaşayırmış ki, qaç illərdən bəri fəhlə və əkinçilik kimi işlərdə çəkmiş olduğu əziyyətlərə müqabil olaraq 20 min rublə qədər təxmin ediləbiləcək bir qaragünlük kəndisi üçün toplaya bilmiş imiş. Bu yaxın günlərdə həman İbad nam xəstələnib vəfat edir. Bu əhvalı eşidən naib həzrətləri [kənd icmasının başçısı] məzkur [adı çəkilən] köyə cumub mütəvəffanın [vəfat edən şəxsin] tərk etmiş olduğu varyoxunu, İbadın dul qalmış zövcəsi ilə kiçik xalası (teyzə) oğlunun dad və fəryadına etina etməyərək yarı bahasına, yəni 10 min rubləyə yaxın bir məbləğə satıb vərəsələrinə verəcəyəm deyə alır və əvəzində isə bir parça möhürsüz, peçatsız kirli kağız üzərində bir qəbz verir.

Söylənilməsinə görə həman məbləğin 3 min rubldən ziyadəsini naib həzrətləri Xaçmaz istasyonunda mütəvəffanın "gən-cəfə [qumar, kart oyunu] vərəsələrinə" bir neçə şahidlər yanında ehda etmiş [hədiyyə etmiş] imiş.

———

Parlaman iclasında hökumətə qarşı söyləmiş olduqları nitqləri içində Quba qəzası qaimməqamını da odun satmaqda müttəhim edən məbus Qarabəyli əfəndinin ittihamından dolayı qaimməqam Xoyski əfəndi müddəiyi-ümumiyə [prokurora] aşağıdakı ərzi-halı göndərmişdir:

Bakı İstinaf [Apellyasiya] Məhkəməsi müddəiyi-ümumisi hüzurialilərinə.

Keçən sənə kanuni-əvvəlində [dekabrında] Şamaxı qəzası Altıağac malakanları Türkiyə ordusu ehtiyacatından ötrü Quba qəzası Qızılburun mövqifində [stansi-yasında] 7 vaqon odun hazır etmişlər imiş. Yapdığım təhqiqat nəticəsində aşkar olmuşdur ki, həman 7 vaqon odunu Türk Ordusu Azərbaycandan çəkiləndən sonra məzkur [adı çəkilən] malakanlar Bakı Mərkəzi Ev Komitəsinə satmışlar və Mərkəzi Ev Komitəsi vəkili İsmayıl bəy İsgəndər bəy oğlu Hacınski vəsiqələrini təqdim ilə odunları Bakıya aparmışdır. Amma nədənsə Parlaman məbusu Qara bəy Qarabəyli Parlamanda söyləmiş olduğu nitqi içində şu odunları mən öz mənfəətimə satmışam deyə məni müttəhim edərək təqsirlətmişdir. Bu xüsusda hüzurunuza ərz edərək zati-alilərinizdən rica edirəm ki, söyləmiş olduğu böhtandan dolayı məzkur Qarabəylini ədalət məhkəməsinə çəkib qanuni cəzaya düçar etməklə mənim heysiyyətimi müdafiə edəsiniz.

*Quba qəzası qaimməqamı*
*podpolkovnik Xoyski H.R.*

**Ağdaşdan**

16 fevralda Ağdaş cavanları saat 2-də məktəb zalına toplanaraq qaçqınlara yardım komitəsi təşkili xüsusunda məşvərət eylədilər. Bədəhu [sonra] məclis tərəfindən müvəqqəti olaraq Qasım Qasımov sədr, Mirabdulla Qədirov katib intixab olundular [seçildilər]. Müvəqqəti sədr cənabları məclisi işbu sözlərlə açdı:

*"Həzərat, cinsən, dinən bir olan fəlakzədə [fələk vurmuş] qardaşlarımızın acınacaq hallarına yardımda bulunmaq üçün bizlər ruhən borclu olduğumuz kimi bu yolda işləmək dəxi müqəddəs və-zifələrimizdən olsa gərəkdir. Məəttəəssüf [təəssüf ki], lazım gələn əməliyyatımızda nöqsana uğramışız, yəni vaxtı itirmişiz. Bu nöqsan yalnız bizim şəxsi qüsurumuz olduğundan gec də olmuş olsa, yenə işə başlamamız fərz qəbilindən olduğu məlumi-alilərinizdir. Qaçqınlara yardımda bulunmaq üçün bir həqiqi idarə intixab eyləmənizi rica edirəm."*

Hər tərəfdən "düzdür, doğrudur" sədaları eşidilirdi. Nəhayət həqiqi idarə olaraq bir səslə Qasım Qasımovu sədr, Əlibaba Abbasovu xəzinədar və Mirabdulla Qədirovu katib intixab eylədilər.

Bədəhu sədr cənabları tərəfindən qaçqınların əsamisi [adları, siyahısı] tərtib olunması təklif olunaraq məclis tərəfindən bu iş üçün üç komissiya qərar verildi ki, bu surətlədir:

Birinciyə Əbdülbaqi Hacı Həmidzadə və Əli Hacı Rza oğlu, ikinciyə Məsum Ələkbər oğlu və Sultan Xəlilov, üçüncüyə Əşrəf Səmədov və Ağamehdi Lətif oğlu.

Bədəhu [sonra] cəmiyyət əzalarına həftədə bir gün cümə olmaq şərti ilə dəvətnaməsiz toplanmağı təklif etdi. Əzalar isə məəlməmnuniyyə [məmnuniyyətlə] bu qərarı dəxi qəbul eylədilər və cəmiyyətə maddi və mənəvi müavinətdə bulunmalarını əzalar təhtiqərara aldılar.

Nəhayət sədr əfəndi, müəllim Əbülqasım əfəndi Əminzadə cənablarından cəmiyyətin binalı və işlərinin müvəffəqiyyətli olması üçün duada bulunmasını rica və əzaların ayağa qalxmalarını təklif eylədi. Əzalar ayağa qalxaraq dua başlandı və nəhayət "amin" deyə məclisə saat 4-də xitam verildi.

*Məhəmmədrza*
*Əbdizadə*

**İtibdir**

Əli Mehrab oğlunun Suraxından aldığı pasportu itibdir. Etibardan saqitdir [düşmüşdür].

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor**
**Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Talibə (kursistka)**

Ali-ibtidai məktəbinin hər siniflərinə şagirdlər hazır edir. Saat 11-dən 1-ədək, 4-dən 7-ədək. Adres: Qubernski və Sisyanovski küçələrin küncündə, nömrə 7, diş həkimi Levinin evində.

*5713*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.

Телеф. N 22-28. Почт. ящ. N 13.

Agent, komissiyalar və ticarət kantoru

"Fani və kompaniya", Bakı.

Telefon nömrəsi 22-28.

Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Müraciətnamə***

Bu müraciətnamə daha əvvəl qəzetin 27 fevral 1919-cu il tarixli 124-cü nömrəsində də eynən dərc edilmişdir.

"Naberejni": Bakıda, indiki Neftçilər prospekti.

"Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

***Sülh ətrafında***

"İngiltərə layihəsinin beynəlmiləl…": bu və sonrakı cümlənin bəzi sözləri qəzetdə silinmişdir.

***Qəzetələrdən***

"altı vilayət": Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürə-tüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfindən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə "Ermənistan" yaxud "Erməni vilayətləri" deyilməyə, San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən "Ermənistan" deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən "ermənilərin yaşadıqları vilayətlər" deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

***Azərbaycan həşəratı***

"Tasmalılı … (Alatəmir kəndi yanında)": şəxsin adı qəzetdə silinmişdir.

"Sajın" yaxud "sajen": metrik sistemdən əvvəl işlənən, təxminən 2,13 metrə bərabər uzunluq ölçüsü.

***Təşkilatlarımız***

"…bir qədər yüngülləşdirsin": qəzetdə "bu qədər yüngülləşdirsin" getmişdir.

"süpürüb aparan … aclıq": arada bir söz oxunmur.

"…qövldən feilə gəlməyə başladı": qəzetdə "qövldən" yerinə "qüvvədən" getmişdir.

***General Süleyman bəy***

"Rəhmətullahi əleyhi rəhmətən vasiə": "Allah ona çox-çox rəhmət eləsin." (ərəbcə)

***Bakı xəbərləri***

"öz həmkəndliləri … tüfəngdən atdıqları güllə ilə yaralamışlardır": yaralanan şəxsin adı qəzetdə silinmişdir.

***Azərbaycanda***

"Həmşəhri": güman ki, "Həmsar" olmalıdır.




# BƏƏ-nin İqlim Dəyişikliyi Şurası COP29 üçün iqlim ambisiyalarını artırmaq niyyətindədir

**BƏƏ-nin İqlim Dəyişikliyi Şurası bu ilin sonunda Azərbaycanda keçiriləcək COP29-a hazırlıq çərçivəsində iqlim ambisiyalarını artırmaq üçün milli səylərini qiymətləndirib.**



AZƏRTAC yerli mətbuata istinadla xəbər verir ki, müzakirələr ölkənin iqlimlə bağlı fəaliyyətini yerli və qlobal səviyyədə gücləndirmək istiqamətində strategiyalara yönəldilib. Şura 2050-ci ilə qədər xalis sıfır hədəfinə nail olmağa yönəlmiş təşəbbüslərin həyata keçirilməsində irəliləyişlərə toxunub.

İclasa İqlim Dəyişikliyi və Ətraf Mühit naziri Dr.Amna bint Abdullah Al Dahak sədrlik edib. Nazir bildirib ki, iqlim dəyişikliyi hər bir ölkə üçün ciddi təsirləri olan bir reallıqdır.

"Biz iqlim dəyişikliyinin mühüm sahələrə ciddi təsirlərini görürük və bu reallıq bizi onun mənfi təsirlərini azaltmaq üçün səylərimizi gücləndirməyə vadar edir. İqlim dəyişikliyi ilə mübarizədə innovasiyaları sürətləndirməli və həllərin tətbiqini reallaşdırmalıyıq. Bu addım 2050-ci ilə qədər BƏƏ-də xalis sıfır hədəfinə nail olmaq öhdəliyimizə uyğundur", - deyə Dr.Amna bint Abdullah Al Dahak vurğulayıb.

Nazir qeyd edib ki, COP28-in nəticələri BƏƏ-nin qlobal iqlim dəyişikliyi ilə mübarizədə üstün mövqeyini vurğulayıb və bu ilin sonunda Azərbaycanda keçiriləcək COP29-a hazırlaşarkən BƏƏ-nin mövqeyini daha da gücləndirməyə ruhlandırıb.

İclasda BƏƏ-nin "Xalis sıfır 2050" strategiyası da daxil olmaqla, milli iqlim təşəbbüslərinin həyata keçirilməsi ilə bağlı müxtəlif mövzular müzakirə edilib.

# FIFA prezidenti COP29-a dəvət olunub

**Azərbaycanın İsveçrə və Lixtenşteyndəki səfiri Fuad İsgəndərov Sürix şəhərinə səfər edib. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FIFA) qərargahında təşkilatın baş katibi Mattias Grafström ilə görüş keçirilib.**



Səfir F.İsgəndərov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak ilə bağlı Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FIFA) prezidenti Canni İnfantinoya ünvanlanmış dəvətnaməni qarşı tərəfə təqdim edib. Dəvət məktubu məmnunluqla qəbul olunub.

Görüşdə, həmçinin FIFA-nın Avropa üzrə regional direktoru Elxan Məmmədov və İctimaiyyətlə əlaqələr üzrə meneceri Annaliza Tsakona iştirak ediblər.

# COP29 Azərbaycanın nailiyyətlərini dünyaya nümayiş etdirmək üçün növbəti fürsət olacaq

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi dünyada ölkəmizin ətraf mühitin qorunmasına və müxtəlif səviyyələrdə iqlim dəyişikliyinin qarşısının alınmasına verdiyi töhfənin mühüm göstəricisi kimi dəyərləndirilir.**



Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün ilk addımlarından birini hələ 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması ilə atıb. 2021-ci ildə isə Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillik üçün hədəf kimi ölkənin sosial-iqtisadi inkişafının 5 əsas prioritetindən biri məhz "təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi" adlanır.

Ölkəmiz 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını baza ili (1990-cı il) ilə müqayisədə 35, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı hədəfləyib. "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası "yaşıl enerji zonası" elan edilib. İşğaldan azad edilmiş ərazilərimizdəki bərpa-quruculuq işlərində ətraf mühitin mühafizəsi məsələsinə xüsusi önəm verilir. Belə ki, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

"Yaşıl enerji" layihələrimiz uğurla gerçəkləşməkdədir. Ötən ilin oktyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası müvəffəqiyyətlə istismara daxil oldu. "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə birgə tikilməkdə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası da xüsusi əhəmiyyət daşıyır. Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunun ərazisində qoyulub. Bu, ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Eyni zamanda stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq.

Cəbrayıl rayonunda BP ilə tikiləcək "Şəfəq" Günəş-Elektrik Stansiyası isə təməlqoyma ərəfəsindədir. Bir neçə ay əvvəl Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının iclasında təsis edilməsinə qərar verilən "SOCAR Green" MMC şirkətinin yaxın gələcəkdə bir sıra önəmli layihələr həyata keçirməsi də nəzərdə tutulur. "Masdar" şirkəti ilə birgə "Meqa" layihənin ilkin mərhələsində quruda 1 QVt gücündə külək və günəş enerjisi layihələrinin icrası planlaşdırılıb. Həmçinin "ACWA Power", "Masdar" və "Energy China" şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələri reallaşdırılacaq.

Qeyd edək ki, il yarım il əvvəl Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Ruminiya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş" imzalanıb. Bu saziş Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur. Bu, o deməkdir ki, Azərbaycan gələcəkdə "yaşıl enerji"sinin bir hissəsini ixrac edəcək.

Ölkəmizin ekologiya, "yaşıl enerji" sahəsindəki bu və digər uğurları, eləcə də hədəfləri dünyanın diqqət mərkəzindədir. Bu baxımdan, müxtəlif ölkələrin vəzifəli şəxslərinin, görkəmli mütəxəssislərinin, media nümayəndələrinin Azərbaycanda keçiriləcək COP29-a marağı daha da artır. Məsələn, Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, "The Guardian" qəzetinin ətraf mühit üzrə redaktoru Fiona Harvi deyib ki, "Azərbaycan bu il daha bir mühüm tədbirə - COP29-a evsahibliyi edəcək. Biz hamımız artıq bu mühüm tədbirə hazırlaşırıq".

Rusiyalı iqtisadi ekspert, Arktika İctimai Elmlər Akademiyasının prezidenti, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü, texniki elmlər namizədi Arseni Mitko Azərbaycanın böyük "yaşıl enerji" potensialı olduğunu vurğulayır: "Günəş enerjisini demək olar ki, bütün ölkə ərazisində əldə etmək olar və külək enerjisindən istifadə baxımından ən perspektivli sahələr Xızı, Xəzər, Abşeron, Qobustan rayonları, eləcə də Bakı sayılır. Xəzər dənizində dəniz və külək stansiyalarının yaradılması ehtimalı var. Külək və günəş elektrik stansiyaları, emissiyaların azaldılması, meşələrin bərpası, elektrik və hidrogen nəqliyyatının inkişafı - bütün bunlar böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu məsələdə elektrik enerjisi istehsalının ənənəvi üsullarından ekoloji cəhətdən təmiz üsullara sürətli keçid mümkün deyil. Hesab edirəm ki, enerji mənbəyi kimi neft, qaz və kömür dərhal silinməyəcək. Onlar hələ də qalacaqlar, onlara ehtiyac davam edəcək. Ona görə də Azərbaycan ağlabatan proporsiya və real tempi saxlamaqla ənənəvi üsullardan yeni üsullara rəvan keçid strategiyasını qəbul edib".

"BTP Advisers" şirkətinin icraçı direktoru Mark Pursey COP29-un Bakıda keçirilməsini Azərbaycanın "yaşıl enerji" sahəsində imkanlarını dünyaya nümayiş etdirməsi baxımından əla fürsət olduğunu deyib.

NATO Baş katibinin İctimai diplomatiya məsələləri üzrə köməkçisinin müavini Karmen Romero "X" sosial şəbəkəsindəki hesabında fikirlərini belə bölüşüb: "Azərbaycanda COP29-un keçirilməsini səbirsizliklə gözləyirəm".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın iqlim dəyişikliyi üzrə İkiillik Şəffaflıq Hesabatının hazırlanmasına dəstək təlimi keçirilib

**Azərbaycanın COP29-a sədrliyi çərçivəsində mayın 6-7-də Bakı şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) ekspertləri tərəfindən Paris sazişinə uyğun olaraq Təkmilləşdirilmiş Şəffaflıq Çərçivəsinin (ETF) əsas komponenti olan İkiillik Şəffaflıq Hesabatının (BTR) hazırlanmasına dəstək məqsədilə aidiyyəti dövlət qurumlarının iştirakı ilə təlim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev tədbirin açılış mərasimində çıxış edərək, tərəf dövlətlərin, o cümlədən Azərbaycanın İkiillik Şəffaflıq Hesabatlarını təqdim etməsinin COP29 sədrliyinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Bununla əlaqədar o, ölkəmizin müvafiq dövlət qurumlarını qısa zamanda Azərbaycanın İkiillik Şəffaflıq Hesabatının hazırlanmasına töhfə verməyə çağırıb.

İkigünlük təlim zamanı UNFCCC katibliyinin nümayəndələri ETF-nin əsas elementləri, bu sahədə modallıqlar, prosedurlar və təlimatlar, eləcə də İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması prosesində yeni elektron proqram təminatından istifadə ilə bağlı iştirakçılara məlumat veriblər.

# Məktəblərdə ekoloji mövzular müzakirə olunur

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan tədbirlər, o cümlədən konfrans, forum, "dəyirmi masa" və seminarlar, ağacəkmə aksiyaları, təmiz ətraf mühit barədə müsabiqə və ekodüşərgələr təşkil edilib.**



İdarədən AZƏRTAC-a bildirilib ki, tədbirlərin keçirilməsinin əsas məqsədi ekoloji mədəniyyəti, təbiətə həssas münasibəti təbliğ etmək, yaşıllıqlara qayğı ilə yanaşmağın zəruriliyinə diqqət çəkməkdən ibarətdir.

Tədbirlərdə çıxış edənlər dünyanı narahat edən ekoloji problemlərdən, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən söhbət açaraq bu sahəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyətini şagirdlərin diqqətinə çatdırıblar.

Qeyd edilib ki, "Yaşıl dünya naminə həmrəylik ili"nin elan edilməsi ölkəmizdə 2024-cü il ərzində bu sahədə fəaliyyətin genişləndirilməsinə və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin intensivləşməsinə töhfə verir.

Tədbirlərdə cari ildə ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçiriləcəyi diqqətə çatdırılıb. Belə tədbirin ölkəmizdə keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətindəki səmərəli fəaliyyətinin təqdir olunması kimi qiymətləndirildiyi vurğulanıb.

# *COP29-un şüarı:* "Yaşıl dünya naminə həmrəy olaq!"

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması təkcə ölkəmizə deyil, əslində, bütün dünyaya qlobal çağırışdır. Çünki məqsəd gələcəkdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə dəyə biləcək zərərlərin azaldılması və sağlam həyat konsepsiyasının yaradılmasıdır. Ətraf mühitin çirklənməsinin qarşısını almağın yolları isə əsasən, dünyanın "yaşıllaşdırılması"ndan keçir.

Bəşəriyyəti təhdid edən iqlim dəyişikliyi həm ekosistemi çökdürür, həm də insanın sonunu yaxınlaşdırır. Elə bir gün yoxdur ki, dünyanın hansısa yerində insanları vahiməyə salan, qorxudan, ağır fəsadlar verən təbii fəlakət baş verməsin. Dəhşətli faciələrə yol açan kataklizmlər problemə daha ciddi yanaşmağı tələb edir. Qasırğaların, daşqınların, zəlzələlərin az qala adi hal aldığı bir zamanda təbii ki, dünya ölkələri, beynəlxalq qurumlar və ictimai təşkilatlar qollarını çırmayıb əməli işə keçməlidirlər. 1994-cü ildən fəaliyyətə başlayan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyası (COP) hər il bu kataklizmlərin qarşısını almağın yollarını müzakirə edir. COP üzvləri olan ölkələrin hər biri həmin istiqamətdə "yaşıl dünya"ya öz töhfəsini verməyə çalışır. Bu baxımdan, Azərbaycan dünyada gedən iqlim dəyişikliyi proseslərinə ən həssas şəkildə yanaşan azsaylı ölkələrdəndir.

Ona görə azsaylı deyirik ki, ölkəmiz COP səviyyəsində, eləcə də qlobal müstəvidə ekosistemi əhatə edən digər müzakirələrdəki çağırışlara öz əməli işi ilə cavab verir. Bu, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair 5 milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirdiyi rəsmi səviyyədə qəbul olunub. Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb. Təkcə "Yaşıl dünya naminə həmrəylik ili"ndə deyil, ötən illərdən üzübəri iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə öz hədəflərini müəyyənləşdirib. Dünyanın bir parçası olan Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi, əsasən, 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfə alıb. Bundan başqa, işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji zonası" elan edib.

Azərbaycanın xüsusilə son 30 ildə işğal altında olan torpaqlarında ekosistem dağıdılmış, ətraf mühit müxtəlif çirklənmələrə məruz qalmışdır. İşğal dövründə həmin ərazilərdə su mənbələrindən kortəbii istifadə, meşə və qiymətli ağac növlərinin kütləvi məhv edilməsi, fauna-flora balansının pozulması ölkəmizə yüz milyonlarla dollar həcmində ekoloji ziyan vurub. Hələ onu demirik ki, Qarabağ və Şərqi Zəngəzurda mina təhdidi davam edir. Bütün bunlara görə Azərbaycan ətraf mühitin həddən çox çirklənməyə məruz qalan azsaylı ölkələrdən sayılır. Odur ki, sadalanan və sadalanmayan fəsadları aradan qaldırmaq üçün "yaşıl enerji"yə keçid "yaşıl iqtisadiyyat"ın gündəliyində dayanan vacib faktor kimi dünyanın diqqətini cəlb edir. "Yaşıl enerji"nin işığını artırmaq üçün COP29-a hazırlıq prosesində "yaşıl dünya"ya açılacaq qapının şüarı "Yaşıl dünya naminə həmrəy olaq!" seçilib.




Qeyd edək ki, bu fakt COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin bir neçə gün əvvəl keçirilən üçüncü iclasında açıqlanıb. Əvvəlki iki iclasda olduğu kimi, bu yığıncaqda da Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29-un və Liderlər Sammitinin Bakı Olimpiya Stadionunda keçiriləcəyini, hazırda stadionda və ətrafında layihələndirmə və digər hazırlıq işlərinin aparıldığını vurğulayıb. Tədbirdə iştirakla bağlı Prezident İlham Əliyevin adından BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına tərəf ölkələrin dövlət və hökumət başçılarına dəvət məktublarının göndərildiyini qeyd edib. Dövlət başçısının "COP29 və Azərbaycan üçün yaşıl baxış" adlı beynəlxalq forumda, Petersberq İqlim Dialoqunda və VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda COP29 və iqlim dəyişikliyi məsələləri ilə bağlı ölkəmizin mövqeyini əks etdirən əsas istiqamətlərə dair məlumat verdiyini bildirib. "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Azərbaycanda görülmüş işlər barədə məlumat verən Təşkilat Komitəsinin sədri ölkəmizin Dünya Bankının Vaşinqton yaz sessiyası və Petersberq İqlim Dialoqu da daxil olmaqla iqlim dəyişmələri sahəsində təşkil edilən mühüm beynəlxalq tədbirlərdə fəal surətdə iştirak etdiyini bildirib və iyun ayında keçiriləcək Bonn iqlim dəyişikliyi konfransına ciddi hazırlıq işlərinin aparılmasının vacibliyini söyləyib. Yığıncaqda COP29 komandasının xarici ölkələrə səfərləri çərçivəsində keçirilən görüşlər, hazırlıq prosesində təşkilati-logistika sahəsində görülən işlərdən söz açılıb. İqlim dəyişmələrinə qarşı fəaliyyət zamanı innovasiya və smart texnologiyalara geniş yer verilməsi, COP29-da iştirak edəcək şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, vətəndaş cəmiyyətinin rolu və ekologiya ilə bağlı QHT-lərin tədbirdə iştirakının təmin olunması da diqqətə çatdırılıb.

COP29-un hazırlıq prosesi onu deməyə əsas verir ki, qarşıdakı illərdə yaradılacaq "yaşıl dünya"ya Azərbaycan özünün möhürünü vuracaq. Bunu Prezident İlham Əliyevin çıxışlarının birində söylədiyi fikrə söykənərək yazırıq: "Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Azərenerji" Ulu Öndər Heydər Əliyevlə bağlı tədbirlər keçirib



**Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyi və "2024 - Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Azərenerji" tərəfindən silsilə tədbirlər keçirilir.**

Ölkənin bir çox ərazisində yerləşən enerji obyektlərində həyata keçirilən ağacəkmə aksiyasının davamı olaraq "Qobu" Enerji Qovşağının ərazisində də ağacəkmə aksiyası keçirilib. Aksiyanın keçirilməsində əsas məqsəd ölkədə ekologiyanın qorunmasına və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etmək, Ümummilli Liderin ənənəsinə sadiq qalmaqdır.



Ağacəkmə aksiyasının ardınca Ulu Öndərin anadan olmasının 101 illiyi ilə bağlı "Qobu" Enerji Qovşağının akt zalında tədbir keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişindən sonra ölkə enerji sistemini kənar mənbələrdən asılı vəziyyətdən çıxarması və Azərbaycanda enerji müstəqilliyinin və təhlükəsizliyinin bünövrəsinin qoyulması, həmçinin 1993-cü ilin iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra elektroenergetika sahəsində gördüyü misilsiz işlərlə bağlı çıxışlar edilib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan Avropa məkanında fəaliyyətini genişləndirir
Bolqarıstan Prezidenti Rumen Radevin Azərbaycana rəsmi səfəri
Azərbaycanın özü qədər əbədi
Ulu Öndərin örnək ömrü
Azərbaycan sabitlik və iqtisadi möcüzələr yaradan ölkədir
Prezident İlham Əliyev:
Prezident Rumen Radev:
azerbaijan-news.az

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

*"Bank Respublika"ASC səhmdarlarının növbəti ümumi yığıncağı 24 iyun 2024-cü il tarixdə saat 12:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.*

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2023-cü il üçün Kənar audit yoxlamasının nəticələri haqqında.
4. "Bank Respublika"Açıq Səhmdar Cəmiyyətinin investisiya qiymətli kağızlarının emitenti olaraq 2023-cü il üzrə illik hesabatının təsdiqi.
5. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının Əsasnaməsinin təsdiq edilməsi haqqında.
6. "Bank Respublika" ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.
7. "Bank Respublika" ASC-nin Dividend Siyasətinin təsdiq edilməsi haqqında.

***Rəhbərlik***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**


# Yeni gərginlik mərkəzi - Cənubi Çin dənizi

**Dünyada Şərqlə Qərb arasında olan siyasi və hərbi qarşıdurma gərginləşməkdə davam edir. Hələlik tərəflərin heç biri istədikləri nəticəni əldə edə bilməyib. Hətta Rusiya-Ukrayna müharibəsinin kimin qələbəsi ilə başa çatacağını da demək çətindir.**

Çin bu müharibədə Rusiyanın məğlubiyyətini istəmir. Bilir ki, həmin məğlubiyyətdən sonra növbə ona çata bilər, baxmayaraq ki, Qərb şimal qonşumuzla məsələni bitirmədən də Çinə qarşı ara-sıra həmləyə keçir. Bu təzyiq bütün sahələrdə olur. Səbəb kimi ÇXR-nin Rusiya ilə hərbi əməkdaşlığı göstərilir, hərçənd bu iki ölkə arasında hərbi əməkdaşlıq barədə razılaşmalar Rusiya-Ukrayna müharibəsindən illər əvvəl mövcud olub. Amma nədənsə bu, ABŞ-nin yadına indi düşüb. O üzdən bunu Çinə təzyiq göstərmək üçün bir bəhanə kimi də qəbul etmək olar.

Son dövrlərin hadisələrinə diqqət yetirdikdə görürük ki, müharibə Rusiya-Ukrayna cəbhəsində getsə də, gərginlik mərkəzi Cənubi Asiyaya transfer edilir. ABŞ-nin Dövlət katibi Entoni Blinkenin Çinə son səfəri iki ölkə arasında olan gərginliyi bütün dünyaya nümayiş etdirdi. E.Blinken sözün həqiqi mənasında bütün diplomatik nəzakət qaydalarını pozaraq Çini ABŞ-də keçiriləcək prezident seçkilərinə müdaxilə etməkdə suçladı. Məsələ bununla bitmədi - səfərdə olduğu ölkəyə bir çox sahədə nəyi necə etmək barədə ultimativ qaydada xəbərdarlıq etdi. Və Çinin dövlət başçısı tərəfindən cavabını da aldı.

Mövcud gərginliyin əsas səbəbi Asiya nəhənginin genişlənmə siyasəti aparmasıdır. Yəni ölkə hüdudlarından kənarda siyasi və iqtisadi nüfuzunu artırmasıdır. Çin son dövrlər Cənubi Asiya regionundakı ölkələri öz iqtisadi təsiri altına alır və bununla bölgədə ABŞ-nin iqtisadi maraqlarına ciddi zərbə vurur. Bununla yanaşı, "Əjdahalar ölkəsi" ABŞ-nin mütləq hakim olduğu Cənubi Amerika bazarına da ayaq açıb. Məlumdur ki, bu ölkələrlə ABŞ-nin onların daxili işlərinə qarışdığı üçün ciddi problemləri var. ÇXR bu fürsətdən yararlanaraq qitənin cənubunda iqtisadi üstünlüyü ələ almaq istəyir və getdikcə buna nail olur.

**Beynəlxalq icmal**



Amma bu da hələ hamısı deyil. Çinin son dövrlər Afrika qitəsinə iqtisadi təsiri ABŞ ilə yanaşı, Avropanı da qorxudur. Xüsusən Fransa ÇXR-nin bu qitədə təsirinin gündən-günə artmasından çox rahatsızdır. Bu da boş yerdən deyil. Təsəvvür edin ki, Fransanın Afrikadakı müstəmləkə siyasətindən əldə etdiyi illik gəlirin həcmi 500 milyard dollardan çoxdur. Belə bir itki Fransa iqtisadiyyatına böyük zərbə ola bilər. Bundan başqa, Afrikadakı təsirin itirilməsi Fransanın enerji təhlükəsizliyinə ciddi təhdiddir. Çünki Fransada 51 atom elektrik stansiyası fəaliyyət göstərir və Avropanın Rusiya qazından imtina etməsi səbəbindən həmin stansiyalar Fransaya əlavə gəlir əldə etməyə imkan verir. AES-in işləməsi üçünsə uran lazımdır. Belə vəziyyətdə Fransanın əli Afrika uranından çıxmış görünür. E.Makronun yaxın zamanda Qazaxıstana baş tutmuş səfəri də bu əndişədən qaynaqlanır. Qazaxıstan dünyada uran ehtiyatları ilə zəngin olan 10 ölkədən biridir və Fransa Afrikadan uran əldə edə bilməyəcəyi halda alternativ ölkə kimi Qazaxıstanı seçib.

Çinin Afrikaya sürətlə ayaq açmasının səbəbi onun apardığı incə siyasətlə bağlıdır. Məlumdur ki, bu qitədəki ölkələr kasıbdırlar, onların infrastrukturu inkişaf etməyib, üstəlik müəyyən sosial çətinliklər məngənəsində sıxılırlar. ÇXR də bundan məharətlə yararlanır. İlkin mərhələdə heç bir qarışıqlıq gözləmədən bu ölkələrdə təmənnasız sosial infrastruktur layihələri icra edir. Belə addım həmin ölkələrin hakimiyyəti və xalqı tərəfindən xoş məram kimi qarşılanır. İkinci mərhələdə Çin heç bir siyasi tələb irəli sürmədən borc verir. Bu da həmin ölkələrdə məmnuniyyət doğurur. Ancaq pulsuz pendir tələdə olur. Artıq bir çox Afrika ölkəsi Asiya nəhənginə külli miqdarda borclanıb və onun təsiri altına düşüb.

Bütün bunlara baxmayaraq, Afrika ölkələri üçün Qərblə müqayisədə Çinlə iqtisadi, siyasi və hərbi əlaqələr qurmaq daha sərfəlidir. Çünki Qərbdən fərqli olaraq Çin Afrika ölkələrinə demokratiya, insan haqları və siyasi kursun müəyyən edilməsi kimi tələblər irəli sürmür. Belə münasibət hər iki tərəfə sərfəli olduğundan əlavə problemlər də yaşatmır.

Bütün bunların fonunda ABŞ Avropadan Çinlə iqtisadi münasibətləri aşağı səviyyəyə endirməyi tələb edir. Ancaq Avropanın Rusiya ilə iqtisadi münasibətlərin kəsilməsi ucbatından bir sıra problemləri yaranıb. Məsələn, ucuz rus qazı əvəzinə bahalı Amerika maye qazından istifadə etmək məcburiyyətində qalıb. Enerjidaşıyıcıların qiymətlərinin bahalığı isə Avropa iqtisadiyyatına ciddi təsir göstərib. Üstəlik "qoca qitə" geniş Rusiya bazarını itirib və o üzdən ixracatda kəskin azalma baş verib. Ona görə də boşluqları doldurmaq üçün Avropa Çinlə iqtisadi əlaqələri genişləndirmək arzusundadır.

Xəbər verildiyi kimi, Çin lideri Si Cinpinin Avropa turnesinin ilk dayanacağı Fransa olub. Turne may ayının 10-dək davam edəcək. Beşgünlük səfər çərçivəsində Çin rəhbəri Serbiya və Macarıstana da gedəcək. Amma səfər sadəcə üç ölkə ilə məhdudlaşmayacaq, qitənin problemləri Aİ ilə birlikdə müzakirə olunacaq. Səfərin əsas məqsədi iki tərəf arasında qarşılıqlı siyasi etimadı gücləndirmək, strateji konsensusa nail olmaq və əməkdaşlığı genişləndirməkdir.

ABŞ başlıca rəqibini cilovlamaq üçün gərginliyi Çin ərazisinə daşımaq istəyir. Çin hazırda üzərindən ildə 3 trilyon dollarlıq ticarət aparılan Cənubi Çin dənizinə təkbaşına nəzarət etmək istəyir. Təbii ki, region dövlətləri bundan narazıdır. Amerika bu fürsətdən istifadə edib həmin ölkələri öz tərəfinə çəkərək "Asiya nəhəngi"nə qarşı koalisiya yaradır və hətta onlarla birgə hərbi təlimlər keçirir. Çin buna cavab olaraq dənizdə süni adalar salaraq hərbi dəniz donanmasının bazasını yaradır. Sözsüz ki, burada ABŞ Çinin yaralı yeri olan Tayvan faktorundan da istifadə edir. Bir sözlə, Qərb-Şərq qarşıdurması Avropadan Cənubi Asiyaya daşınır. Bir çox hərbi və siyasi ekspertin qənaətinə görə, üçüncü dünya müharibəsi burada başlayacaq. Yaxın günlərdə Çinin Cənubi Çin dənizində Sinqapurun hərbi gəmisinə təzyiqli su ilə həmlə etməsi buna misaldır. Ekspertlərin fikri belədir ki, su şırnağı hər an mərmi ilə əvəz oluna bilər. Sadəcə bunun zamanının nə vaxt gələcəyini heç kəs bilmir.

Sual oluna bilər: Çinin genişlənmə siyasətinin uğur qazanmasının səbəbi nədir? Məlumdur ki, Qərbdə liberal iqtisadiyyat mövcuddur və kapital qoyuluşu sahibkarların şəxsi təşəbbüsü ilə həyata keçirilir. Çin isə öz dövlət maraqlarına uyğun planlı şəkildə büdcədən lazım bildiyi yerə investisiya yatırır. Belə imkan onun məqsədlərinə çatmasını asanlaşdırır. Liberal iqtisadiyyata malik olan Qərb Çinin belə çevik siyasətinə qarşı vaxtında reaksiya verə bilmir. Qeyd etdiyimiz kimi, Çin sərmayə yatırdığı ölkələrdən hər hansı bir siyasi şərt tələb etmir. Bu, az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrə sərf edir, buna görə də Çinlə iqtisadi münasibətlərə üstünlük verirlər. ÇXR-nin ixracatda uğur qazanmasının səbəbi isə satdığı malın ucuz olmasıdır. O üzdən həmin kateqoriyadan olan ölkələr ABŞ və Qərb ölkələrinin baha məhsullarına yox, ucuz Çin mallarına üstünlük verirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Xocalıda insana məxsus sümük fraqmentləri aşkarlanıb

**Xocalıda insana məxsus sümük fraqmentləri aşkar edilib. Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.**

Qeyd edilib ki, işğaldan azad olunmuş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində mayın 8-də həyata keçirilən tikinti-qazma işləri zamanı insana məxsus olması ehtimal edilən müxtəlif sümük fraqmentlərinin aşkar edilməsi faktı üzrə Xocalı Rayon Prokurorluğunda araşdırma aparılır.

# Bakının bəzi küçə və prospektlərində nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulacaq

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulmaqla istiqamətlər dəyişdiriləcək.**




AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarına müraciətində bildirib. Qeyd olunub ki, mayın 10-da səhər saat 08:00-dan mərasim qurtaranadək Parlament prospekti ilə kəsişən, birləşən küçələrdə avtomobillərin hərəkəti tam məhdudlaşdırılacaq. Hərəkətin məhdudlaşdırılması Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edənlərin rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə həyata keçirilir. Bununla əlaqədar olaraq, Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin kəsişməsindən, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişməsindən, Mehdi Hüseyn küçəsi, Teleteatr binasının qarşısından, İzzət Nəbiyev, Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən, yəni Milli Məclisin inzibati binasının arxa hissəsindən Parlament prospekti - Fəxri xiyaban istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılaraq istiqamət dəyişdiriləcək.

Bu istiqamətdə şəxsi avtomobillərdən mümkün qədər az istifadə edilməsi, ictimai nəqliyyata üstünlük verilməsi tövsiyə olunur.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4337
Sifariş 1012

Qiyməti 60 qəpik